

# HƏZRƏTİ MUHƏMMƏD (s) PEYĞƏMBƏR

**HARUN YƏHYA**
**(ADNAN OKTAR)**

Hazırda insanlar, xüsusilə də gənclər müxtəlif adamları özlərinə nümunə götürür, onların hal və hərəkətlərini, danışıqlarını, üslublarını, geyim tərzlərini təqlid edir, onlar kimi olmağa çalışırlar. Ancaq bu adamların əksəriyyəti doğru yolda olmadığı kimi, gözəl əxlaqa və davranışa da malik deyillər.

Müsəlman hal və hərəkətlərində, əxlaqında bəşər üçün axırıncı peyğəmbər olaraq göndərilən, Allahın sonuncu haqq kitabını vəhy etdiyi, gözəl əxlaqı, təqvası, Allaha olan yaxınlığı ilə insanlara nümunə etdiyi Hz.Muhəmmədə (s) oxşamağa, bənzəməyə çalışmalı və bunun üçün səy göstərməlidir. Allah bu həqiqəti bir ayədə belə buyurur:

**«Həqiqətən, Allahın rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl nümunədir!» («Əhzab» surəsi, 21).**

Peyğəmbərimizi (s) görməsək də, Quran ayələrindən və hədislərdən onun gözəl davranışlarını, danışıqlarını, göstərdiyi gözəl əxlaqı tanıya bilər, ona oxşamaq, axirətdə onunla yaxın dost olmaq üçün əlimizdən gələn səyi artıqlaması ilə göstərə bilərik.

Bu kitabın hazırlanmasının məqsədi Peyğəmbərimizi (s) hər tərəfli tanıtmaq, onun imanını, əxlaqını, alicənab və nəzakətli xarakterini insanlara çatdırmaqdır.



**MÜƏLLİF HAQQINDA**

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar 1956-cı ildə Türkiyənin Ankara şəhərində anadan olub. 1980-ci illərdən bu günə qədər imani, elmi və siyasi mövzularda xeyli əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin (darvinistlərin) saxtakarlığını, onların iddialarının heç bir elmi həqiqətə əsaslanmadığını göstərən, habelə darvinizmin qanlı ideologiyalarla şübhəli əlaqələrini üzə çıxaran bir çox mühüm əsərləri var.

Müəllifin əsərlərindəki əsas məqsəd Quranı bütün dünyada təbliğ etmək, bununla insanları Allahın varlığı, birliyi və axirət kimi əsas iman məsələləri barədə dərindən düşünməyə sövq etmək, inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqatlarını hər kəsə göstərməkdir.

Həmçinin müəllifin bu günə kimi 60 müxtəlif dilə tərcümə edilən təxminən 300 əsəri dünyanın hər yerində geniş oxucu kütləsi tərəfindən təqdirlə qarşılanır.

Harun Yəhyanın külliyyatı Allahın icazəsi ilə XXI əsrdə insanları Quranda bildirilən əmin-amanlığa və barışa, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmaqda bir vasitə olacaqdır.

ISBN 978-605-4312-03-0


بسم الله الرحمن الرحيم
الله
رسول
محمد

# OXUCUYA

- Bu kitabda və digər çalışmalarımızda təkamül nəzəriyyəsinin özünü doğrultmamasına və puç olmasına aid fikirlərə geniş yer ayırmağımızın əsas səbəbi adıçəkilən nəzəriyyənin əslində din əleyhinə düşüncə və təlimlərdən ibarət olmasıdır. Yaradılışı və bilavasitə Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanların öz imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olur. Buna görə də bu nəzəriyyənin aldadıcı olduğunu sübuta yetirmək və diqqətə çatdırmaq çox mühüm imani vəzifədir. Bunu insanlara çatdırmaq isə daha vacibdir.
- Bəzi oxucularımızın bəlkə də təkcə bir kitabımızı oxumağa fürsəti olacaq. Buna görə də hər bir kitabımızda bu mövzuya qısa da olsa yer ayırmağı məqsədəuyğun bilirik.
- Nəzərə çatdırılması lazım olan digər bir məsələ də bu kitabların içindəkilərlə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri işığında izah olunur, insanlar Allahın ayələrini öyrənməyə və onlara uyğun yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə bağlı bütün məsələlər isə oxucunun şüurunda heç bir şübhə və ya sual yaratmayacaq şəkildə açıqlanır.
- Bu izahatda istifadə edilən səmimi, sadə və axıcı üslub kitabların 7 yaşdan 70 yaşa qədər hər kəs tərəfindən rahat başa düşülməsini təmin edir. Belə təsirli və dəlil-sübutlu izahat sayəsində kitablar birnəfəsə oxunur. Hətta dini rədd etmək fikrində qəti olanlar da bu kitablarda göstərilən həqiqətlərdən təsirlənir və deyilənlərin doğruluğunu inkar edə bilmir. Bu kitabı və müəllifin digər əsərlərini həm təklikdə, həm də qarşılıqlı söhbət, polemika şəraitində rahat oxumaq mümkündür. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun onları birlikdə oxuması mövzu ilə bağlı fikir və təcrübəsini də bir-biri ilə bölüşməsi səbəbindən yararlı olacaq.
- Bununla belə sadəcə olaraq Allah rizası üçün yazılan bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmətdir. Çünki müəllifin bütün kitablarında oxucuya müsbət təsir bağışlayan məsələləri sübut etmək üsulu çox güclüdür. Həmçinin dini izah etmək istəyənlərin əlindəki ən təsirli üsullardan biri də bu kitabları hamının oxumasını təşviq etmək, buna çalışmaqdır.
- Müəllifin digər əsərlərinin üz qabığının şəkillərinin kitabların son hissəsinə əlavə edilməsinin də mühüm səbəbləri var. Kitabı əlinə alan hər bir adam yuxarıda qeyd etdiyimiz xüsusiyyətləri özündə toplayan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə malik olan çoxlu əsərlərin olduğunu görəcək. Eyni zamanda həm dini, həm də siyasi mövzularda istifadə edəcəyi mənbələrin mövcudluğuna şahid olacaq.
- Başqa kitablarda rast gəldiyimiz şəxsi fikirlərə, müəllif qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəslərə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirməyən üslublara, ümidsizliyə aparan şübhəli yazılara və digər çatışmazlıqlara bu əsərlərdə rast gələ bilməzsiniz.



# Həzrəti Muhəmməd (s) Peyğəmbər

Harun Yəhya - Adnan Oktar



# MÜƏLLİF VƏ ONUN ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya imzasından istifadə edən müəllif Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. Orta məktəbi Ankarada oxuyub. Sonra İstanbulda Memar Sinan Universitetinin gözəl sənətlər fakültəsində və İstanbul Universitetinin fəlsəfə bölümündə təhsil alıb. 1980-ci illərdən bu günə qədər dini (imani), elmi və siyasi mövzularda xeyli əsər hazırlayıb. Bununla yanaşı, müəllifin təkamülçülərin (darvinistlərin) saxtakarlığını, onların iddialarının heç bir elmi həqiqətə əsaslanmadığını göstərən, habelə darvinizmin qanlı ideologiyalarla şübhəli əlaqələrini üzə çıxaran bir çox mühüm əsərləri var.

Harun Yəhyanın əsərləri təxminən 30000 şəkildən ibarət olan cəmi 45000 səhifəlik külliyyatdır və bu külliyat 60 müxtəlif dilə tərcümə edilmişdir.

Müəllifin bu imzası inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət əlaməti olaraq seçilib: onları yad etmək məqsədilə Harun və Yəhya adlarından istifadə edilib. Rəsulullahın möhürünün müəllif tərəfindən kitabların üz qabığına vurulmasının simvolik mənası isə onların içindəkilərlə bağlıdır. Bu möhür Qurani-Kərimin Allahın sonuncu Kitabı və sonuncu sözü, Peyğəmbərimizin (s) isə peyğəmbərlərin sonuncusu olmasının rəmzidir. Müəllif nəşr etdirdiyi bütün yazılarında Quranı və Rəsulullahın yolunu rəhbər tutur. Bununla da inkarçı düşüncə sistemlərinin bütün əsas iddialarını bir-bir puça çıxarmağı və dinə qarşı yönələn etirazları tamamilə susduracaq sonuncu sözü söyləməyi hədəf seçir. Çox böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhürü bu sonuncu sözü söyləmək niyyətinə bir dua kimi istifadə edilib.

Müəllifin əsərlərindəki əsas məqsəd Quranı bütün dünyada təbliğ etmək, bununla insanları Allahın mövcudluğu, təkliyi və axirət kimi əsas iman məsələləri barədə dərindən düşünməyə sövq etmək, inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqatlarını hər kəsə göstərməkdir.

Harun Yəhyanın əsərləri Hindistandan ABŞ-a, Böyük Britaniyadan İndoneziyaya, Polşadan Bosniya-Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və MDB ölkələrinə



qədər dünyanın əksər ölkələrində maraqla qarşılanır və oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnak, uyğur, İndoneziya, malay, benqal, sırp, bolqar, Çin, Azərbaycan, Kişvahili (Tanzaniyada istifadə edilir), Hausa (Afrikada danışılır), Dhivelhi (Mavritaniyada danışılır), Danimarka, İsveç kimi dillərə tərcümə edilən bu əsərlər hər yerdə geniş oxucu kütləsi tərəfindən maraqla izlənir.

Dünyanın dörd bir tərəfində böyük rezonans doğuran bu diqqətəlayiq əsərlər insanların çoxunun iman gətirməsinə, əksər adamların da öz imanını gücləndirməsinə səbəb olur. Bu kitabları oxuyan və incələyən hər kəs onlardakı hikməti, habelə yığcam, dolğun, asan başa düşülən səmimi üslubu, həyati həqiqətlərin elmi-məntiqi izahını dərhal görür. Bu əsərlər hər bir kəsə tez bir zamanda təsir etmək, tam nəticə vermək, etirazlara yer qoymamaq kimi xüsusiyyətlərə malikdir. Bu əsərləri oxuyan və onların üzərində ciddi düşünən adamların materialist fəlsəfəni, ateizmi, başqa batil fikir və fəlsəfələri səmimi olaraq müdafiə etməsi mümkün deyil. Bəziləri müdafiə etsələr belə, bunu yalnız inadkarlıq üzündən edəcəklər, çünki onların fikirlərinin əsasları çürüdülmüşdür.

Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhyanın külliyyatı qarşısında fikir arenasında məğlub ediliblər. Şübhə yoxdur ki, bu xüsusiyyətlər Quranın hikmətindən və onun ifadə etdiyi fikirlərin gözəlliklərindən qaynaqlanır.

Müəllifin özü isə bu əsərlərinə görə lovğalanmır, əksinə, Allahın hidayətinə vasitəçi olmağı qarşısına məqsəd qoymuşdur. Bundan başqa, bu əsərlər nəşr edilərkən heç bir maddi qazanc güdülmür.

Bu həqiqətlər nəzərə alınanda aydın olur ki, insanları onlara görmədiklərini görməyə kömək edən, onların hidayətə gəlməsinə səbəb olan belə əsərlərin oxunmasına həvəsləndirməyin özü də çox mühüm xidmətdir. Bu dəyərli əsərləri tanıtmağın əvəzinə insanların zehnini qarışdıran, fikirlərinin qarışmasına səbəb olan, şübhə və tərəddüdləri aradan qaldırmağa, imanı xilas etməyə bir təsiri olmadığı təcrübədən keçirilən kitabları yaymaq yalnız və yalnız əmək və vaxt itkisi demək olacaq. İmanı xilas etməkdən daha çox müəllifin ədəbi gücünü göstərməyə yönəlmiş kitablarda bu təsirin olmayacağı məlumdur. Bu mövzu ilə bağlı şübhəsi olanlar varsa, onlar Harun Yəhyanın əsərlərinin yeganə məqsədinin dinsizliyi aradan qaldırmaqdan və Quran əxlaqını yaymaqdan ibarət olduğunu, bu xidmətdəki təsir gücünün, müvəffəqiyyət və səmimiyyətin aydın göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilər. Bunu qəti şəkildə yəqinləşdirmək və anlamaq lazımdır ki, dünyadakı zülm və iğtişaşların, müsəlmanların çəkdiyi əziyyətlərin əsas səbəbi dinsizliyin ideya hakimiyyətidir.

Bunlardan qurtulmağın yolu isə dinsizliyin ideya cəhətdən məğlub edilməsi, iman həqiqətlərinin ortaya çıxarılması və Quran əxlaqının insanların dərk edib mənimsəyə biləcəyi şəkildə çatdırılmasıdır. Dünyanı hər gün daha çox zülmə, iğtişaş və fəsadlara məruz qoymaq istəyənlərin məqsədini nəzərə alsaq bəlli olar ki, bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə yerinə yetirilməsi çox vacibdir. Əks təqdirdə çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə çox böyük bir vəzifəni öz üzərinə götürmüş Harun Yəhyanın külliyyatı Allahın icazəsi ilə XXI əsrdə insanları Quranda bildirilən əmin-amanlığa və sülhə, doğruluğa və ədalətə, gözəlliyə və xoşbəxtliyə aparmaq üçün bir vasitə olacaqdır.

Bu tərcüməmizdə istifadə edilən ayələr əsasən Ziya Bünyadovun və Vasim Məmmədəliyevin birlikdə hazırladığı Quranın Azərbaycan dilindəki tərcüməsindən götürülmüşdür.

Harun Yəhya, tərcümə: Elşad Miri, «Həzrəti Muhəmməd (s) peyğəmbər», Türkiyə, İstanbul, oktyabr 2009, 292 səhifə...

Kitabla bağlı arzu və təkliflərinizi **www.islam.com.az** saytının aşağısında göstərilən elektron ünvana **(elshad@islam.com.az)** təqdim etməyinizi xahiş edirik. Təklifləriniz inşaAllah sonrakı nəşrlərdə nəzərə alınacaqdır.

Tərcümə: Elşad Miri < Redaktor: Məhəbbət Seyidova < Korrektor: Şəlalə Arifqızı
© Elshad Miri

**GLOBAL PUBLISHING**
Talatpasa Mah. Emirgazi Caddesi Ibrahim Elmas Ismerkezi
A Blok Kat 4 Okmeydani - Istanbul Tel: (+90 212) 222 00 88

Sifariş və əlaqə üçün zəng edin:
(055) 211-50-11, (070) 750-00-50, (050) 612-70-10, (012) 418-32-62

İnternet vasitəsi ilə kitablarımızı əldə etmək üçün saytımız ixtiyarınızdadır:
www.kitabevi.az

**Secil Ofset** / 100. Yil Mah. MASSIT Matbaacilar Sitesi, 4. cad. No: 77
Bagcilar - Istanbul Tel: (+90 212) 629 06 15

**www.harunyahya.az / www.islam.com.az**

# İÇİNDƏKİLƏR

Giriş ............................................................9

Quranda Peyğəmbərimizin
gözəl əxlaqı ...................................................13

Peyğəmbərimizin təbliği ..................................93

Peyğəmbərimizin görünüşü.............................139

Peyğəmbərimizin (s) gözəl həyatı..................179

Peyğəmbərimizin gələcəyə
dair verdiyi xəbərlər .......................................201

Nəticə: Peyğəmbərimizə tabe olanlar
qurtulanlardır ................................................254

Təkamül yalanı ..............................................257



**(Bu elçi) çox qüvvətlidir, ərşin sahibi yanında çox hörmətlidir. Ona itaət ediləndir, həm də etibarlı müvəkkildir.**

**«Təkvir» surəsi, 20-21**

# GİRİŞ

Peyğəmbərimiz Uca Allahın **«...O, Allahın Rəsulu və peyğəmbərlərin sonuncusudur»** («Əhzab» surəsi, 40) ayəsində bildirildiyi kimi, insanlar üçün sonuncu peyğəmbər olaraq göndərdiyi, ən axırıncı kitabını vəhy etdiyi, gözəl əxlaqı, təqvası, Allaha olan yaxınlığı ilə insanlara nümunə etdiyi, Rəbbimizin dərgahında üstünlüyü olan, Allahın və möminlərin dostu, ən yaxını və vəlisidir.

Allah «**Həqiqətən, Biz sənə ağır bir kəlam vəhy edəcəyik**» («Muzəmmil» surəsi, 5) ayəsi ilə bildirdiyi kimi, sonuncu peyğəmbər olan Hz.Muhəmmədə (s) mühüm bir məsuliyyət vermişdir. Peyğəmbərimiz (s) isə Allaha olan güclü imanı ilə Allahın ona verdiyi məsuliyyəti ən gözəl tərzdə yerinə yetirmiş, insanları Allahın yoluna, hidayətə dəvət etmiş və bütün inananların rəhbəri və aydınladanı olmuşdur.

Peyğəmbərimizi (s) görməsək də, Quran ayələrindən və hədislərdən onun gözəl davranışlarını, danışıqlarını, göstərdiyi gözəl əxlaqı tanıya bilər, ona oxşamaq, axirətdə onunla yaxın bir dost ola bilmək üçün əlimizdən gələn səyi artıqlaması ilə göstərə bilərik.

Hazırda insanlar, xüsusilə də gənclər müxtəlif adamları özlərinə nümunə götürür, onların davranışlarına və danışıqlarına, tərzlərinə həvəslənir, onlar kimi olmağa çalışırlar. Ancaq bu insanların əksəriyyəti doğru yolda olmadığı kimi, davranış və əxlaq gözəlliyinə də malik deyillər. Buna görə insanları doğru olana, ən gözəl əxlaqa və davranışa həvəsləndirmək mühüm bir məsuliyyətdir. Bir müsəlmanın davranışına və əxlaqına həvəs göstərməsi, oxşaması üçün səy göstərməli olduğu şəxs

Hz.Muhəmməddir (s). Allah bu həqiqəti bir ayədə belə bildirir:

**«Həqiqətən, Allahın rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl nümunədir!» («Əhzab» surəsi, 21)**

Peyğəmbərimiz Hz.Muhəmməd (s) kimi başqa peyğəmbərlər də möminlər üçün nümunə olan, Allahın razı olduğu şəxslərdir. Allah «Yusuf» surəsində belə bildirir:

**«Onların hekayətlərində ağıl sahibləri üçün, sözsüz ki, ibrətlər vardır. Bu Quran uydurma bir söz deyildir. Ancaq özündən əvvəlkilərin təsdiqi, hər bir şeyin müfəssəl izahıdır. O, iman gətirən bir tayfa üçün hidayət və mərhəmətdir!» («Yusuf» surəsi, 111)**



Bu kitabın hazırlanmasının məqsədi də Peyğəmbərimizi (s) müxtəlif cəhətləri ilə tanıtmaq, onun əxlaqını nümunə götürən insanlardan meydana gələn bir cəmiyyətin nə qədər üstün xüsusiyyətlərə və gözəlliklərə malik olacağını göstərərək, insanları Peyğəmbərimizin (s) əxlaqına həvəsləndirməkdir. Peyğəmbərimiz (s) həm gözəl əxlaqı ilə insanlara nümunə olmuş, həm də insanları gözəl əxlaqlı olmağa səsləmişdir. *«Möminin haqq-hesabında ən vacib şey gözəl əxlaqdır. Əlbəttə, Uca Allah işi və sözü çirkin olan, həyasızcasına danışan adama nifrət edər»*[1] buyuran Peyğəmbərimiz başqa bir sözündə də *«Allaha and olsun ki, cənnətə ancaq gözəl əxlaq sahibləri daxil olar»*[2] demişdir.

Peyğəmbərimizin (s) ardınca gedən müsəlmanlar bəşərə gözəl əxlaqları və xasiyyətləri ilə nümunə olmalı, həmçinin şifahi və yazılı olaraq onları gözəl əxlaqa dəvət etməlidirlər.



Biz peyğəmbərləri yalnız müjdə verənlər və qorxudanlar sifətilə göndərdik. İnkar edənlər isə batil ilə haqqı yalana çıxartmaq məqsədilə mübahisə aparırlar. Onlar Mənim ayələrimi və qorxudulduqları əzabı məsxərəyə qoyurlar.

«Kəhf» surəsi, 56

**Rəbbinin ayələri özünə xatırlandırılarkən onlardan üz döndərən, əvvəlcə etdiyi günahları unudan adamdan daha zalım kim ola bilər?! Biz onların qəlblərinə onu anlamamaları üçün, pərdə çəkib, qulaqlarına ağırlıq verdik. Sən onları doğru yola dəvət etsən belə, onlar əsla haqq yola gəlməzlər.**

**«Kəhf» surəsi, 57**

# Quranda Peyğəmbərimizin gözəl əxlaqı

Peyğəmbərimizin (s) çox gözəl əxlaqa malik olduğunu Allah Quranda bildirmiş və belə buyurmuşdur:

> **«Nun! And olsun qələmə və yazdıqlarına ki, sən Rəbbinin neməti sayəsində divanə deyilsən! Və, həqiqətən, səni tükənmək bilməyən mükafat gözləyir! Doğrudan da, sən böyük bir əxlaq sahibisən! Hansınızın divanə olduğunu tezliklə sən də görəcəksən, onlar da görəcəklər! Həqiqətən, sənin Rəbbin öz yolundan çıxanları da, doğru yolda olanları da ən gözəl tanıyandır!» («Qələm» surəsi, 1-7)**

Allah bu ayədə Peyğəmbərimiz (s) üçün tükənməyəcək mukafat olduğunu bildirmişdir. Bu, Hz.Muhəmmədin (s) həmişə gözəl əxlaqlı olduğunu, heç vaxt təqvadan ayrılmadığını göstərən məlumatdır.

Peyğəmbərimizin (s) də *«İmanın kamilliyi gözəl əxlaqla olanıdır»*[4] sözlərində ifadə etdiyi kimi, imanın ən vacib əlamətlərindən biri gözəl əxlaqdır. Buna görə də gözəl əxlaqın ən gözəl nümunələrini öyrənmək və yerinə yetirmək vacib ibadətdir.

Bu fəsildə Peyğəmbərimizin Quranda bəhs edilən gözəl əxlaq xüsusiyyətlərindən bəzilərinə yer ayıracağıq.

## Peyğəmbərimiz (s) ancaq ona vəhy olunana tabe olmuşdu

Peyğəmbərimizin (s) Quranda dəfələrlə qeyd edilən ən mühüm xüsusiyyətlərindən biri ancaq Allahın göndərdiyinə tabe olması, insanların qınağından çəkinmədən sadəcə Allahın bildirdiklərini etməsidir. Hətta eyni dövrdə yaşayan müşriklər və başqa dinlərin mənsubları Peyğəmbərimizdən (s) öz mənfəətlərinə uyğun hökmlər gətirməsini istəmişdilər. Bu adamlar həm say, həm də güc baxımından üstün vəziyyətdə olmalarına baxmayaraq, Peyğəmbərimiz (s) Quranı və Allahın hökmlərini həmişə həssaslıq və qətiyyətlə qorumuşdur. Bir ayədə Allah Peyğəmbərimizin (s) bu adamların təkidlərinə necə cavab verdiyini bizə belə xəbər verir:

> **«Onlara ayələrimiz açıq-aydın oxunduğu zaman Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər: "Bundan ayrı bir Quran gətir və ya onu dəyişdir!" - deyərlər. Onlara de: "Mən onu özbaşına dəyişmərəm. Mən ancaq mənə gələn vəhyə tabe oluram. Əgər Rəbbimə asi olsam, böyük günün əzabından qorxuram". De: "Əgər Allah istəsəydi, mən onu sizə oxumazdım və Allah da onu sizə bildirməzdi. Mən ondan qabaq sizin aranızda ömür sürmüşəm. Məgər dərk etmirsinizmi?"» («Yunus» surəsi, 15-16)**



Allah Peyğəmbərimizi (s) tayfasının bu hərəkətlərinə görə bir çox ayəsi ilə xəbərdar etmişdir. Məsələn, «Maidə» surəsində belə buyurulur:

> **«(Ya Muhəmməd!) Biz sənə haqq olaraq, özündən əvvəlki kitabı təsdiq edən və onu qoruyan olaraq endirdik. Sən onların arasında Allahın nazil etdiyi ilə hökm et. Sənə gələn haqdan ayrılıb onların nəfslərinin istədiyinə uyma. Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi vahid bir ümmət edərdi. Lakin bu, Allahın verdikləri ilə sizi imtahan etməsi üçündür. Elə isə yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın. Hamınızın axır dönüşü Allahadır. Aranızda ixtilaf doğuran məsələlər barəsində sizə xəbər verəcəkdir! O halda onların arasında Allahın nazil etdiyi kitabla hökm et. Onların nəfslərinin istədiyinə uyma. Allahın sənə nazil etdiyinin bir qismindən səni tovlayıb yayındıra biləcəklərindən ehtiyat edib özünü onlardan gözlə. Əgər onlar (bu hökmlərdən) üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Doğrudan da, insanların çoxu fasiqlərdir!» («Maidə» surəsi, 48-49)**

Peyğəmbərimiz (s) də Allahın ona göndərdiyindən başqasına tabe olmayacağını böyük qətiyyətlə qövmünə bildirmişdir. Peyğəmbərimizin (s) bu üstün əxlaqını xəbər verən bir ayə belədir:



**Həmid Aytaç. Cəli sülüs lövhə. Hədisdə Hz.Peyğəmbər: *«İnsanların ən xeyirlisi insanların faydalı olanıdır»,* - buyurmuşdur.**

**«De: "Mən sizə demirəm ki, mənim yanımda Allahın xəzinələri vardır. Mən qeybi bilmirəm və sizə də demirəm ki, mən mələyəm. Mən yalnız özümə gələn vəhyə tabe oluram". De: "Kor görənlə bir olarmı? Məgər düşünmürsünüz?"» («Ənam» surəsi, 50)**

Peyğəmbərimiz (s) Allahın yolunda nümayiş etdirdiyi qətiyyəti və iradəsi ilə haqq dini ən gözəl və ən düzgün tərzdə insanlara çatdırmışdır. İnsanların əksəriyyəti ilə müqayisə etdikdə Peyğəmbərimizin (s) bu üstünlüyü daha yaxşı başa düşülə bilər. Əksər adamlar keçmişdə olduğu kimi, dövrümüzdə də ehtiraslara, zəifliklərə, mənfi həvəslərə malikdirlər. Bəziləri də dini qəbul etmələrinə baxmayaraq bu zəifliklərinə məğlub olurlar. Acizliklərindən və ehtiraslarından uzaqlaşmağın əvəzinə dinin hökmlərindən güzəştə gedirlər. Məsələn, dostlarının, yoldaşlarının, qohum-əqrəbalarının «nə deycəklərindən» çəkinərək dinin bəzi hökmlərini yerinə yetirməzlər, yaxud dinə uyğun olmayan bəzi vərdişlərini buraxmazlar. Buna görə də dini öz mənfəətlərinə görə izah edər, onlara uyğun gələn hökmlərini qəbul edər, digərlərini görməkdən yayınırlar.

Peyğəmbərimiz (s) isə bu cür adamların istəklərinə görə heç vaxt güzəştə getməmiş, Allahın göndərdiyində heç bir dəyişiklik etməyərək, heç kimin mənfəətini nəzərə almayaraq, ancaq Allahdan qorxub çəkinərək Quranı insanlara çatdırmışdır. Allah Peyğəmbərimizin (s) bu təqva xüsusiyyətini Quranda belə bildirir:

**«Batmaqda olan ulduza and olsun ki, Sizin yoldaşınız (peyğəmbər) nə haqq yoldan sapmış, nə də azmışdır! O, kefi istəyəni (havadan) danışmır. Bu, ancaq nazil olan bir vəhydir. Onu (Quranı) çox qüvvətli olan (Cəbrail) öyrətdi» («Nəcm» surəsi, 1-5).**

**«Bilin ki, aranızda Allahın Peyğəmbəri vardır. Əgər o, bir çox işlərdə sizə uysaydı, siz əziyyət çəkərdiniz. Lakin Allah sizə imanı sevdirmiş, onu ürəklərinizdə süsləmiş, küfrə, itaətdən çıxmağa və asi olmağa qarşı sizdə nifrət oyatmışdır. Məhz beləlləri doğru yolda olanlardır!» («Hucurat» surəsi, 1-5)**



«Allaha iftira yaxandan daha zalım kim ola bilər? Onlar Allahın hüzuruna gətirilər, şahidlər belə deyərlər: “Bunlar Rəbbi barəsində yalan söyləyənlərdir!” Bilin ki, zalımlar Allahın lənətinə gələcəklər!»

“Hud” surəsi, 18

## Peyğəmbərimizin (s) bütün aləmlərə nümunə olan təvəkkülü

Quranda Peyğəmbərimiz (s) haqqında bəhs edilən hadisələrdə onun təvəkkülü və Allaha necə təslim olduğu çox aydın tərzdə görünür. Məsələn, Peyğəmbərimizin (s) Məkkədən çıxandan sonra yoldaşı ilə birlikdə gizləndiyi bir mağaradakı sözləri təvəkkülünün ən gözəl nümunələrindən biridir. Ayədə belə bildirilir:

**«Əgər siz ona kömək etməsəniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu (Məkkədən) iki nəfərdən biri olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna: "Qəm yemə, Allah bizimlədir!" - dediyi zaman göstərmişdi. O vaxt Allah ona bir arxayınlıq nazil etmiş, onu sizin görmədiyiniz əsgərlərlə müdafiə etmiş, inkar edənlərin sözünü alçaltmışdı. Yalnız Allahın sözü ucadır. Allah yenilməz qüvvət, hikmət sahibidir!» («Tövbə» surəsi, 40)**

Peyğəmbərimiz (s) hansı şəraitdə və vəziyyətdə olmasından asılı olmayaraq, həmişə Allaha təslim olmuş, Onun yaratdığı hər şeydə xeyir və gözəllik olduğunu bilmişdir. Quranda Peyğəmbərimizə (s) xalqına söyləməsi bildirilən bu sözlər də həmin təvəkkülün bir nümunəsidir:

**«Sənə bir yaxşılıq nəsib olsa, onların halı pis olar. Sənə bir müsibət üz versə: "Biz tədbirimizi qabaqcadan görmüşük!" - deyər və sevincək halda dönüb gedərlər. De: "Allahın bizim üçün yazdığından başqa bizə heç bir şey üz verməz. O bizim ixtiyar sahibimizdir. Buna görə də möminlər yalnız Allaha təvəkkül etsinlər!"» («Tövbə» surəsi, 50-51)**

Peyğəmbərimiz (s) təvəkkülü ilə bütün müsəlmanlara nümunə olmuş və

insanın Allahdan gələn hər hansı bir şeyi dəyişdirməyə gücünün çatmayacağını belə xatırlatmışdır:

> *«Bir nəfsə təqdir edilən şey mütləq olur».*[4]
>
> *«Bir şey istəyəndə Allahdan istə. Yardım tələb edəcəksənsə, Allahdan yardım gözlə. Çünki bəndələr Allahın yazmadığı bir məsələdə sənə xeyir vermək üçün bir yerə yığışsalar, bu xeyri əmələ gətirməyə gücləri çatmaz. Allahın yazmadığı bir zərəri sənə vermək üçün birlikdə iş görsələr, buna da müvəffəq ola bilməzlər».*[5]

Peyğəmbərimizin (s) sünnəsinə tabe olan möminlər də müsibət kimi görünən hadisələri onun kimi təvəkküllə qarşılamalı, hər şeydə xeyir və gözəllik olduğuna iman gətirməlidirlər. Bunu da yaddan çıxarmamaq lazımdır ki, Allahın ən təqvalı bəndələrindən biri olan Peyğəmbərimiz Hz.Muhəmməd (s) çox böyük çətinliklərlə və şiddətli hadisələrlə sınanmışdır.

Hər şeydən əvvəl təbliğat apardığı xalqın arasında ona hər cür çətinlik törətməyə hazır olan adamlar var idi: İkiüzlü davranaraq Peyğəmbərimizə (s) tələ qurmağa çalışanlar, dədə-babalarının dinini dəyişdirməyi qəbul etməyən müşriklər, peyğəmbərdən öz nəfslərinə uyğun ayə gətirmələrini istəyənlər, Peyğəmbərimizi (s) öldürmək, sürgün etmək və ya həbs etmək arzusunda olanlar və daha bir çoxları davamlı olaraq Peyğəmbərimizə (s) çətinlik törətməyə çalışmışdılar.

Peyğəmbərimiz (s) inkar edənlərin bu cür davranışlarına həmişə səbir etmiş, böyük qətiyyətlə Allahın dinini təbliğ etmiş və müsəlmanları təhlükələrdən qoruyaraq onları Quranla tərbiyələndirmişdir. Onun bu əzmkarlığının, nailiyyətinin və cəsarətinin əsasında Allaha olan güclü imanı, təvəkkülü və təslimiyyəti dayanır. Peyğəmbərimiz (s) mağarada olduğu kimi hər vəziyyətdə Allahın onunla birlikdə olduğunu bilmiş, hər hadisəni Allahın yaratdığına və Rəbbimizin hər şeyi ən gözəl və ən xeyirli tərzdə nə-

ticələndirəcəyinə iman gətirmişdir. Peyğəmbərimizin (s) bu hədisi onun hər şeydə xeyir görən təvəkkülünə misaldır:

*«İnanan insanın vəziyyəti nə dərəcə heyrətamizdir. Çünki hər işi onun üçün xeyirdir. Bu vəziyyət təkcə möminə məxsusdur, başqasına deyil. Ona razı qalacağı bir şey gəlsə, şükür edər. Bu xeyirdir. Bir ziyan gəlsə, səbir edər. Bu da xeyirdir».*[6]

Peyğəmbərimiz bu inamı ilə hadisələr qarşısında əlindən gələn bütün səyləri göstərmiş, ancaq nəticənin həmişə Allaha aid olduğunu bilərək Ona arxalanıb güvənmişdir. Allah peyğəmbərinin bu gözəl təvəkkülü qarşısında onu həmişə güclü və müvəffəq etmişdir.

Allah Peyğəmbərimizi (s) çətinlik törədənlərə qarşı təvəkkül etməsini bildirmişdir və Peyğəmbərimiz (s) də həyatı boyunca Rəbbimizin bu əmrinə uyğun olaraq davranmışdır. Ayədə belə buyurulur:

**«Onlar: "İtaət edirik!" - deyir, lakin sənin yanından çıxıb getdikləri zaman onların bir qismi dediyinin əksinə fikirləşir. Allah onların qaranlıqlarda qurduqlarını yazır. Sən onlardan üz çevir və Allaha təvəkkül et! Allahın vəkil olması kifayət edər!» («Nisə» surəsi, 81)**

Mövzu ilə bağlı başqa bir ayədə belə buyurulur:

**«Əgər onlar səninlə mübahisə edərlərsə, belə de: "Mən özümü ardımca gələnlərlə birlikdə Allaha təslim etmişəm". Kitab verilmiş şəxslərə və savadsızlara de: "Siz də təslim oldunuzmu?" Əgər təslim olarlarsa, doğru yola yönəlmiş olarlar, yox, əgər üz döndərərlərsə, sənin vəzifən ancaq (haqqı) tətbiq etməkdir. Allah, şübhəsiz ki, bəndələrini görəndir!» («Ali-İmran» surəsi, 20)**

Peyğəmbərimiz (s) isə təvəkkül edənlərin necə qarşılıq görəcəklərini belə bir misalla bildirmişdir:

*«Siz Allaha haqqı ilə təvəkkül etsəniz, quşlar kimi ruziləndirilərsiniz. Onlar ac gedər, tox qayıdarlar».*[7]

Möminlər üçün ən gözəl nümunə Peyğəmbərimizin (s) sözləri və davranışlarıdır. Buna görə də hər hansı bir çətinliklə, nəfsinin xoşlamadığı bir vəziyyətlə üzləşən hər mömin Quran ayələrini, hər şeyi yaradanın Allah olduğunu fikirləşərək Peyğəmbərimizin təvəkkülünü nümunə götürməli, hər hadisədə Allahın yaratdığı taleyə təslim olduğunu bildirməlidir.

## Peyğəmbərimiz (s) insanlardan heç bir mənfəət gözləməmiş, ancaq Allahın razılığını arzulamışdır

İslam dininin əsas xüsusiyyətlərindən biri insanın həyatını Allah qorxusu üzərində inşa etməsi və bütün ibadətlərini də ancaq Allahın razılığını, mərhəmətini və cənnətini qazanmaq üçün etməsidir. Allah bir ayədə




**Hacı Nazif Bəy. Qurandan bir ayə: «Allahı zalımların etdikləri əməllərdən əsla qafil sanma...» «İbrahim» surəsi, 42.**

möminlərə: **«De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!»** («Ənam» surəsi, 162) şəklində buyurur.

Quranda **«Tövbə edənlər, özlərini islah edib düzəldənlər, Allahdan möhkəm yapışanlar və Allah qarşısında dinini təmizləyənlər müstəsnadır. Çünki onlar möminlərlə bərabərdirlər. Möminlərə isə Allah böyük mükafat verəcəkdir!»** («Nisə» surəsi, 146) ayəsi ilə inananlara dini, ancaq Allah üçün, başqa heç bir məqsəd güdmədən yaşamaları əmr edilmişdir. Bir adamın Allaha möhkəm bağlanması, Allahdan başqa tanrı olmadığını bilərək həyatını ancaq Onu razı salmağa həsr etməsi və hər nə olursa-olsun, Allaha olan sədaqətindən əl çəkməməsi həmin adamın ixlaslı, səmimi olduğunu göstərir.

İxlaslı, səmimi bir mömin etdiyi xeyirxah işlərində və ya oruc tutmaq, gündəlik namazları qılmaq, zəkat vermək kimi fərz olan ibadətlərində Allahdan başqa heç kimin sevgisini, razılığını, tərifini, marağını və könlünü almağa çalışmaz. İxlaslı möminlərə ən gözəl nümunə Hz.Muhəmməd (s) və başqa peyğəmbərlərdir.

Peyğəmbərimiz (s) ancaq Allahın razılığını nəzərə almış, heç bir mənfəət və ya dünyəvi qazanc fikirləşmədən, həyatı boyunca Allahın razılığını, mərhəmətini və cənnətini qazanmaq üçün səy göstərmişdir.

> **«De: "Mən buna görə sizdən heç bir əcr (mükafat) istəmirəm. Və mən özümdən bir şey uydurub deyənlərdən də deyiləm!» («Sad» surəsi, 86)**
>
> **«De: "Mən sizdən heç bir muzd (mükafat) istəmirəm, o sizin olsun. Mənim mükafatım ancaq Allaha aiddir. O, hər şeyə şahiddir!"» («Səba» surəsi, 47)**

## Peyğəmbərimizin (s) çətinliklər qarşısında gözəl səbri

Hz.Muhəmməd (s) peyğəmbərliyi boyunca əvvəl də bildirildiyi kimi, müxtəlif çətinliklərlə üzləşmişdir. Haqq dini təbliğ etdiyi xalqının arasından çıxan inkarçılar və müşriklər ona qarşı çox nalayiq sözlər söyləmişlər, hətta sehrbaz və dəli adlandırmışlar, bəziləri isə hətta Peyğəmbərimizi (s) öldürmək belə istəmiş və bunun üçün planlar qurmuşdular.

«Sonra bir-birinin ardınca peyğəmbərlər göndərdik. Hər ümmətə öz peyğəmbəri gəldikcə onu yalançı saydılar. Biz də onları bir-birinin ardınca məhv edib əfsanələrə döndərdik. İman gətirməyən tayfa məhv olsun!»

«Muminun» surəsi, 44

Buna baxmayaraq, Peyğəmbərimiz (s) hər mədəniyyətdən və xarakterdən olan insanları tərbiyələndirməyə, onlara Quranı, dolayısı ilə gözəl əxlaqı, gözəl davranışı öyrətməyə çalışmışdır.

Quran ayələrində bildirildiyi kimi, bəzi adamlar əsas nəzakət qaydalarından da xəbərləri olmadığı üçün Peyğəmbərimiz (s) kimi incə dərrakəli, çox tərbiyəli bir insana əziyyət verə biləcəklərini fikirləşməmişdilər. Peyğəmbərimiz (s) isə bütün bunlara qarşı böyük səbir göstərmiş, hər vəziyyətdə Allaha üz tutaraq Allahın köməyini istəmiş və möminlərə də səbri və təvəkkülü tövsiyə etmişdir.

Allah Quranın müxtəlif ayələrində Peyğəmbərimizə (s) inkar edənlərin sözlərinə qarşı səbirli olmasını belə tövsiyə edir:

> **«Artıq onların dediklərinə səbir et. Gün doğmamışdan əvvəl, batmamışdan əvvəl Rəbbini təqdis edib şəninə təriflər de!» («Qaf» surəsi, 39)**
>
> **«Onların sözləri səni kədərləndirməsin. Yenilməz izzət (qüvvət) bütövlükdə yalnız Allaha məxsusdur. O, eşidəndir, biləndir!» («Yunus» surəsi, 65)**
>
> **«Doğrusu, Biz onların sözlərindən sənin ürəyinin qısıldığını bilirik!» («Hicr» surəsi, 97)**
>
> **«Onların: "Heç olmasa, ona bir xəzinə endiriləydi və ya onunla**



**birlikdə bir mələk gələydi!” - demələrindən dolayı, ürəyin qısılıb sənə gələn vəhyin bir hissəsini tərk edəcəksən? Sən ancaq xəbərdar edən bir peyğəmbərsən. Allah isə hər şeyə vəkildir!» («Hud» surəsi, 12)**

Peyğəmbərimizin (s) nələrə səbir göstərərək üstün əxlaq nümayiş etdirdiyini fikirləşən möminlər üzləşdikləri hər bir hadisədə onu özlərinə nümunə götürməlidirlər. İstəklərinə əks olan ən xırda bir hadisədə ümidsizliyə qapılanlar, sadə bir etiraza dözümsüzlük nümayiş etdirənlər, Allahın dinini təbliğ etməkdən əl çəkənlər, ya da ticarətdə işləri istədikləri kimi getməyəndə narahat olanlar bu davranışlarının Allahın Kitabına və Peyğəmbərimizin (s) sünnəsinə uyğun olmadığını bilməlidirlər. İman gətirənlər hər hadisədə səbirli davranaraq, Allahı vəkil tutub Ona şükür edərək, Peyğəmbərimiz (s) kimi gözəl əxlaqa uyğun hərəkət etməli və Rəbbimizin razılığına, mərhəmətinə və cənnətinə ümid etməlidir.

## Peyğəmbərimiz (s) yanındakılarla həmişə xoşrəftar olmuşdur

Əvvəl də bildirildiyi kimi, Peyğəmbərimizin (s) yanında hər cür xasiyyətli, müxtəlif fikirli insanlar var idi. Ancaq Peyğəmbərimiz (s) həyatı boyunca hamısı ilə bir-bir maraqlanmış, hər birinin qüsurlarını və xətalarını düzəltmək üçün onları xəbərdar etmiş, təmizliklərindən imanlarına kimi





**Çarles Robertson, Mathaf qaleriyası, London**



«İnsanlara doğru yol göstərən bir rəhbər gəldiyi zaman ona iman gətirməyə və Rəbbindən bağışlanmalarını diləməyə mane olan şey yalnız əvvəlkilərin başına gələnlərin onların da başına gəlməsini, yaxud da gözləri baxa-baxa əzabın gəlib onlara yetişməsini gözləmələridir».

«Kəhf» surəsi, 55

onları hər məsələdə maariflәndirməyə və tərbiyələndirməyə çalışmışdır. Onun bu mərhəmətli, dözümlü, anlayışlı və səbirli davranışı əksər insanların ürəklərinin dinə isinməsinə və Peyğəmbərimizə (s) böyük səmimiyyətlə və sevgi ilə bağlanmalarına səbəb olmuşdur. Allah Peyğəmbərimizin (s) ətrafındakılara göstərdiyi bu gözəl davranışını Quranda belə bildirir:

> **«Allahın mərhəməti səbəbinə sən onlarla yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün bağışlanmaq dilə...» («Ali-İmran» surəsi, 159)**

Allah başqa bir ayədə isə Peyğəmbərimizə (s) ətrafındakılarla necə davranmalı olduğunu belə buyurmuşdur:

> **«Biz onların nə dediklərini çox gözəl bilirik. Sən onlara zor edən (onları zorla imana gətirən) deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver!» («Qaf» surəsi, 45)**

Peyğəmbərimiz (s) ətrafındakılara dini zorla, məcbur edərək, yaxud şərt qoşaraq qəbul etdirməyə çalışmamış, hər cür şəraitdə gözəlliklə çatdırmışdır.

Peyğəmbərimiz (s) güclü vicdanı ilə ümmətinə hər cəhəti ilə sahib çıxmış, hər məsələdə onların xilaskarı olmuşdur. Bu xüsusiyyətlərinə görə Peyğəmbərimiz (s) Quranın müxtəlif ayələrində «sahibiniz» (dostunuz, yoldaşınız) olaraq qeyd edilir.[8]

Peyğəmbərimizin (s) bu vicdanlı davranışını təqdir edib başa düşən möminlər də onu özlərinə hamıdan daha çox yaxın görmüşlər və onu öz nəfslərindən daha çox üstün tutmuşlar. Bir ayədə Allah bunu belə bildirir:

> **«Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Onun övrətləri onların analarıdır...» («Əhzab» surəsi, 6)**

Böyük müsəlman alimlərindən biri hədis alimlərinin bir yerə yığdığı məlumatlarla Peyğəmbərimizin ətrafındakılara qarşı davranışını belə xülasə etmişdir:

> *«...Yanında oturanların hamısına gözəl sifətindən nəsibini verir, iltifat edərdi. Buna görə də hüzurundakıların hər biri Peyğəmbərin (s) yanında özündən daha dəyərlisinin olmadığı fikrinə qapılırdı. Bəli, onun oturuşu, qulaq asması, sözləri, gözəl lətifələri və təvəccühü həmişə ətrafındakılar üçün idi. Bununla yanaşı, onun məclisi*




**G. Mesara kolleksiyası, Xət, Əsmai Nəbi, Qurandan bir ayə: "Səni aləmlərə ancaq bir rəhmət olaraq göndərdik". «Ənbiya» surəsi, 107**

*həya, ədəb, təvazökarlıq və əmin-amanlıq məclisi idi.*

*...Onlara ikram və ürəklərini xoş etmək üçün səhabələrini ləqəbləri ilə çağırır, ləqəbi olmayanlara ləqəb taparaq onunla səslənərdi. Əsəbiləşməkdən çox uzaq və bir şeyə dərhal razılıq verən idi. İnsanlara qarşı onların ən mərhəmətlisi idi. Çünki insanların ən xeyirlisi insanlara xeyri dəyən, insanların ən faydalısı da onlara faydalı olandır».*[9]

Peyğəmbərimizin (s) ətrafındakıları dinə bağlayan və ürəklərini imana isindirən insan sevgisi, incə düşüncəsi və şəfqəti bütün müsəlmanların önəmlə üzərində durmalı olduqları əxlaq üstünlüyüdür.

## Peyğəmbərimizin (s) bəşərə nümunə olan ədaləti

Allah Quranda möminlərə **«Ədalətdən möhkəm yapışan Allah şahidi olun! İstər dövlətli, istər kasıb olsun, hər halda Allah onların hər ikisinə daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin!»** («Nisə» surəsi, 135) tərzində buyurur. Peyğəmbərimiz Hz. Muhəmməd (s) həm müsəlmanların arasında verdiyi hökmlər, həm də başqa din, dil, irq və xalqlardan olan insanlara qarşı ədalətli və xoş rəftar davranışı, həm də Allahın ayəsində bildirdiyi imkanlı, imkansız fərqi qoymadan hamıya bərabər davranması ilə bütün insanlar üçün çox böyük nümunədir.





«Əgər onlar üz döndərsələr, de: “Mənə təkcə Allah yetər. Ondan başqa heç bir tanrı yoxdur. Mən Ona təvəkkül etdim. O, böyük ərşin sahibidir!»

“Tövbə” surəsi, 129

Allah bir ayəsində Elçisinə belə buyurur:

> **«Onlar yalana qulaq asanlar və haram yeyənlərdir. Əgər yanına gəlsələr, aralarında hökm et və ya onlardan üz çevir. Əgər onlardan üz döndərsən, sənə heç bir zərər verə bilməzlər. Əgər aralarında hökm etsən, ədalətlə hökm et. Allah ədalət sahiblərini sevər!» («Maidə» surəsi, 42)**

Peyğəmbərimiz (s) çox çətin bir tayfanın arasında da Allahın əmrinə tabe olmuş və heç vaxt ədalətdən güzəştə getməmişdir. Həmişə **«Rəbbim ədaləti əmr etdi...»** («Əraf» surəsi, 29), - deyərək hər dövrdə bütün insanlara nümunə olmuşdur.

Hz.Muhəmmədin (s) peyğəmbərliyi dövründə adil davranışının şahidi olduğumuz çoxlu sayda hadisələr baş vermişdir. Peyğəmbərimizin (s) yaşadığı ərazidə müxtəlif din, dil, irq və qəbiləyə mənsub insanlar birlikdə yaşayırdılar. Bu tayfaların, xalqların birlikdə firavan və əmin-amanlıqda yaşamaları, aralarına fitnə salmağa çalışanların təsirsiz hala salınmaları çox çətin idi. Ən sadə bir sözdən və ya hərəkətdən dərhal sonra bir qrup digərinə qarşı əsəbiləşib hücum edə bilirdi. Ancaq Peyğəmbərimizin (s) ədaləti müsəlmanlara olduğu qədər bu cəmiyyətlər üçün də firavanlıq və əmin-amanlıq mənbəyi olmuşdur. «Səadət əsri» dövründə Ərəbistan yarımadasında xristian, yəhudi, bütpərəst fərqi qoymadan hamıya adil davranılmışdır. Peyğəmbərimiz (s) Allahın **«Dində məcburiyyət yoxdur...»** («Bəqərə» surəsi, 256) ayəsinə tabe olaraq hamıya haqq dini çatdırmış, lakin seçim etmək mövzusunda sərbəst buraxmışdır.

Allah Peyğəmbərimizə (s) başqa bir ayəsində də müxtəlif dinlərə mənsub olan insanlara qarşı necə ədalət və tolerant olması lazım olduğunu belə bildirmişdir:

> **«Buna görə də sən dəvət et və sənə əmr edildiyi kimi sə-**

**batlı ol. Onların nəfslərindən gələn istəklərə uyma və de: "Mən Allahın nazil etdiyi kitaba inandım. Mənə sizin aranızda ədalətlə hökm etmək əmr olunmuşdur. Allah bizim də Rəbbimizdir, sizin də Rəbbiniz. Bizim əməllərimiz bizə, sizin də əməlləriniz sizə aiddir. Bizimlə sizin aranızda heç bir mübahisə yoxdur. Allah hamımızı bir yerə toplayacaqdır. Axır dönüş də yalnız Onadır!"» («Şura» surəsi, 15)**

Peyğəmbərimiz (s) Quran əxlaqına tabe olaraq nümayiş etdirdiyi bu gözəl davranışı bu gün müxtəlif dinlərdən olan insanların bir-birilərinə qarşı davranışları mövzusunda nümunə olmalıdır.

Peyğəmbərimizin (s) ədaləti müxtəlif irqlərdən olan insanlar arasında da tolerantlığı formalaşdırmışdır. Peyğəmbərimiz (s) əksər çıxışlarında, hətta «Vida xütbəsi»ndə də irqlərə görə bir üstünlük olmayacağını, Allahın ayədə xəbər verdiyi kimi «üstünlüyün təqvaya görə olacağını» bildirmişdir. Ayədə belə buyurulur:

**«Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız (irq və ya tayfa ilə deyil) Allahdan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır» («Hucurat» surəsi, 13)**

Peyğəmbərimiz (s) isə iki ayrı hədisində belə buyurmuşdur:

*«Ey insanlar! Hamınız Adəmin övladlarısınız. Adəm isə torpaqdan yaradılmışdır. İnsanlar irqləri ilə fəxr etməkdən əl çəkməlidirlər».*[10]

*«Sizin bu nəsil-nəcabətiniz heç kimə üstünlük və təkəbbürlük göstərməyə səbəb olan məsələ deyil. (Ey insanlar!) Hamınız Adəmin övladlarısınız. Hamınız bir ölçünün daxilindəki bir-birinə bərabər buğda dənələri kimisiniz... Halbuki heç kimin*



«Səndən əvvəl göndərdiyimiz peyğəmbərlər də, şübhəsiz ki, yemək yeyər, bazarları gəzib dolaşardılar. Sizin bir qisminizi digərinizə sınaq vasitəsi etdik ki, görək dözə biləcəksinizmi? Sənin Rəbbin görəndir!»

"Furqan" surəsi, 20

*başqasına din və təqva istisna olmaqla, üstünlüyü yoxdur. Adamın pis olması üçün başqalarını təhqir etməsi, özündən aşağı görməsi, paxıl, pis xasiyyətli, həddini aşması kifayət edər».*[11]

Peyğəmbərimiz (s) Vida xütbəsində də müsəlmanlara belə buyurmuşdur:

*«Nəsil-nəcabətlə fəxr edilməz. Ərəblər ərəb olduqlarına görə ərəb olmayanlardan (əcəmilərdən), ərəb olmayanlar da əcəmi olduqlarına görə ərəblərdən üstün sayılmazlar. Çünki Allah dərgahında ən üstün olanınız ona qarşı gəlməkdən ən çox çəkinənizdir (ən təqvalınızdır)».*[12]

Ərəbistan yarımadasının cənub bölgəsindəki xristian Nəcran xalqı ilə bağlanan müqavilə də Peyğəmbərimizin ədalətinin çox gözəl bariz nümunəsidir. Bu müqavilənin maddələrindən biri belədir:

*«Nəcranlıların və məiyyətindəkilərin canları, malları, dinləri, var-dövlətləri, ailələri, kilsələri və malik olduqları hər şey Allahın və Allahın elçisinin himayəsi altına alınacaqdır».*[13]

Peyğəmbərimizin (s) xristian, yəhudi və müşriklərlə imzaladığı Mədinə müqaviləsi də çox vacib ədalət nümunəsidir. Müxtəlif etiqadlara malik olan qruplar arasında ədalətin təmin edilməsi və hər qrupun mənfəətlərinin nəzərə alınması üçün hazırlanan bu müqavilə sayəsində illərlə bir-birilərinə düşmənçilik bəsləyən xalqlara, qruplara sülh gətirilmişdir. Mədinə müqaviləsinin ən bariz xüsusiyyətlərindən biri də etiqad azadlığının təmin edilməsidir. Bu mövzu ilə bağlı maddə belədir:

*«Bəni Əuf yəhudiləri möminlərlə bərabər eyni ümmətdirlər. Yəhudilərin dinləri özlərinə, müsəlmanların dinləri də özlərinədir».*[14]

Mədinə müqaviləsinin 16-cı maddəsində isə *«Bizə tabe olan yəhudilər heç bir haqsızlığa məruz qalmadan və düşmənləri ilə də köməkləşmədən, köməyimizə və dəstəyimizə haqq qazanacaqlar»*[15], - deyə bildirilmişdir. Peyğəmbərimizdən (s) sonra səhabələri Peyğəmbərimizin (s) müqaviləyə yazdırdığı bu hökmə sadiq qalmışlar və eyni hökmü bərbər, buddist, brahman və başqa etiqada malik olan insanlarla münasibətdə də tətbiq etmişdilər.[16]

Səadət dövrünün sülh, əmin-amanlıq və firavanlıq şəraitində olmasının ən vacib səbəblərindən biri də Quran əxlaqına tabe olan Peyğəmbərimizin (s) ədalətli davranışıdır.

Peyğəmbərimizin (s) ədaləti müsəlman olmayan insanlarda da arxayınlıq hissi yaratmış, hətta müşrik olan insanlardan da Peyğəmbərimizin (s) himayəsinə daxil olmaq istəyənlər olmuşdur. Allah Quranda müşriklərin bu tələblərini bildirmiş, həmçinin Peyğəmbərimizə (s) bu adamlara qarşı necə davranmalı olduğunu da vəhy etmişdir:

> **«Əgər müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını dinləsin. Sonra onu əmin olduğu yerə çatdır...» («Tövbə» surəsi, 6)**
>
> **«...Onlar sizinlə doğru-düzgün davrandıqca (əhdi pozmadıqca), siz də onlarla doğru-düzgün dolanın. Həqiqətən, Allah müttəqiləri (xəyanətdən, əhdi pozmaqdan çəkinənləri) sevər!» («Tövbə» surəsi, 7)**

Hazırda dünyanın hər tərəfində baş verən iğtişaşların, döyüşlərin yeganə həlli Quran əxlaqına tabe olmaq və Peyğəmbərimiz (s) kimi, din, dil və irqi ayrıseçkiliyə yol vermədən heç vaxt ədalətdən uzaqlaşmamaqdır.



**Hacı Nazif Bəy. Qurandan bir ayə yazılıdır: "... Allah sizə insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir". "Nisə" surəsi, 58**

## Peyğəmbərimizə (s) itaət edən Allaha itaət edər

Allah bütün insanları göndərdiyi elçilərinə tabe olmağa və onlara itaət etməyə dəvət etmişdir. Bəşər dünyası buna görə məsuliyyət daşıyır. Elçilər Allahın əmrlərini yerinə yetirən, insanlara Allahın vəhyini çatdıran, hal və hərəkətləri, sözləri ilə, qısası, həyatları və yaşam tərzləri ilə insanlara Allahın ən razı qalacağı insan modelini və həyatın necə yaşanmalı olduğunu göstərən mübarək insanlardır. Allah Quranda elçilərinə tabe olanların xilas olacaqlarını bildirmişdir. Buna görə də Peyğəmbərimizə (s) itaət vacib bir ibadətdir. Allah itaət mövzusunun əhəmiyyətini Quranda belə xəbər verir:

> **«Biz hər bir peyğəmbəri, ancaq ona Allahın iznilə itaət olunsun deyə, göndərdik. Onlar özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər» («Nisə» surəsi, 64).**



«Mən özümün və sizin Rəbbiniz olan Allaha təvəkkül etdim. Elə bir canlı yoxdur ki, onun ixtiyarı (Allahın) əlində olmasın. Həqiqətən, Rəbbim düz yoldadır!».

"Hud" surəsi, 56



**«Rəbbin bağışlayandır, mərhəmətlidir. Əgər (Rəbbin) onları günahlarına görə cəzalandırmaq istəsəydi, onların əzabını sürətləndirərdi. Lakin onların vaxtı vardır. Onlar (Allahın əzabından qaçıb canlarını qurtarmağa) əsla bir yer tapa bilməzlər!».**

**“Kəhf” surəsi, 58**

**«Allaha və Peyğəmbərə itaət edənlər Allahın nemətlər verdiyi nəbilər, siddiqlər, şəhidlər və salehlərlə bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!» («Nisə» surəsi, 69)**

Quranın əksər ayələrində isə peyğəmbərlərə itaət edənlərin, əslində, Allaha itaət etmiş olduqları bildirilir. Elçilərə üsyan edənlər isə, həqiqətən, Allaha qarşı gəlmişlər. Bu ayələrdən bəziləri belədir:

**«Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin)! Biz ki səni onların üzərində gözətçi olmağa göndərməmişik» («Nisə» surəsi, 80)**

**«Sənə beyət edənlər, şübhəsiz ki, Allaha beyət etmiş olurlar. Allahın əli onların əllərinin üstündədir. Kim əhdini pozsa, ancaq öz əleyhinə pozmuş olar. Kim Allahla etdiyi əhdi yerinə yetirsə, Allah ona böyük mükafat verər!» («Fəth» surəsi, 10)**

Peyğəmbərimiz (s) də hədislərində itaətin əhəmiyyətini xatırlatmış və belə buyurmuşdur:

*«Hər kim mənə itaət edərsə, şübhəsiz ki, Allaha etmiş sayılır. Hər kim də mənə üsyan edərsə, əlbəttə, Allaha üsyan etmişdir».*[17]

Allah Quranda Peyğəmbərimizin (s) möminlər üçün himayədar və rəhbər olduğunu bildirir. Buna görə də müsəlmanlar hər məsələdə Peyğəmbərimizlə (s) məsləhətləşir, onun fikrini öyrənərək, razılığını alaraq bir işə başlayardılar. Həmçinin aralarında ixtilaf olan mövzuların həllini tapa bilməyəndə, yaxud ümmətin təhlükəsizliyi, səhiyyəsi, iqtisadi vəziyyəti ilə bağlı bir xəbər öyrənən kimi bunları da dərhal Peyğəmbərimizə (s) çatdırır və ondan ən xeyirli və etibarlı cavabını və ya bununla bağlı həll yollarını öyrənərək icra edərdilər.

Bu, Allahın Quranda möminlərə əmr etdiyi çox mühüm bir əxlaqdır. Məsələn, Allah bir ayədə bütün xəbərlərin peyğəmbərə və ya

onun özünə vəkil təyin etdiyi şəxslərə çatdırılmasını əmr edir. Ayədə belə buyurulur:

**«Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə dərhal onu yayarlar. Halbuki əgər bunu Peyğəmbərə və ya özlərindən olan əmr sahiblərinə demiş olsaydılar, əlbəttə, həmin xəbəri onun mahiyyətinə varan şəxslər bilərdilər. Əgər Allahın lütfü üzərinizdə olmasaydı, şübhəsiz ki, az bir qisminiz müstəsna olmaqla, şeytana uyardınız» («Nisə» surəsi, 83).**

Bu, əlbəttə, çox sayda xeyri və hikməti olan bir əmrdir. Hər şeydən əvvəl Peyğəmbərimizin (s) hər əmri və hökmü Allahın himayəsindədir. Dolayısı ilə verdiyi qərarlar həmişə xeyirli olur. Həmçinin Peyğəmbərimiz (s) ümmətin ən ağıllı və hikmətli şəxsidir. İnsanlar təbii olaraq hər işində işin əhli olan, daha ağıllı və vicdanlı, çox etibar etdiyi, arxayın olduğu şəxslə məsləhətləşmək, bir xəbəri nəticə çıxarmaq üçün onunla bölüşmək istəyirlər.

Peyğəmbərimizin (s) bütün bu xüsusiyyətləri ilə yanaşı, xəbərlərin hamısının bir nəfərdə yığılmasının hikmətlərindən biri də bu xəbərlərin birləşməsindən daha məntiqli və dəqiq nəticələr çıxarmasıdır. Allah başqa bir ayəsində isə möminlərin öz aralarındakı mübahisələrdə Peyğəmbərimizi (s) hakim tutmalarını bildirmişdir. Bu cür ixtilafların dərhal Peyğəmbərimizə (s) çatdırılması Allahın əmridir və bu ağla, vicdana və ədəbə uyğun olandır. Həmçinin Peyğəmbərimizin (s) verdiyi hökmə ürəkdən və heç bir tərəddüdə yer vermədən itaət etmək çox vacibdir. Onun verdiyi qərar həmin insanın mənfəəti ilə ziddiyyət təşkil etsə də, həqiqətən, iman gətirənlər bu vəziyyətdən heç vaxt inciməz və dərhal razı olaraq peyğəmbərin hökmünə itaət edərlər. Allah bu vacib itaət məsələsini Quranda belə bildirmişdir:

**«Amma, xeyr! Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, iman gətirmiş olmazlar» («Nisə» surəsi, 65)**

Peyğəmbərimizin (s) bütün qərarlarının həmişə Allahın mühafizəsində olduğunu dərk edə bilməyən bəzi zəif imanlı ya da ikiüzlü adamlar Peyğəmbərimizin (s) hər məsələdən xəbərdar olaraq məlumatlandırılmasına etiraz etmiş və bununla bağlı fitnə salmağa çalışmışdılar. Bu vəziyyətin bildirildiyi ayə belədir:

**«Peyğəmbəri incidib: “O (hamını dinləyən, hər sözü eşidib inanan) bir qulaqdır”, - deyənlər də var. De: “O qulaq sizin üçün bir nemətdir, Allaha da inanır, möminlərə də. O sizdən iman gətirənlər üçün rəhmətdir. Allahın Rəsuluna əziyyət verənləri isə şiddətli bir əzab gözləyir!”» («Tövbə» surəsi, 61)**

Bu adamlar imanın əsasını dərk edə bilmədikləri və Peyğəmbərimizi (s) təqdir edib tanıya bilmədikləri üçün onun hər şeydən xəbərdar olmasını cahiliyyə zehniyyəti ilə dəyərləndirmişdilər. Çünki cahil insanlar malik olduqları məlumatları xeyir, gözəllik, insanların yaxşılığı və əmin-amanlığı üçün istifadə etməzlər. Onlar bunu ancaq qeybət və fitnə üçün işlədir, insanların aralarını vurmağa, məkrli planlar qurmağa çalışırlar. Halbuki Peyğəmbərimiz (s) ona gələn hər xəbərlə həm müsəlmanların, həm də himayəsi altında olan başqa insanların təhlükəsizliyini, sağlamlığını, əmin-amanlığını təmin etmiş, ehtimal olunan təhlükələrin qarşısını alaraq möminlərə qarşı qurulan məkrli planları pozmuş, imanı zəif olanları müəyyən edərək belələrinin imanlarını gücləndirəcək tədbirlər almış, möminləri zəiflədəcək, həvəslərini azaldacaq bütün

ehtimalların qarşısını kəsmiş, möminlərə gözəllik və xeyir gətirəcək müxtəlif üsullar müəyyənləşdirmişdir. Buna görə də Allah ayələrdə onun «bir xeyir qulağı» olduğunu bildirmişdir. Peyğəmbərimizin (s) hər sözü, hər qərarı, hər tədbiri möminlərə və əslində, bütün bəşərə xeyir və gözəllik gətirmişdir.

## Peyğəmbərimiz (s) insanların vicdanlarına təsir edəcək tərzdə, hikmətlə xəbərdar edərək mənfiliklərdən çəkindirmişdir

Quran Peyğəmbərimizə (s) vəhy ediləndən etibarən o, həyatı boyunca insanları Allahın dininə dəvət etmiş, onlara düzgün yolu göstərərək rəhbərlik etmişdir. Quranın bir ayəsində Peyğəmbərimizin (s) belə xitab etməsi bildirilir:

**«De: "Bu mənim yolumdur. Mən və mənə tabe olanlar açıq-aşkar bir dəlillə Allaha çağırırıq. Allah pak və müqəddəsdir. Mən isə müşriklərdən deyiləm!"» («Yusuf» surəsi, 108)**

Quran ayələrindən də aydın olduğu kimi, Peyğəmbərimiz (s) insanları xəbərdar edib qorxudarkən, onlara Quranı, gözəl əxlaqı öyrədərkən çoxlu çətinliklərlə üzləşmişdir. Hamı hidayət əhli olmadığı üçün paxıllığından, kinindən, hirsindən Peyğəmbərimizə (s) çətinlik törədənlər, söylədiyi sözü qavraya bilməyənlər, başa düşdüyü halda özünü qanmazlığa vuran, Peyğəmbərimizin (s) dediklərinə «inandım» dediyi halda, əslində inanmayaraq ikiüzlü hərəkət edənlər və bu cür əxlaqsızlıq göstərənlər olmuşdur. Peyğəmbərimiz (s) bütün bunlara baxmayaraq, dini çatdırmağa qətiyyətlə davam etmişdir. Bu adamların davranışları bir ayədə belə bildirilir:

**«...Siz kitabın hamısına inanırsınız. Onlar sizinlə görüş-**



**Peyğəmbər Rəbbi tərəfindən nazil edilənə inanmış və möminlər də iman gətirmişlər. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və peyğəmbərlərinə iman gətirərək dedilər: “Eşitdik və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla! Sənin dərgahına qayıdacağıq!”**

**“Bəqərə” surəsi, 285**



**düklәri zaman: "Biz dә inandıq", - deyirlәr. Xәlvәtdә olduqda isә sizә qarşı qәzәblәrindәn barmaqlarını gәmirirlәr. De: "Acığınızdan ölün!" Әlbәttә, Allah ürәklәrdә olanları bilәndir» («Ali-İmran» surәsi, 119)**

Peyğәmbәrimizin (s) münafiqlәrә qarşı davranışı vә qәtiyyәti isә ayәdә belә buyurulur:

**«Kitab verdiklәrimiz sәnә nazil etdiyimizә sevinirlәr. (Müsәlmanların әleyhindә birlәşәn) firqәlәr dә vardır ki, onun bir qismini inkar edirlәr. De: "Mәnә Allaha ibadәt etmәk, Ona şәrik qoşmamaq әmr olunmuşdur. Mәn Ona dәvәt edirәm vә mәnim axır dönüşüm dә yalnız Onadır!"» («Rәd» surәsi, 36)**

Peyğәmbәrimiz (s) münafiqlәrә xәbәrdarlıq etmәyә davam etmiş, dinә vә özünә qarşı düşmәnçilik bәslәmәlәrinә baxmayaraq, bәlkә әl çәkәrlәr vә hidayәtә gәlәrlәr deyә onlara dini әn tәsirli tәrzdә çatdırmışdır. Münafiqlәrin Peyğәmbәrimizin (s) dediklәrinә qarşı göstәrdiklәri isә «Nisә» surәsindә belә xәbәr verilir:

**«Sәnә nazil edilәnә vә sәndәn әvvәl nazil edilәnlәrә iman gәtirdiklәrini iddia edәnlәri görmürsәnmi? Onlar Tağutun hüzurunda mühakimә olunmaq istәyirlәr. Halbuki onlara inanmamaları әmr olunmuşdur. Şeytan isә onları çox uzaq olan zәlalәtә sürüklәmәk istәr. Onlara: "Allahın nazil etdiyinә vә Peyğәmbәrә tә-**



**rəf gəlin!" - deyildiyi zaman, münafiqlərin səndən büsbütün üz döndərdiklərini görərsən» («Nisə» surəsi, 60-61).**

Münafiqlərin bu ikiüzlü davranışlarına baxmayaraq Peyğəmbərimiz (s) onlara nəsihət vermiş, onların vicdanlarına təsir edərək həqiqəti görmələrinə səbəb olacaq tərzdə onlarla danışmışdır. Bir ayədə belə buyurulur:

**«Onlar elə şəxslərdir ki, Allah onların ürəklərindəkini bilir. Sən onlardan üz çevir, onlara öyüd ver və onlara özləri haqqında təsirli söz de!» («Nisə» surəsi, 63)**

Ona düşmən olan insanlara nəsihət etmək, səhvlərini açıq-aşkar söyləyərək onları düz yola çağırmaq, əlbəttə, ağır məsuliyyətdir. Ancaq Peyğəmbərimiz (s) kimi Allaha arxalanıb güvənən, hidayəti verənin Allah olduğunu bilən, insanlardan deyil, ancaq Allahdan qorxub çəkinən bir insan üçün, hər işdə olduğu kimi, bunda da Allahın yardımı və asanlıqları vardır.

Allah Quranın əksər ayələrində azğınlıq edən insanları düz yola qaytarmaq, onları təmizləmək və onlara ayələrini öyrətmək üçün elçilərini göndərdiyini bildirir. Əvvəlki səhifədə də qeyd edildiyi kimi, Peyğəmbərimiz (s) Allahın ona verdiyi bu məsuliyyəti böyük səbr, şövq və qətiyyətlə həyatı boyunca davam etdirmişdir. Vəfatına çox az vaxtın qaldığı bir ərəfədə, «Vida xütbəsi»ndə də müsəlmanları maarifləndirməyə

**«Allah iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə tağutdur. Onları nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar!»**

**"Bəqərə" surəsi, 257**



«De: "Bu mənim yolumdur. Mən və mənə tabe olanlar açıq-aşkar bir dəlillə Allaha çağırırıq. Allah pak və müqəddəsdir. Mən isə müşriklərdən deyiləm!"»

"Yusuf" surəsi, 108

və onlara nəsihət verməyə davam etmişdir.

Allahın Peyğəmbərimizə (s) verdiyi bu gözəl məsuliyyətlər ayələrdə belə xəbər verilir:

**«Həmçinin sizə ayələrimizi oxumaq, sizi təmizləmək, Kitabı, hikməti və bilmədiklərinizi öyrətmək üçün sizə öz içərinizdən bir peyğəmbər göndərdik» («Bəqərə» surəsi, 151).**

**«Allah möminlərə lütf etdi. Çünki onların öz içərisindən özlərinə ayələri oxuyan, onları təmizləyən, onlara Kitabı və hikməti öyrədən bir peyğəmbər göndərdi. Halbuki bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər» («Ali-İmran» surəsi, 164).**

**«Ümmilərə özlərindən peyğəmbər göndərən Odur. Əvvəllər haqq yoldan açıq-aşkar azsalar da, onlara ayələrini oxuyar, onları təmizləyər, onlara Kitabı və hikməti öyrədər» («Cümə» surəsi, 2).**

Allah bir ayəsində Peyğəmbərimizin (s) nəsihətlərinin, tövsiyələrinin, xatırlatmalarının və xəbərdarlıqlarının inananlar üçün «həyat verən, dirildən şeylər» olduğunu bildirir. Ayədə belə buyurulur:

**«Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin. Bilin ki, Allah insanla onun qəlbi arasına girər və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz!» («Ənfal» surəsi, 24)**

Buna görə Peyğəmbərimizin (s) dəvəti və nəsihətləri hər hansı adi bir adamın çağırışı kimi deyil. Bu dəvətə tabe olmaq insanın dünyada və axirətdə qurtuluşu, xilası deməkdir. Peyğəmbərimizin (s) hər çağırışında insanı mənfiliklərdən, zülmdən, ümidsizlikdən, əzabdan xilas edəcək hikmətlər var. Peyğəmbərimizin (s) hər tövsiyəsində Allahın ilhamı və himayəsi olduğu üçün səmimi bir müsəlman bu nəsihətlərə ürəkdən təslim olaraq hidayət tapar.

Peyğəmbərimizin (s) bizə gəlib çatan sözlərində onun möminlərə verdiyi gözəl öyüdlər də var. Bunlardan biri səhabələrindən Muaza verdiyi nəsihətdir. Peyğəmbərimizin (s) ona belə dediyi xəbər verilir:

*«Muaz! Sənə Allahdan qorxmağını, sözün düzünü danışmağını, sözünün üstündə durmağını, əmanəti yerinə yetirməyini, xəyanətdən uzaq qalmağını, qonşunun haqqını qorumağını, yetimə yazığının gəlməyini, şirin sözlü olmağını, çox salam verməyini, işin yaxşısını etməyini, çox tamahkar olmamağını, imana sarılmağını, Quranı dərindən başa düşməyini, axirət sevgisini, hesabdan*

*qorxmağını, təvazökar olmağını tövsiyə edirəm.*

*Muaz! Sənə hikmətli şəxsləri təhqir etməyi, düzdanışana yalan deməyi, günahkara boyun əyməyi, ədalətli hökmdara üsyan etməyi, dünyada fəsad çıxarmağı qadağan edirəm.*

*Muaz! Sənə hər daşın, ağacın və divarın yanında, harada olmağından asılı olmayaraq, Allahdan qorxmağını, etdiyin hər günahdan sonra gizlisinə gizli, aşkarına da aşkar tövbə etməyini tövsiyə edirəm».*[18]

Peyğəmbərimiz (s) yaxınlarını və müsəlmanları belə tərbiyələndirmiş, maarifləndirmiş və onları həmişə gözəl xasiyyətli olmağa dəvət etmişdir.




**Sami Əfəndi (1838-1912). Cəli taliq lövhə. Kəlamı-kibar: "Hikmətin əvvəli Allah qorxusudur".**

## Peyğəmbərimiz (s) danışıqlarında həmişə Allahı yad edərdi

Peyğəmbərimiz (s) Allahın **«Allahı uca tut!»** («İsra» surəsi, 111) ayəsi ilə bildirdiyi əmrinə uyğun olaraq bir mövzudan bəhs edərkən, möminlərə nəsihət edərkən, insanlara səslənərkən və ya dua edərkən həmişə Rəbbimizi ən uca və ən gözəl adları ilə yad edər, Onun gücünü, aliliyini və ucalığını qeyd edərdi. Allah Peyğəmbərimizə (s) insanlara necə səslənməli olduğunu bu ayələrlə bildirmişdir:

> **«De: "Ey mülkün sahibi olan Allahım! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən! Gecəni gündüzə, gündüzü isə gecəyə qatarsan. Ölüdən diri, diridən isə ölü çıxararsan. İstədiyin şəxsə saysız-hesabsız ruzi verərsən"» («Ali-İmran» surəsi, 26-27).**



«Məgər onlara özlərindən əvvəlki Nuh, Ad, Səmud tayfasının, İbrahim qövmünün, Mədyən əhalisinin və şəhərləri alt-üst olanların xəbəri gəlib çatmadımı? Peyğəmbərləri onlara aşkar möcüzələrlə gəlmişdilər. Allah onlara zülm edən deyildi, lakin onlar özlərinə zülm etdilər».

“Tövbə” surəsi, 70



«İnsanlar yalnız: “İman gətirdik!” - deməlerilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar? Biz onlardan əvvəlkiləri də imtahana çəkmişdik. Şübhəsiz ki, Allah düzdanışanları da, yalançıları da çox gözəl tanıyır! Yoxsa pis əməllər edənlər əzabımızdan sovuşa biləcəklərini güman edirlər? Onlar necə də pis mühakimə yürüdürlər!»

“Ənkəbut” surəsi, 2-4



**«De: “Ürəklərinizdəkini gizli də saxlasanız, aşkara da çıxartsanız, Allah onu bilir. Çünki O, göylərdə və yerdə nə varsa, hamısını bilir. Allah hər şeyə qadirdir!» («Ali-İmran» surəsi, 29)**

**«De: “Hökm ancaq Allahındır. Haqqı yalnız O bəyan edər. O (haqla batili) ayırd edənlərin ən yaxşısıdır!» («Ənam» surəsi, 57)**

**«De: “Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm. Göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir tanrı yoxdur. O dirildir və öldürür. Buna görə də Allaha, eləcə də Onun Allaha və Allahın sözlərinə inanan və ümmi peyğəmbər olan Rəsuluna iman gətirin və ona tabe olun ki, doğru yolu tapa biləsiniz!”» («Əraf» surəsi, 158)**

**«De: “Əgər Rəbbimin sözlərini yazmaq üçün dərya mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik, yenə də Rəbbimin sözləri tükənməzdən öncə onlar tükənərdi!”» («Kəhf» surəsi, 109)**

**«De: “O Allah birdir. Allah möhtac deyildir! O nə doğmuş, nə də doğulmuşdur! Onun heç bir tayı-bərabəri də yoxdur!”» («İxlas» surəsi, 1-4)**



Peyğəmbərimiz (s) hər hansı bir müsəlmana nəsihət edərkən də əvvəlcə ona Allahın aliliyini xatırlatmış və belə demişdir:

> *"Allahdan başqa tanrı yoxdur. O təkdir, şəriki yoxdur. Yerin və səmanın mülkü Ona məxsusdur. Bütün həmd-səna Onadır, O hər şeyə qadirdir», - de... Qovulmuş şeytandan Allaha sığın".*[19]

Peyğəmbərimizin (s) hər hal-əhvalını, əxlaqını və təqvasını nümunə götürən, Qurana və Peyğəmbərimizin (s) yoluna tabe olan hər möminin danışığı da insanlara Allahı, Onun gücünü və böyüklüyünü xatırladan, həmişə Allaha dəvət edən, insanlara Allahı sevdirən və Ondan qorxub çəkinmələrinə səbəb olan bir tərzdə olmalıdır. Möminin hər danışığında Allahı unutmadığı, həmişə Rəbbimizə üz tutduğu aydın olmalıdır.

Peyğəmbərimiz (s) həmişə inananlara Allahı sevmələrini və onu da Allahı sevdikləri üçün sevmələrini nəsihət etmişdir. Bir hədisdə belə bildirilir:

> *«Sizə verdiyi nemətlərindən ötrü Allahı sevin, məni də Allah məni sevdiyi üçün sevin».*[20]

## Peyğəmbərimiz (s) «müjdələyən» idi

Allah **«Ey Peyğəmbər! Həqiqətən, Biz səni bir şahid, bir müjdəçi və bir qorxudan kimi göndərdik!»** («Əhzab» surəsi, 45) ayəsində



Peyğəmbərimizin (s) müjdələyən və xəbərdar edən olduğunu bildirir. Peyğəmbərimiz (s) insanları həm cəhənnəm əzabından xəbərdar edərək qorxutmuş, həm də onları dünyada yaxşıların həmişə qalib olacağını, axirətdə isə sonsuz cənnət həyatı ilə müjdələmişdir. Peyğəmbərimizin (s) bu xüsusiyyəti Quran ayələrində belə bildirilir:

> **«Biz səni haqq ilə müjdə verməyə və qorxutmağa göndərdik. Cəhənnəm əhli barəsində isə sən sorğu-suala tutulmayacaqsan» («Bəqərə» surəsi, 119).**

> **«Biz (Quranı) haqq olaraq nazil etdik, o da haqq olaraq nazil oldu. Səni də yalnız müjdə verən və qorxudan sifəti ilə göndərdik» («İsra» surəsi, 105).**

**Hüseyin Kutlu, “MaşaAllah“ yazılı xəttatlıq şəkli.**



**«Şübhəsiz ki, bu (Quran) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir! Onu Cəbrail endirdi. Qorxudan peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi)» («Şuəra» surəsi, 192-194).**

**«Biz səni bütün insanlara müjdə verən, qorxudan bir peyğəmbər göndərdik. Lakin insanların əksəriyyəti bilmir!» («Səba» surəsi, 28)**

Peyğəmbərimizi (s) nümunə götürərək onun yoluna tabe olanlar da onun kimi insanları xəbərdar edən və onlara müjdələr verən şəxslər olmalıdır. Həmçinin Peyğəmbərimiz (s) də ümmətinə müjdə verənlərdən olmalarını belə buyurmuşdur:

*«Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət etdirməyin. Birbirinizlə yaxşı davranın, ixtilafa düşməyin».*[21]

Müjdə verməklə Peyğəmbərimiz möminlərin həvəslərini və həyəcanlarını artırır, etdikləri saleh əməllərdə daha qətiyyətli və müvəffəq olmalarına səbəb olurdu. Etdiyi işin əvəzinin cənnətdə gözəllik olaraq alacağına ümid edən adam, əlbəttə, işini monotonluq içində, vərdişkar olaraq, yaxud məcbur qalaraq edən şəxsdən daha fərqli əhval-ruhiyyədə olacaqdır. Allah buna görə Peyğəmbərimizə (s): **«Möminləri də hazırlayıb təşviq et!»** («Nisə» surəsi, 84) tərzində buyurmuşdur.

Allah başqa bir ayədə isə **«Möminlərə Allah tərəfindən böyük bir mükafat bəxş ediləcəyi ilə müjdə ver!»** («Əhzab» surəsi, 47) şəklində bildirir. Allahın əmrinə və Peyğəmbərimizin (s) yoluna tabe olan hər bir möminin bütün müsəlmanları müjdələmək və onları həvəsləndirmək cavabdehliyi var. Mənfi çıxışlar etmək, asan olan işləri çətin kimi göstərib möminləri bezdirməyə çalışmaq, gözəllikləri, Allahın Quranda verdiyi müjdələri unutduraraq müsəlmanları qəflətə aparmaq müsəlmana yaraşan davranış deyil. Quran əxlaqına uyğun olan, Peyğəmbərimiz (s) kimi, Allahın müsəlmanlara vəd etdiyi gözəllikləri tez-tez xatırlamaq və onları həmişə canlı və həvəsli saxlamaqdır.

Peyğəmbərimizə (s) müjdələməsi üçün əmr edilən məsələlərdən biri Allahın günahları bağışlaması ilə bağlıdır:

**«De: "Ey Mənim özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!» («Zumər» surəsi, 53)**

**«Ayələrimizə iman gətirənlər yanına gəldikdə onlara de: "Sizə salam olsun! Rəbbiniz Özünə rəhmli olmağı yazmışdır ki, sizlərdən hər kəs pis iş görsə, sonra tövbə edib düzəlsə, bilsin ki, Allah bağışlayandır, rəhm edəndir!"» («Ənam» surəsi, 54)**

**Başqa bir müjdəli məsələ isə cənnətdir:**

**«Söylə: "Sizə bunlardan daha yaxşısını xəbər verimmi? Allahdan qorxub pis əməldən çəkinənlər üçün Rəbbi yanında altından çaylar axan cənnətlər vardır ki, orada əbədi qalacaqlar. Onlardan ötrü orada pak olan zövcələr və Allah rizası (razılığı, hüsn-rəğbəti) vardır. Allah, həqiqətən, bəndələrini görəndir!» («Ali-İmran» surəsi, 15)**

## Peyğəmbərimiz (s) xalqına onun da bir insan olduğunu xatırlatmışdır

İnkar edənlərin əsas xüsusiyyətlərindən biri qürurlarıdır. Bu təkəbbürləri ucbatından Allahın elçilərinə itaət etməyi rədd etmişlər və itaət etməmək üçün müxtəlif bəhanələr gətirmişlər. Bu bəhanələrdən biri isə elçilərə ancaq fövqəlbəşər bir məxluq olsalar, itaət edəcəklərini demələridir. Aləmlərə rəhmət olaraq göndərilən Peyğəmbərimiz (s) isə xalqına onun Allahın bir bəndəsi, qulu olduğunu, bəhanə gətirənlərin iddialarının yersiz olduğunu və qurtuluş üçün üzlərini Allaha tutmalarını söyləmişdir. Bununla bağlı olan Quran ayələrində Allah Peyğəmbərimizə belə deməsini əmr etmişdir:

**«De: "Mən də sizin kimi ancaq bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız yalnız bir olan Allahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!"» («Kəhf» surəsi, 110)**



«(Ey Muhəmməd) iman gətirən və yaxşı işlər görən kimsələrə müjdə ver: onlar üçün altından çaylar axan cənnətlər vardır. Meyvələrindən bir ruzi yedikləri zaman: “Bu bizim əvvəlcə yediyimiz ruzidir”, - deyəcəklər. Əslində isə bu onlara -(dünyadakılara zahirən) bənzər olaraq verilmişdir. Onlardan ötrü orada pak zövcələr də var. Onlar orada əbədi qalacaqlar».

“Bəqərə” surəsi, 25

**«De: “Əgər yer üzündə (siz insanlar kimi) arxayın gəzib dolaşanlar mələklər olsaydı, sözsüz ki, onlara bir mələk peyğəmbər göndərərdik!” De: “Mənimlə sizin aranızda təkcə Allahın şahid olması kifayət edir. Şübhəsiz ki, O, bəndələrindən xəbərdardır, görəndir!”» («İsra» surəsi, 95-96)**

Peyğəmbərimiz (s) xalqına onun özünə də müsəlman olmaq və Allaha itaət etmək əmr olunduğunu və onun ancaq xəbərdar etmək üçün məsuliyyət daşıdığını, inkar edənlərin davranışlarına cavabdeh olmadığını da bildirmişdir. Bunu xəbər verən ayələr belədir:

**«(De:) “Mənə ancaq bu şəhərin Rəbbinə ibadət etmək əmr olunmuşdur. Elə bir şəhər ki, onu müqəddəs tutmuşdur. Hər şey yalnız Onundur. Mənə müsəlman olmaq əmr edilmişdir! Və mənə Quran oxumaq buyurulmuşdur!” Hər kəs doğru yolda olsa, yalnız özü üçün doğru yolda olmuş olar. Hər kəs doğru yoldan çıxsa, (ona) de: “Mən yalnız qorxudan peyğəmbərlərdənəm!” Və de: “Həmd olsun Allaha! O Öz ayələrini sizə göstərəcək, siz də onları görüb tanıyacaqsınız. Rəbbin etdiyiniz əməllərdən əsla xəbərsiz deyildir!”» («Nəml» surəsi, 91-93)**

## Peyğəmbərimiz (s) müsəlmanlardan çətinlikləri aradan qaldırmışdır

Peyğəmbərimiz (s) yuxarıda sadalanan xüsusiyyətləri ilə möminlərin üstündən yükü qaldırmış, onların fikirləşərək öyrənə bilməyəcəkləri və ya çətinliklə yerinə yetirəcəkləri işlərdə onlara yol göstərmişdir. Bununla yanaşı, insanların bəziləri özlərinə zülm etməyə, çətinlik yaratmağa, özlərindən qaydalar çıxarıb bunlara tabe olduqları təqdirdə xilas olacaqlarına inanmağa çox inanırlar. Bəşər tarixi boyunca dinlərin təhrif edilməsinin arxasında dayanan səbəblərdən biri də insanların bu xüsusiyyətidir. Bəzi cəmiyyətlər də dində olmayan qaydalar uyduraraq bunlara əməl etdiklərinə görə təqvalı olacaqlarına özlərini və başqalarını

**«Səbir et. Sənin səbir etməyin yalnız Allahın köməyilədir. Onlardan ötrü kədərlənmə və qurduqları hiylələrə görə də ürəyini qısma! Həqiqətən, Allah Ondan qorxub pis əməllərdən çəkinənlər və yaxşı işlər görənlərlədir!».**

**“Nəhl” surəsi, 127-128**



«...Əlbəttə, Allah ürəklərdə olanları biləndir. Sizə bir mənfəət yetişəndə onlar qəmgin olur, bir zərər toxunanda isə ona sevinirlər. Əgər səbir edib özünüzü qorusanız, onların hiyləsi sizə heç bir zərər yetirməz. Şübhəsiz ki, Allah onların nə etdiklərini biləndir».

"Ali-İmran" surəsi, 119-120



«Onlara bir ayə gəldiyi zaman: "Allahın peyğəmbərlərinə verildiyinin misli bizə verilməyincə biz iman gətirməyəcəyik!" - deyərlər. Allah peyğəmbərliyi hara göndərəcəyini Özü daha yaxşı bilir. Günahkarlar Allahın hüzurunda etdikləri məkrlərə görə zillətə və şiddətli əzaba düçar olacaqlar!».

"Ənam" surəsi, 124

inandırmışlar. Peyğəmbərimizin (s) ən mühüm xüsusiyyətlərindən biri isə insanların üzərindən öz əlləri ilə əmələ gətirdikləri çətinlikləri aradan qaldırmaqdır. Allah bir ayədə Peyğəmbərimizin (s) bu xüsusiyyətini belə bildirir:

> **«O kəslər ki, əllərindəki Tövratda və İncildə yazıldığını gördükləri rəsula - ümmi peyğəmbərə tabe olurlar. (O peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz nemətləri halal, murdar şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (çətin hökmləri götürər). Ona iman gətirən, yardım göstərən və onunla endirilmiş nurun ardınca gedənlər - məhz onlar nicat tapanlardır!"» («Əraf» surəsi, 157)**

Ayədə bildirilən «ağır yük» və «zəncirlər» çətinliklər mənasındadır.

Peyğəmbərimiz (s) isə həm yaşayışı ilə onlara nümunə olmuş, həm də ayədə bildirildiyi kimi, onları yaxşılığa dəvət edib, pisliklərdən çəkindirərək insanların özlərinə yaratdıqları çətinlikləri ləğv etmişdir.

Peyğəmbərimizin (s) ən gözəl nümunə olduğu mövzulardan biri də təqvası, yəni ancaq Allahın razılığını nəzərə alan davranışıdır. Peyğəmbərimiz (s) ancaq Allahdan qorxub çəkindiyi və heç vaxt insanların nəfslərinə tabe olmadığı üçün həmişə ən doğru yolda olmuşdur. Quran əxlaqının bu xüsusiyyəti insan üçün böyük asanlıq və gözəllikdir. İnsanları razı salmağa, özünü onlara bəyəndirməyə çalışan, həm Allahın, həm də insanların razılığını axtararaq, təqdir və təriflərinin ardınca qaçan insanlar üçün həmişə etdikləri iş böyük bir ağırlıqdır. Belə adamlar həm ürəklərindən gəldiyi kimi səmimi, müstəqil fikirləşib davrana bilməzlər, həm

də hər insanı eyni anda razı sala bilməyəcəkləri üçün də axtardıqları tərifi və təqdiri də tapa bilməzlər. Ən xırda bir səhv ucbatından panikaya qapılar, gözünə girməyə çalışdıqları adamların narazı olduqlarını görəndə, onların hörmətini və güvənini itirmək qorxusunu daşıyarlar. Halbuki, ancaq Allahın razılığını nəzərə alan, ancaq Allahdan qorxub çəkinən müsəlmanlar heç vaxt müvəffəq ola bilməyəcəkləri, onlara dünyada və axirətdə sıxıntı, itki gətirəcək yükün altına girməzlər. Heç vaxt insanların razılığını, nə fikirləşdiklərini, ayıb bilib qınamaları kimi məsələləri hesaba qatmazlar. Buna görə də həmişə rahat və sevinclidirlər. Bir səhvləri olanda da bunun hesabını ancaq Allaha verəcəklərini, sadəcə Allahdan bağışlanmalarını istəməli olduqlarını bildikləri üçün yenə bir sıxıntı və narahatçılıq içində olmazlar.

Peyğəmbərimiz həm sözləri, həm də hal və hərəkətləri ilə möminlərə səmimi yaşamağı öyrətmiş, bütün insanlar üçün ağır yük olan «insanların razılığını nəzərə almağı» onların üstündən götürmüşdür. Əlbəttə, bu, Peyğəmbərimizin (s) inananların üzərindən qaldırdığı çətinliklərdən ancaq biridir. Hz.Muhəmməd (s) bununla dünyada və axirətdə xeyir, gözəllik gətirəcək bir çox mövzuda bütün müsəlmanlara nümunə olmuşdur.

Allah səmimi bir adamla Allaha şərik və tay qoşanın eyni olmayacağını ayələrdə belə bildirir:

> **«Allah bir məsəl çəkir: "Bir adamın bir-biri ilə çəkişən bir neçə şərikli ağası var. Başqa bir adamın da yalnız bir ağası var. Onların hər ikisi vəziyyətcə eyni ola bilərmi?! Həmd ancaq Allaha məxsusdur, lakin onların əksəriyyəti bilməz!» («Zumər» surəsi, 29)**

Peyğəmbərimizin (s) möminlərin üzərindən qaldırdığı yeganə

çətinlik şirk (şərik) qoşmaq deyil. Peyğəmbərimiz (s) insanlara çətin gələn, onlara sıxıntı yaradan hər cür çətinliyi qaldırmış, onları ən asan və ən gözəl olana dəvət etmiş və hər şeyin həlli yollarını göstərmişdir. Buna görə də Peyğəmbərimizin yoluna tabe olanlar rahat və asan həyat yaşayarlar.

Peyğəmbərimizin (s) bu mövzudakı hədislərindən bəziləri belədir:

*«...Sən tam bir imanla Allahın razılığını qazanmağa gücün çatdığı qədər çalış, əgər buna gücün çatmasa, xoşuna gəlməyən şeydə səbir elə. Çünki səbirdə çox xeyir var. Bunu da bil ki, kömək səbirlə birlikdə gəlir, qurtuluş da sıxıntı ilə gəlir. Çətinlikdə də asanlıq var. Bir çətinlik iki asanlığa heç vaxt qələbə çalmayacaqdır».*[22]

*«Çətinlik gəlib bu qayanın içinə girsə, mütləq asanlıq ardınca gəlib içəri daxil olar və oradan çətinliyi çıxarar».*[23]

**«...O onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz nemətləri halal, murdar şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar...»**

**“Əraf” surəsi, 157**

**«Yoxsa elə güman edirsiniz ki, Allah içərinizdən cəhd göstərənləri, Allahdan, Onun Peyğəmbərindən və möminlərdən başqasını özlərinə dost tutanları ayırd etməmiş siz sərbəst buraxılacaqsınız? Allah nə etdiklərinizdən xəbərdardır!»**

**"Tövbə" surəsi, 16**

## Peyğəmbərimiz möminləri çox istəyirdi, onlara qarşı çox mərhəmətli idi

Peyğəmbərimiz çox səmimi, şəfqətli, mərhəmətli, sevgi ilə dolu bir insan idi. Dostlarının, yaxınlarının, ona tabe olan bütün möminlərin maddi-mənəvi, hər cür problemi ilə maraqlanır, onların sağlamlıqları, təhlükəsizlikləri, sevincləri üçün bütün tədbirləri alır, onlara qoruyucu qanadlarını sərir, həmişə imanlarını və təqvalarını gücləndirərək axirət həyatını fikirləşirdi. Peyğəmbərimizin (s) bütün bəşərə nümunə olan gözəl xüsusiyyətləri ayələrdə belə bildirilir:

> **«Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizi çox istəyir, möminlərə şəfqətlidir, mərhəmətlidir!» («Tövbə» surəsi, 128)**

> **«Sənə tabe olan möminləri qanadın altına al!» («Şuəra» surəsi, 215)**

Peyğəmbərimizin (s) tərbiyələndirdiyi möminlər də onun gözəl xüsusiyyətlərini özlərinə nümunə götürdükləri üçün, Quranda da bəhs edildiyi kimi, bütün bəşərə misal olan fədakarlıqlar, şəfqətli və mərhəmətli davranışlar nümayiş etdirmişlər. Bir ayədə möminlərin bir-biri üçün etdikləri fədakarlıq belə bildirilir:

> **«Onlardan əvvəl yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar. Nəfsinin xəsisliyindən qorunub**



**saxlanılan kimsələr - məhz onlar nicat tapıb səadətə qovuşanlardır!» («Həşr» surəsi, 9)**

Peyğəmbərimizin (s) tərbiyələndirdiyi və Quran ayələrinə ürəkdən bağlı olan möminlər əsirlərinə qarşı da mərhəmətli davranmışlar. Onların bu əxlaq xüsusiyyətləri ayələrdə belə bildirilir:

**«Onlar öz iştahaları çəkdiyi halda, yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. (Və belə deyərlər:) "Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən nə bir mükafat, nə də bir təşəkkür istəyirik. Həqiqətən, biz Rəbbimizdən, çox sərt (müdhiş), çətin gündən qorxuruq!"» («İnsan» surəsi, 8-10)**

Peyğəmbərimiz (s) səhabələrinə də mərhəmətli olmalarını xatırlatmış və onlara ən gözəl nümunə olmuşdur:

*«Mərhəmət edin ki, mərhəmət ediləsiniz. Bağışlayın ki, bağışlanasınız. Əfsuslar olsun, söz gəzdirənlərə, günahlarına qəsdən davam edib bağışlanmalarını istəməyənlərə...»*[24]

*«Mərhəmət etməyənə mərhəmət edilməz».*[25]

*«Allah mərhəmətli və şəfqətlidir, mərhəməti sevər və mərhəmətin əvəzində verdiyini başqa heç bir şeylə verməz».*[26]

## Peyğəmbərimizin (s) möminlərin bağışlanmalarını istəməsi və dua etməsi

Peyğəmbərimizin (s) möminlərə olan sevgisinin və istəyinin nəticəsi olaraq onların xətaları üçün Allahdan bağışlanmalarını arzulamışdır.



Allahın Peyğəmbərimizə (s) bu mövzudakı əmrləri isə belədir:

**«Ey Peyğəmbər! Mömin qadınlar Allaha heç bir şərik qoşmayacaqları, oğurluq və zina etməyəcəkləri, övladlarını öldürməyəcəkləri, özgə kişilərdən olan uşaqlarını yalandan ərlərinə isnad etməyəcəkləri və heç bir yaxşı işdə sənin əleyhinə çıxmayacaqları barədə sənə beyət etmək üçün yanına gəldikləri zaman onların beyətini qəbul et və Allahdan onların bağışlanmasını dilə. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!» («Mumtəhinə» surəsi, 12)**

**«Bil ki, Allahdan başqa heç bir tanrı yoxdur. Həm öz günahlarının, həm də mömin kişilərin və qadınların bağışlanmasını dilə. Allah gəzib dolandığınız yeri də, dayanıb-duracağınız yeri də bilir!» («Muhəmməd» surəsi, 19)**

**«...Əgər onlar bəzi işləri üçün səndən izn istəsələr, onlardan özün istədiyinə izn ver və onlar üçün Allahdan bağışlanma dilə. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!» («Nur» surəsi, 62)**

Allah «Tövbə» surəsində isə Peyğəmbərimizə (s) möminlər üçün dua etməsini belə bildirir:

**«...Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır. Allah eşidəndir, biləndir» («Tövbə» surəsi, 103)**

Ayədə bildirildiyi kimi, Peyğəmbərimizin (s) duası möminlər üçün rahatçılığa və sevincə səbəb olur. Bunu yaddan çıxarmamaq lazımdır ki, ürəyə sakitçilik və rahatlıq verən ancaq Allahdır. Allah möminlərin dostu, qoruyucusu kimi vəkil təyin etdiyi peyğəmbərinin duasını möminlərin rahatlığı üçün səbəb edir. Rəbbimizin şəfqəti, mərhəməti, möminləri bağışlaması və qoruması Peyğəmbərimizin (s) əxlaqında artıqlaması ilə özünü büruzə verir.

Peyğəmbərimiz (s) bir sözündə möminlərə dua haqqında vacib bir məqamı belə xatırlatmışdır:

*«Duanın qəbul ediləcəyindən arxayın olaraq Allaha dua edin».*[27]

## Peyğəmbərimizin (s) müsəlmanların mənfəəti üçün aldığı sədəqələr onların təmizlənməsinə səbəb olmuşdur

Allah «Tövbə» surəsinin 103-cü ayəsinin əvvəlində **«Onların mallarından sədəqə al, bununla onları təmizləmiş, pak etmiş olarsan...»**


«Yaxşı işlər görənləri cənnət və daha artıq
mükafatlar gözləyir. Onların üzünə nə bir
toz nə də bir zillət qonar. Onlar
cənnətlikdirlər və orada əbədi qalacaqlar!»
“Yunus” surəsi, 26

şəklində buyurur. Yəni Allah çox sevimli bəndəsi olan Peyğəmbərimizin (s) müsəlmanların mənfəəti üçün aldığı sədəqələri vəsilə edərək möminləri təmizləyib paklandıracağını bildirir. Peyğəmbərimiz (s) Allahın elçisidir və hər sözündə, davranışında Rəbbimizin əmrlərinə və göstərdiyi yola tabe olur. Peyğəmbərimizin (s) gözəl əxlaqının və üstün davranışının mənbəyi onun şərik qoşmadan, başqa yol göstərən və tanrı axtarmadan, həmişə Allaha üz tutmasıdır. Allahın ona buyurduğu hər əmri yerinə yetirdiyi üçün, bütün aləmlərə nümunə, bənzərsiz gözəllikdə bir əxlaq və davranış qazanır.

Bu həqiqət bütün müsəlmanlar üçün rəhbər olmalı və inananlar ancaq Allahın vəhyi olan Qurana tabe olaraq və Peyğəmbərimizin (s) öyrətdiyi gözəl əxlaqı yaşayaraq bütün aləmlərə nümunəvi davranış və əxlaq göstərməlidirlər.

## Peyğəmbərimiz (s) möminlərlə məsləhətləşərdi

Peyğəmbərimiz (s) Allahın əmrinə tabe olaraq möminlərlə məsləhətləşər, onların fikirlərini eşidərdi. Bu haqda əmr edilən ayə belədir:

**«...Artıq sən onları əfv et, onlar üçün bağışlanmaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et!**




«Biz yer üzündə olanları onun üçün bir
zinət yaratdıq ki, onlardan hansının
daha gözəl əməl sahibi olduğunu
yoxlayıb ayırd edək».
“Kəhf” surəsi, 7

**Həqiqətən, Allah təvəkkül edənləri sevər!» («Ali-İmran» surəsi, 159)**

Peyğəmbərimiz (s) möminlərin də fikirlərini eşidəndən sonra qərarını verər və nəticəsi üçün Allaha təvəkkül edərdi. Yaddan çıxarılmamalı olan çox vacib bir həqiqət alınan qərarların hamısının Allahın dərgahında əvvəlcədən məlum olmasıdır. Allah taledə hər qərarı, hər qərarın nəticəsini müəyyənləşdirmişdir. Bir mövzu haqqındakı məsləhət, məşvərət və sonra mövzunu bir hökmə və ya nəticəyə bağlamaq isə möminlər üçün bir ibadətdir. Peyğəmbərimiz (s) bu həqiqəti bilərək möminlərlə məsləhətləşmiş, qərarını vermiş, ancaq qərarın nəticəsi üçün Allaha güvənərək, Allahın ən xeyirli nəticəni yaradacağını bilmişdir.

Məsləhətləşmək möminlər üçün də gözəl və xeyirli nəticələr gətirə biləcək davranışdır. Hər şeydən əvvəl məsləhət alan şəxs təvazökar davranaraq gözəl əxlaq nümayiş etdirir. Məsələn, Peyğəmbərimiz (s) ümmətinin arasında ən ağıllı, ən bəsirətli və ən fərasətli şəxsdir. Buna baxmayaraq ətrafındakılarla məsləhətləşməsi, onların fikirlərini öyrənməsi, onların bir məsələ ilə bağlı təklif etdikləri həll yolları barəsində onlardan soruşması onun nə qədər təvazökar bir insan olduğunu göstərir.

Möminlər də hər məsələdə təvazökarlıq göstərərək «bunu məndən yaxşı heç kim bilməz» deməyərək, başqa adamlarla məsləhətləşəndə bunun xeyir və gözəlliklərini bir çox tərəfdən görəcəklərdir. Beləliklə, Peyğəmbərimizin bir davranışını tətbiq edərək ona oxşayacaqlar, möminlərə göstərdikləri təvazökarlığa və hörmətə görə də Allahın və möminlərin sevgisini qazanacaqlar. Bütün bunlarla yanaşı, ağıllarını



bəyənmək kimi bir bəladan uzaq dayanmış olacaqlar. Bundan başqa, Allah Quranda: **«...Hər billəndən üstün bir bilən vardır!»** («Yusuf» surəsi, 76) şəklində bildirir. Dolayısı ilə insan təkcə öz ağlına arxalanmayaraq, başqalarının ağlından, fikirlərindən və biliklərindən faydalananda, daha çox yaxşı nəticələr əldə edə bilər. Tək ağılın yerinə məsləhətləşdiyi şəxslərin sayı qədər, məsələn, 10 ağla malik olur. Peyğəmbərimiz (s) möminlərə bir-biriləri ilə məsləhətləşmələrini belə xatırlatmışdır:

*«Hər kim bir işə girişmək istəyərək, həmin məsələdə bir müsəlman ilə məsləhətləşərsə, Allah onu ən düz işlərdə müvəffəq edər».*[28]

Allahın Quranda insanlar üçün göstərdiyi hər yol və Peyğəmbərimizin (s) göstərdiyi hər davranış bizim üçün ən xeyirlisi və ən gözəlidir. Məsləhətləşmək bunlardan biridir. Buna görə də Allahın əmrlərini çox yaxşı bilmək və Peyğəmbərimizi çox yaxşı tanımaq, ibadətlərimizi ən gözəl tərzdə yerinə yetirmək və ən gözəl əxlaqa malik olmaq çox vacibdir.

## Allah Peyğəmbərimizə şan və şərəf vermişdir

**«Sənin şan-şöhrətini ucaltmadıqmı?!» («İnşirah» surəsi, 4)**

Yuxarıdakı ayədə də bildirildiyi kimi, Peyğəmbərimiz (s) Allahın icazəsi ilə həm yaşadığı dövrdə, həm də vəfatından sonra bütün insanlar tərəfindən tanınmışdır. Vəfatından 1400 il sonra da bütün dünya tərəfindən tanınır və bilinir. 1400 ildir ki, milyarddan çox insan Peyğəmbərimizə (s) sevgi və hörmətlə bağlanmış, onu görmədiyi halda, ona çox yaxın olmuş, cənnətdə onunla sonsuza kimi birlikdə olmaq üçün dua etmiş və edirlər.





**«Sən nə iş görsən, Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda olmasın!».**

**"Yunus" surəsi, 61**



«...De: "Elə isə bir söyləyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan qeyri ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi?! Yaxud: "Əgər Allah mənə bir mərhəmət əta etmək istəsə, onlar Onun mərhəmətinə mane ola bilərlərmi?!" De: "Mənə təkcə Allah kifayət edər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edərlər!"»

"Zumər" surəsi, 38

Allah Quranda Peyğəmbərimiz (s) haqqında belə buyurur:

> **«Bu (Quran) çox möhtərəm bir elçinin sözüdür!» («Haqqa» surəsi, 40)**

Allah Quranda Hz.Nuh, Hz.İlyas, Hz.Musa və Hz.Harun kimi bir çox peyğəmbərlərin də xeyirli və şərəfli adları olduğunu bildirir. İnsanların əksəriyyəti həyatları boyunca ad-san ardınca qaçarlar. Bunun üçün ehtirasla çalışır, müvəqqəti olan dünya nemətlərinə hərisliklə bağlanırlar. Ya da təkəbbürlənərək azğınlaşırlar. Şan-şöhrət ardınca qaçarkən qürurlarını və şərəflərini də itirirlər.

Halbuki ad-san bir insana ancaq Allah dərgahından verilir. Allah bir insana şərəfin Quran əxlaqının yaşanması ilə gəldiyini bildirir. Bir ayədə belə buyurulur:

> **«Əgər haqq onların nəfslərinin istəklərinə tabe olsaydı, göylər, yer və onlarda olanlar korlanıb gedərdi. Xeyr, Biz onlar üçün şan-şərəf gətirdik, onlar isə özlərinə edilən şərəflərindən üz döndərirlər» («Muminun» surəsi, 71).**

Bir insanın dünya həyatında şərəfli və qürurlu həyat yaşamasının yeganə yolu Allahın vəhyi olan Qurana və Peyğəmbərimizin (s) üstün əxlaqına tabe olmasıdır. Bundan başqa, bir yolun seçilməsi isə insanlara dünyada da, axirətdə də itkidən başqa bir şey gətirməyəcəyi aşkar və qəti bir həqiqətdir.

## Peyğəmbərimizin (s) incə düşüncəli və nəzakətli olması

Peyğəmbərimizin (s) dövründə onun ətrafında olan bəzi adamların mədəniyyət və nəzakət səviyyələri aşağı idi. Belə adamların dərin qavrayışa malik olmadıqları, narahatçılıq yaradacaq davranışları nəzərə almadıqları bəzi ayələrdən məlum olur. Məsələn, evlərin qa-



baq qapılarından deyil, arxa qapılarından girdikləri, Peyğəmbərimizin (s) evinə yemək vaxtında gəldikləri, uzun-uzadı danışaraq Peyğəmbərimizin vaxtını aldıqları ayələrdə bildirilir. Peyğəmbərimiz Hz.Muhəmməd (s) isə çox nəzakətli, dərin düşüncəli, səbirli, həmin insanlara mülayim davranan, səmimi və çox mədəni bir insan idi. Ətrafındakı insanların narahatçılıq törədən davranışlarını həmişə gözəlliklə xəbərdar etmiş, onların ürəklərini ələ almış, böyük səbir və əməklə onları tərbiyələndirmişdir. Bu əxlaqı ilə də bütün möminlərə çox gözəl nümunə olmuşdur.

Sonsuz mərhəmət və şəfqət sahibi olan Rəbbimiz Peyğəmbərimizə (s) bu mövzuda da kömək etmiş, onu ayələri ilə dəstəkləmişdir. Bununla bağlı ayələrdən biri belədir:

**«Ey iman gətirənlər! Peyğəmbərin evlərinə sizə yeməyə icazə verilmədən (yeməyə dəvət olunmadan) girib onun bişməsini gözləməyin. Lakin dəvət olunduqda gedin və (yeməyinizi) yedikdən sonra (orada bir-birinizlə) söhbətə qapılmayıb dağılın. Bu, Peyğəmbərə əziyyət verir, amma o sizdən utanırdı. Lakin Allah doğru sözdən çəkinməz» («Əhzab» surəsi, 53).**

Səhabələrin bir çox rəvayətlərində də Peyğəmbərimizin nəzakətli, dərin düşüncəli davranışlarına misallar verilir. Peyğəmbərimiz həm peyğəmbər, həm də dövlət başçısı olduğuna görə, hər səviyyədən olan insanlarla ünsiyyətdə idi. Dövlət və qəbilə başçılarından imkanlı adamlara, kasıb, zəif, heç kimi olmayan yetimlərdən qadın və uşaqlara kimi hamı ilə görüşürdü. Bir-birindən tamamilə fərqli sosial quruluşlara, yaşayış tərzinə, xasiyyətlərə, vərdişlərə malik olan adamlarla hər sahədə dialoq qurmuş, hamısının könlünü almış, hər birinə qarşı nəzakətli, anlayışlı, səbirli və gözəl davranış göstərmişdir.

Peyğəmbərimizin ətrafındakı yaxın səhabələrinin bildirdiyi hadisələrdən də aydın olduğu kimi, Peyğəmbərimiz «çox nəzakətli, təmiz, incə, mədəni və dərin düşüncəli» idi. Ədəb, tərbiyə və nəzakət qaydalarını ən gözəl və ən ideal formada yerinə yetirirdi.

Peyğəmbərimizin həyat yoldaşlarından biri (r): «Rəsulullahdan daha gözəl əxlaqa malik heç kim yoxdur. Səhabələrindən və ailəsindən hər hansı biri onu çağıranda «Buyurun!» deyə cavab verərdi. Buna görə də Allah ona «Sən ali əxlaq üzərindəsən» buyurmuşdur», - deyərək Peyğəmbərimizdə gördüyü gözəl əxlaqı çatdırmışdır.

Peyğəmbərimizin evində yetişən və illərlə ona xidmət edən Ənəs Peyğəmbərimizin (s) bənzərsiz nəzakətini belə bildirmişdir:

> *«Ondan bir şey soruşana diqqətlə qulaq asar, sualı soruşan adam yanından uzaqlaşmayana kimi onu tərk etməzdi. Bir adam Rəsulullahla əlini uzadıb salamlaşarsa, qarşısındakı adam əlini çəkməmiş Allah Rəsulu əlini çəkməzdi. Bir adamla qarşılaşanda da, qarşısındakı adam dönüb getməyənə kimi Rəsulullah üzünü döndərməzdi. Qarşısında oturan adama heç vaxt ayaqlarını uzatmazdı. Rastlaşdığı adama əvvəlcə özü salam verərdi.*




**Mahmud Cəlaləddin. Cəli sülüs lövhə. Ərəb dilində beyt: “Muhəmməd insandır, amma hər insan kimi deyil. Daşların arasında yaqut nədirsə, o da elədir”.**

*Səhabələri ilə görüşməyə əvvəlcə özü başlayardı».*

«Səhabələrinə gözəl ləqəblər qoyardı. Hz.Əliyə «Əbu Turab» ləqəbini qoymuşdu. Onlara şərəf qazandırmaq üçün xoşlarına gələn adla çağırardı».

«Heç kimin sözünü kəsməzdi. Danışığını yarıda qoymazdı. Danışdığı adam sözünü qurtarmamış, yaxud getmək üzərə ayağa qalxmamış söhbətinə davam edərdi».

«Rəsulullaha on il xidmət etdim. Vallahi, mənə «uf» da demədi. Gec yerinə yetirdiyim və ya etmədiyim bir əmrinə görə məni tənbeh etmədiyi kimi, ailəsindən tənbeh edən olsa, onlara da: «Ona dəyməyin. Bu işi etməsi təqdir edilmiş olsaydı, edərdi», - buyurardı».

«Bir gün bir iş üçün bir yerə getməyimi əmr etdi. Yanından ayrılandan sonra məhəllədəki uşaqların oyun oynadığını gördüm və onlara baxmağa başladım. Birdən arxadan kimsə iki əli ilə başımı tutdu. Dönəndə gördüm ki, Allah Rəsuludur. Gülürdü. Mənə: «Ənəsim, sənə dediyim yerə getdin?», - dedi.

«Xeyr, hələ getməmişəm, indi gedəcəyəm», - dedim».

«Mən ona illərlə xidmət etdim. Allaha and olsun, bir dəfə olsun, etdiyim bir iş üçün «Nə üçün etdin?», etmədiyim bir iş üçün «Niyə etmədin?» dediyini xatırlamıram».[30]

Peyğəmbərimiz (s) həyatı boyunca minlərlə insanı tərbiyələndirmiş, dini, gözəl əxlaqı bilməyən insanların gözəl davranan, dərin düşünən, fədakar, üstün əxlaqlı insanlar olmalarına səbəb olmuşdur. Özündən sonra da sözləri, davranışı və əxlaqı ilə milyonlarla insanın təlim-tərbiyəsinə səbəb olan Peyğəmbərimiz (s) çox xeyirli yol göstərəndir və tərbiyəçidir.







«De: "Ey mülkün sahibi olan Allahım! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən!».

"Ali-İmran" surəsi, 26



«Bəziləri isə: “Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəl nemətlər ver, bizi cəhənnəm əzabından qoru!” - deyirlər. Belə şəxsləri qazandıqlarına görə mükafat gözləyir. Allah tezliklə haqq-hesab çəkəndir!».

“Bəqərə” surəsi, 201-202

## Allah həmişə Peyğəmbərimizi (s) qorumuşdur

Allah Peyğəmbərimizin (s) və bütün möminlərin himayədarı və qoruyucusudur. Allah həmişə Peyğəmbərimizə (s) kömək etmiş, onun üçün çətinlikləri asanlaşdırmış, yolunu açmış, onu maddi-mənəvi cəhətdən gücləndirmiş, saleh möminlərlə dəstək vermiş, düşmənlərinin isə bəsirətlərini bağlayaraq, güclərini almış, məkrli planlarını pozaraq Peyğəmbərimizə (s) zərər verməlerinə mane olmuşdur. Allah «Tövbə» surəsində Peyğəmbərimizə (s) kömək etdiyini belə bildirir:

**«Əgər siz ona (peyğəmbərə) kömək etməsəniz, Allah ona kömək göstərmişdir...» («Tövbə» surəsi, 40)**

Ayədə bildirildiyi kimi, Peyğəmbərimiz (s) heç vaxt başqalarına möhtac olmamış, Allah ona həmişə kömək etmişdir. Buna görə də Peyğəmbərimizin (s) yanında olan heç kimi etdiyi xidmət və ya yardımlarına görə Peyğəmbərimizi minnət altında qoya bilməz. Çünki Peyğəmbərimizə (s) kömək edən Allahdır və kömək edən adam olmasaydı da, Allah başqa bir şəxsi, mələkləri, yaxud cinləri vəsilə edib Peyğəmbərimiz Hz.Muhəmmədə (s) kömək edərdi.

Allah başqa bir ayəsində isə Peyğəmbərimizə (s) insanlardan çəkinməyərək böyük cəsarətlə haqq olaraq bildiyi dini təbliğ etməsini buyurmuş və onu qoruyacağını vəd etmişdir. Ayədə belə buyurulur:

**«Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et. Əgər bunu etməsən, Onun elçiliyini yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Hə-**

**qiqətən, Allah kafir camaatı düz yola yönəltməz!» («Maidə» surəsi, 67)**

Allahın gücünü, hadisələrin astarını dərk edə bilməyən dar fikirli inkarçılar, Peyğəmbərimizə (s) qalib gələcəklərini, onu qorxudacaqlarını və ya təsirsiz qoya biləcəklərini güman etmişlər və buna görə də həmişə məkrli planlar qurmuşdular. Bu adamlar Allahın Peyğəmbərimizi (s) qoruduğunu bilmir və bunu dərk etmirdilər. Özlərini Peyğəmbərimizdən (s) üstün və güclü olduqlarını güman etmişdilər. Ancaq Allah onların bir yerə yığışaraq qurduqları çox təfərrüatlı planlarını, hiylələrini öz əleyhlərinə çevirmişdir. Heç bir planları işə yaramamışdır. Bir yerə yığışaraq hiylələrini planlaşdırarkən, Allahın onları gördüyünü, eşitdiyini, ürəklərindən keçənləri oxuduğunu başa düşməyən, Peyğəmbərimizdən (s) gizlətsələr də, Allahdan gizlədə bilməyəcəklərini qavramayan, Peyğəmbərimizin (s) bütün qüdrətin sahibi olan Allahın sevimli bəndəsi və dostu olduğunu fikirləşməyən bu insanlar üçün Allah Quranda belə bildirir:

**«Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da çıxardıb qovmaq üçün sənə qarşı hiylə qururdular. Allah da (onların bu hiyləsinə qarşı) tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır!» («Ənfal» surəsi, 30)**

Allah başqa bir ayəsində isə Peyğəmbərimizə (s) heç kimin zərər verə bilməyəcəyini, Allahın, Cəbrailin və saleh möminlərin onun dostu, köməkçisi, dəstəkçisi olduğunu belə xəbər verir:

**«Əgər ikiniz də Allaha tövbə etsəniz (çox yaxşı olar). Çünki qəlbləriniz (onun barəsində bir qədər qeyri-səmimiliyə, günaha) meyl etdi. Əgər ona qarşı bir-birinizə kömək etsəniz, bilin ki, onun möv-**

**lası (dostu, hamisi) Allah, yardım göstərənləri isə Cəbrail, əməlisaleh möminlər və bundan sonra da mələklərdir» («Təhrim» surəsi, 4).**

Allah «Duha» surəsində isə Peyğəmbərimizə (s) olan yardımlarını və nemətlərini belə bildirmişdir:

**«Rəbbin səni nə tərk etdi, nə də sənə acığı tutdu. Şübhəsiz ki, axır sənin üçün əvvəldən (axirət dünyadan) daha xeyirlidir! Həqiqətən, Rəbbin sənə bəxş edəcək və sən razı olacaqsan! Məgər O səni yetim ikən tapıb sığınacaq vermədimi?! Səni şaşqın vəziyyətdə tapıb yol göstərmədimi?! Səni yoxsul ikən tapıb dövlətli etmədimi?!» («Duha» surəsi, 3-8)**

Peyğəmbərimiz (s) hər işində, ən çətin vaxtlarında da Allahın ona kömək edəcəyini bilərək təvəkkül etmiş, qorxmamış və nigarançılıq keçirməmişdir. Yanındakı möminlərə də Allahın onlarla birlikdə olduğunu, hər şeyi görüb eşitdiyini söyləmiş, onların da rahat və əmin-amanlıq içində yaşamalarına səbəb olmuşdur.

Peyğəmbərimizi nümunə götürərək onun yolu ilə gedənlər də Allahın mərhəmətindən və köməyindən heç vaxt ümidlərini üzməməli, Allahın razılığına, mərhəmətinə və cənnətinə layiq olacaqlarına ümid edərək xeyirlərdə yarışdıqları vaxt kəsiyində Allahın həmişə onların yanında olduğunu bilməlidirlər. Allah bir ayəsində möminlərə belə vəd edir:

**«...Allah Ona (dininə) yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir!» («Həcc» surəsi, 40)**

## Peyğəmbərimiz (s) təmizliyə əhəmiyyət verirdi

Ürək və əxlaq təmizliyi qədər bədən, geyim, məkan və yeyilən yeməklərin təmizliyi də müsəlmanlardan tələb olunan xüsusiyyətlərdir. Hər bir müsəlmanın saçları, əli, üzü, bədəninin hər yeri həmişə tərtəmiz olmalıdır. Paltarları da həmişə təmiz, səliqəli və düzgün olmalıdır. İşlədiyi və ya yaşadığı yerlər də həmişə səliqə-səhmanlı, təmiz, gözəl ətirli, havalı və fərəh verən olmalıdır. Möminlərin bu xüsusiyyətlərinə ən gözəl nümunə yenə Peyğəmbərimizdir (s). Allah bir surədə Peyğəmbərimizə (s) belə buyurmuşdur:

**«Ey örtünüb bürünən! Qalx qorxut! Öz Rəbbini uca tut! Paltarını təmizlə! Pis şeylərdən uzaqlaş!» («Muddəssir» surəsi, 1-5)**

Allah Quranda möminlərə təmiz olan şeylərdən yemələrini bildirmiş, Peyğəmbərimizə (s) də təmiz olan şeylərin halal olduğunu möminlərə bildirməsini əmr etmişdir:

**«Ey peyğəmbərlər! Təmiz və yaxşı nemətlərdən yeyin...» («Muminun» surəsi, 51)**

**«Səndən hansı şeylərin halal edildiyini soruşurlar. De: “Bütün pak nemətlər sizə halal buyurulmuşdur. Allahın sizə öyrətdiyi ilə təlim edib əhilləşdirdiyiniz yırtıcı heyvanların ovladıqları da sizə halaldır. Onların sizin üçün tutub gətirdiklərindən yeyin və ona görə Allahın adını çəkin. Allahdan qorxun. Şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəndir!» («Maidə» surəsi, 4)**

Peyğəmbərimiz (s) bir hədisində də möminlərə təmiz olmağı belə nəsihət vermişdir:

*«Müsəlmançılıq təmizdir, kirsizdir. Siz də təmiz olun, təmizlənin. Çünki cənnətə təmizlər daxil olar».*[31]

## Peyğəmbərimizin (s) duaları

Quranda Peyğəmbərimizin (s) gecə dua üçün qalxdığı bildirilir:

**«Allahın bəndəsi (Muhəmməd əleyhissəlam) qalxıb Ona ibadət edəndə onlar az qalmışdı ki, bir-birinin üstünə minələr. De: "Mən ancaq öz Rəbbimə ibadət edirəm və heç kəsi Ona şərik qoşmuram!"» («Cin» surəsi, 19-20)**

Quranın bir çox ayəsində Peyğəmbərimizin (s) dualarından bəhs edilir. Peyğəmbərimiz (s) dualarında Allahı sifətləri ilə anaraq Onu ucaltmışdır. Peyğəmbərimizin (s) Quranda bildirilən dualarından biri belədir:

**«De: "Ey mülkün sahibi olan Allahım! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən!» («Ali-İmran» surəsi, 26)**

Peyğəmbərimiz (s) də bütün peyğəmbərlərdə olduğu kimi insan və cin düşmənlərinin təhdidi və təzyiqləri ilə üz-üzə gəlmişdir. Onların bu təzyiqlərinə qarşı səbir və dözümlülük göstərən Peyğəmbərimizə (s) şeytanın mənfi təlqinlərinə və mənəvi hücumlarına qarşı Allahdan belə yardım istəməsi əmr edilmişdir:

**«Və de: "Ey Rəbbim! Mən şeytanların vəsvəsələrindən Sənə sığınıram! Onların yanımda olmalarından Sənə pənah gətirirəm, ey Rəbbim!"» («Muminun» surəsi, 97-98).**

Peyğəmbərimizə (s) dualarında Allahdan bağışlanmasını istəməsi və Rəbbimizin mərhəmətini zikr etməsi belə əmr edilmişdir:

**«De: "Ey Rəbbim! Bağışla və rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!» («Muminun» surəsi, 118)**

Hədislərdə isə Peyğəmbərimizin Allaha ona gözəl əxlaq və yaxşı bir xarakter verməsi üçün dua etdiyi və dualarında Allaha belə yalvardığı bildirilir:

*«Allahım! Yaradılışımı və əxlaqımı gözəlləşdir. Allahım! Məni əxlaqın pisliklərindən uzaqlaşdır».*[32]

**(Yan səhifədə) Hafiz Xəlil Əfəndi. «Fatihə» surəsi, 1-7-ci ayələr: «Mərhəmətli, rəhmli Allahın adı ilə! Həmd aləmlərin Rəbbinə məxsusdur. Mərhəmətli və rəhmlidir. Haqq-hesab gününün sahibidir! Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik! Bizi doğru yola yönəlt! Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və azmışların yox!»**


سورة فاتحة مكية
وهي سبع آية
بسم الله الرحمن الرحيم
الحمد لله رب العالمين الرحمن الرحيم
مالك يوم الدين إياك نعبد
وإياك نستعين اهدنا الصراط
المستقيم صراط الذين
أنعمت عليهم غير المغضوب
عليهم ولا الضالين

Allahın: **«De: "Əgər duanız olmasa, Rəbbimin yanında nə qədir-qiymətiniz olar?"»** («Furqan» surəsi, 77) ayəsi ilə də bildirdiyi kimi, dua möminlər üçün çox vacib bir ibadətdir. İnsan acizliyini ifadə edərək, Allah istəməsə, heç nəyə gücü çatmayacağını bilərək, umaraq və qorxub çəkinərək, hər məsələdə Allaha üz tutmalı, hər şey üçün Ona dua etməlidir. Peyğəmbərimizin və Quranda duaları qeyd edilən başqa peyğəmbərlərimizin duaları möminlər üçün ən gözəl nümunələrdir. Onlar dualarında həm Allaha necə təslim olduqlarını, Allahı yeganə dost və köməkçi olaraq gördüklərini göstərmişlər, həm də Rəbbimizi ən gözəl adları ilə ucaltmışdılar. Peyğəmbərimizin dualarında xüsusi vaxt ayırmadan, həmişə dua etdiyi və ehtiyac içində qalanda və qalmayanda da dərhal Rəbbimizə üz tutduğu müşahidə edilir.



**Devid Roberts, "Muayyad" məscidi**

«Allah yanında din, əlbəttə, islamdır. Kitab verilmiş şəxslər ancaq bildikdən sonra aralarındakı paxıllıq üzündən ixtilafa başladılar. Allahın hökmlərini inkar edən şəxslə, şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəcəkdir».

"Ali-İmran" surəsi, 19



Louis-Claude Mouchot, "Qaid Bəy" məscidi, Qahirə



**«Ey insan! Səni kərim olan Rəbbinə qarşı aldadan nədir? O Rəbbin ki, səni yaratdı, düzəldib qaydaya saldı. Sənə Özü istədiyi surətdə biçim verdi».**

**«İnfitar» surəsi, 6-8**

# Peyğəmbərimizin təbliği

Hz.Muhəmməd (s) Allahın **«Buna görə də sən dəvət et və sənə əmr edildiyi kimi səbatlı ol»** («Şura» surəsi, 15) ayəsi ilə də bildirdiyi kimi, insanları xəbərdar etməklə vəzifələndirdiyi sonuncu peyğəmbəridir. Peyğəmbərimiz (s) bütün başqa peyğəmbərlər kimi, insanları doğru yola, Allaha iman gətirməyə, axirət üçün yaşamağa və gözəl əxlaqa dəvət etmişdir. Bu dəvəti əsnasında istifadə etdiyi üsullar, mövzuları çatdırmaq üslub və tərzi hər müsəlmana nümunə olmalı, hər bir müsəlman insanları dinə dəvət edərkən Peyğəmbərimiz kimi danışmalı və davranmalıdır.

Quranda Peyğəmbərimizə (s) özünün insanları xəbərdar etməklə vəzifəli olduğunu bildirməsi belə əmr edilmişdir:

> **«De: "Bu mənim yolumdur. Mən və mənə tabe olanlar açıq-aşkar bir dəlillə Allaha çağırırıq. Allah pak və müqəddəsdir. Mən isə müşriklərdən deyiləm!"» («Yusuf» surəsi, 108)**

Peyğəmbərimiz (s) insanları xəbərdar etmək üçün əlindən gələni artıqlaması ilə etmiş, mümkün olan çox sayda insanı xəbərdar etmək üçün səy göstərmişdir. Bir ayədə belə bildirilir:

> **«De: "Şahidlik baxımından nə daha böyükdür? Mənimlə sizin aranızda Allah şahiddir. Bu Quran mənə sizi və ona yetişəcək kimsələri xəbərdarlıq edib qorxutmağım üçün vəhy olundu. Məgər siz Allahla yanaşı başqa tanrılar olduğuna şahidlik edirsiniz?" De "O tək bir tanrıdır. Mən sizin Ona şərik qoşduqlarınızdan tamamilə kənaram!"» («Ənam» surəsi, 19)**

Peyğəmbərimiz (s) Quranı təbliğ edərkən müşriklərin dədə-

babalarından onlara miras qalan azğın dinlərini tamamilə dəyişdirmiş, buna görə də onların təzyiqləri və qarşı çıxmaları ilə üzləşmişdir. Ancaq o, Allahın əmrinə tabe olaraq onların təzyiq və məsxərəyə qoymalarına fikir verməmişdir. Allah Peyğəmbərimizə (s) ayələrdə belə buyurur:

**«Sənə əmr olunanı açıq-aşkar təbliğ et və müşriklərdən üz döndər! Şübhəsiz ki, istehza edənlərə qarşı Biz sənə kifayət edərik» («Yusuf» surəsi, 108).**

Günümüzdə də müsəlmanların insanların razılığını nəzərə almadan, «kim nə deyər» deyə fikirləşmədən Quran əxlaqını insanlara çatdırmaları, Peyğəmbərimizin (s) yoluna tabe olaraq «qınayanın qınamasından qorxmamaları» lazımdır. Bu, Allahın razı olacağı və cənnəti ilə müjdələdiyi bir əxlaq və təqva əlamətidir. Peyğəmbərimiz (s) müsəlmanlara onun bu yoluna tabe olmalarını belə bildirmişdir:

*«Mənim təbliğ etdiklərimi məni görənlər (şahid olanlar) görməyənlərə təbliğ etsin, çatdırsın».*[33]

## Peyğəmbərimiz (s) insanlara Allahın sonsuz güc sahibi olduğunu bildirmişdir

Peyğəmbərimiz (s) insanların Allahın gücünü lazım olduğu kimi təqdir edib, Ondan qorxub çəkinərək gözəl əxlaqlı olmaları üçün insanlara Allahın qüdrətinin və yarıdılışdakı ehtişamın dəlillərini çatdırmış, onların Allahı sevərək Ondan qorxub çəkinmələrinə vasitəçi olmuşdur. Quranda Peyğəmbərimizə (s) Rəbbimizin yaradılışının dəlillərini və gücünü bu ayələrlə anlatması bildirilmişdir:

**«De: "Bir deyin görək, əgər Allah gecəni qiyamətə qədər üstünüzə uzatsaydı, Allahdan başqa hansı tanrı sizə bir işıq gətirə bilərdi?! Məgər eşitmirsinizmi?" De: "Bir deyin görək, əgər Allah gündüzü qiyamətə qədər üstünüzə uzatsaydı, Allahdan başqa hansı tanrı istirahət etdiyiniz gecəni sizə gətirə bilərdi?! Məgər görmürsünüzmü?"» («Qəsəs» surəsi, 71-72)**

Hz.Muhəmməd (s) axirətə inanmayanlara da Allahın dünyadakı yaradılış dəlillərindən bəhs etmiş və bütün bunları yaratmağa qadir olan Allahın, əlbəttə, axirətdə bunların oxşarlarını da yaratmağa gücü çatdığını bildirmişdir. Peyğəmbərimiz (s) bu vacib həqiqəti tayfasına belə bildirmişdir:

**«De: "Yer üzünü gəzib məxluqatı nə cür yaratdığına baxın. Sonra**

**da Allah axirət həyatını yaradacaqdır. Allah hər şeyə qadirdir!» («Ənkəbut» surəsi, 20)**

Peyğəmbərimizin (s) Allahın hər cür qüsurdan uzaq olduğunu, heç nəyə ehtiyacı olmadığını insanlara təbliğ etdiyi ayələrdən bəziləri belədir:

**«De: "Mən göyləri və yeri yaradan, hamını bəsləyib Özü bəslənməyən Allahdan başqasını özümə Rəbbmi edərəm?!" De: "Mənə ilk müsəlman olmaq əmr edildi və müşriklərdən olma!" deyə buyuruldu. De: "Əgər mən Rəbbimə asi olsam, böyük günün əzabından qorxaram"» («Ənam» surəsi, 14-15).**

Allahın tayı-bərabəri olmayacağını və Rəbbimizin hər şeyin yeganə



**İsmail Haqqı Altunbəzər. Cəli sülüs lövhə. Qurandan bir ayə: «...Həqiqətən, Allah hər şeyə qadirdir». "Bəqərə" surəsi, 20**

maliki olduğu Quranda belə bildirilmişdir:

**«De: "Göylərin və yerin Rəbbi kimdir?" De: "Allahdır!" De: "Belə olduqda, Onu qoyub özlərinə nə bir xeyir, nə də bir zərər verə bilənlərimi özünüzə dost (hami, tanrı) edirsiniz?!" De: "Heç korla görən və ya zülmətlə nur eyni ola bilərmi?! Yoxsa onlar Allaha Onun yaratdığı kimi yaradan şəriklər qərar verdilər və onların nəzərincə bu yaratma bir-birinə bənzər göründü?!" De: "Allah hər şeyin xaliqidir. O, birdir, qəhr edəndir (hər şeyə gücü yetən, hər şeyə qalib gələndir!)"» («Rəd» surəsi, 16).**

Hz.Muhəmməd (s) Allahın mövcudluğunu bildikləri halda,

Onun ali qüdrətini fikirləşməyən, buna görə də Onun böyüklüyünü dərk edə bilməyən qövmünə Allahın varlığını və aliliyini dəfələrlə xəbər vermişdir. Bunun ardınca onları nəsihət almağa və qorxub çəkinməyə dəvət etmişdir. Ayələrdə belə buyurulur:

> **«De: "Əgər bilirsinizsə, (bir deyin görək) bu yer və yer üzündə olanlar kimindir?" Onlar mütləq: "Allahındır!" - deyə cavab verəcəklər. Sən də de: "Bəs elə isə düşünmürsünüz?" De: "Yeddi göyün Rəbbi, o əzəmətli ərşin Rəbbi kimdir?" Mütləq: "Allahındır!" - deyə cavab verəcəklər. Onda sən də de: "Bəs elə isə qorxmursunuz?" De: "Əgər bilirsinizsə, hər şeyin hökmü əlində olan, himayə edən, amma Özünün himayəyə ehtiyacı olmayan kimdir?" Onlar mütləq: "Allahdır!" - deyə cavab verəcəklər. Sən də de: "Bəs elə isə nə cür döndərilirsiniz?"» («Muminun» surəsi, 84-89)**

## Peyğəmbərimiz (s) insanlara yeganə doğru yolun Allahın yolu olduğunu bildirmişdir

Bəzi adamlar özlərinə inam kimi azğın, səhvlərlə, batil etiqadlarla və zərərli fikir və üsullarla dolu olan yolları seçirlər. Bunların hər biri insanlara dünyada və axirətdə itkidən başqa bir şey gətirməz. Peyğəmbərimiz (s) isə insanları ən şərəfli və gözəl yola, Allahın yoluna çağırmış, insanların dünyada və axirətdə qurtuluşlarına səbəb olmaq üçün səy göstərmişdir:



**«De: "Biz Allahı qoyub bizə nə bir xeyir, nə də bir zərər verə bilməyən bütlərəmi tapınacaq və Allah bizi düzgün yola yönəltdikdən sonra yer üzündə şaşqın dolaşarkən şeytanların azdırdığı adam kimi geriyəmi döndəriləcəyik? Halbuki dostları onu: "Bizə tərəf gəl!" - deyərək haqq yola çağırırdılar! De: "Allahın hidayəti doğru yoldur. Bizə aləmlərin Rəbbinə təslim olmaq əmr edilmişdir» («Ənam» surəsi, 71).**

Peyğəmbərimiz (s) hədislərində də ən doğru yolun Allahın və Elçisinin yolu olduğunu bildirmişdir:

*«Şübhəsiz ki, ən gözəl söz Allahın kitabıdır. Ən gözəl yol da Muhəmmədin yoludur».*[34]

## Peyğəmbərimiz (s) insanları şirkdən çəkindirmişdir

Peyğəmbərimizin (s) insanları çəkindirdiyi ən mühüm mövzulardan biri şirkdir. Quran ayələrində də göründüyü kimi, Hz.Muhəmməd (s) həmişə insanlara Allahın yeganə tanrı olduğunu, Ondan başqa heç bir varlığın heç bir gücə malik olmadığını söyləmiş və müşrikliyə qarşı onları xəbərdar etmişdir. Bir çox ayədə Peyğəmbərimizə (s) insanları şirkə qarşı xəbərdar etməsi xəbər verilmişdir. Bu ayələrdən bəziləri belədir:

**«De: "Bu mənim yolumdur. Mən və mənə tabe olanlar açıq-aşkar bir dəlillə Allaha çağırırıq. Allah pak və müqəddəsdir. Mən isə müşriklərdən deyiləm!"» («Yusuf» surəsi, 108)**



**«De: "Mən ancaq öz Rəbbimə dua edirəm və heç kəsi Ona şərik qoşmuram!" De: "Mən sizə nə bir zərər, nə də bir xeyir vermək qüdrətinə malik deyiləm! De: "Məni Allahdan heç kəs qurtara bilməz və mən də Ondan başqa heç bir sığınacaq tapa bilmərəm!» («Cin» surəsi, 20-22)**

**«De: "Mənə dini məhz Allaha məxsus edərək yalnız Ona ibadət etmək əmr olunmuşdur! Mənə ilk müsəlman olmaq buyurulmuşdur!" De: "Əgər Rəbbimə asi olsam, doğrusu, böyük günün əzabından qorxuram!" De: "Mən Allaha dinimi yalnız Ona məxsus edərək tapınıram! Siz də Ondan başqa istədiyinizə ibadət edin!" De: "Əsl ziyan çəkənlər qiyamət günü özlərini və ailələrini ziyana uğradanlardır. Bax, açıq-aşkar ziyan budur!"» («Zumər» surəsi, 11-15)**

**«Yaxud öncə yaradan sonra onu yenidən diriltdən, sizə göydən, yerdən ruzi verən kimsə?! Məgər Allahla yanaşı başqa tanrımı var?" De: "Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin!"» («Nəml» surəsi, 64)**



Xalqına Allahın yeganə tanrı olduğunu xatırladan Hz.Muhəmməd (s) Allaha şərik qoşduqlarının heç bir şeyi yarada bilməyəcəklərini, heç kimə zərər və ya fayda verməyə gücləri çatmayacağını da müxtəlif şəkillərdə təbliğ etmişdir. Bu mövzudakı ayələrdən bəziləri belədir:

**«De: "(Allahdan) başqa tanrı güman etdiklərinizi çağırın. Onlar sizi nə möhnətdən qorumağa, nə də onu dəyişməyə qadir deyillər!"» («İsra» surəsi, 56)**

**«De: "Mənə bir xəbər verin görüm, sizin Allahdan başqa ibadət etdikləriniz yer üzündə nə yaratmışlar?! Yoxsa onların göylərdə bir şərikliyi var?! Əgər doğru deyirsinizsə, mənə bundan əvvəl bir kitab, yaxud elmdən qalan bir şey gətirin!» («Əhqaf» surəsi, 4)**

**«De: "Allahdan başqa tanrı zənn etdiklərinizi çağırın". Onlar göylərdə və yerdə zərrə qədər bir şeyə sahib deyillər. Nə onların bunlarda (göylərdə və yerdə) bir şərikliyi var, nə də onlardan bir köməkçisi var!» («Səba» surəsi, 22)**

**«De: "Mənə bir göstərin görüm, Allahdan başqa ibadət etdikləriniz yer üzündə nəyi yaradıblar? Yoxsa onların göylərdə bir şərikliyi var? Yaxud onlara bir kitab vermişik və oradakı bir dəlilə istinad edirlər?! Xeyr, o zalımlar bir-birinə ancaq yalan vəd verirlər» («Fatir» surəsi, 40).**

Əksər insanlar Allahın varlığını qəbul edir, ancaq Allahın gücünü və böyüklüyünü təqdir edə bilmir. Allahdan başqa məxluqların özünə fayda gətirə biləcəyini güman edər, yeganə dostun və köməkçinin Allah olduğunu qavraya bilməzlər. Peyğəmbərimiz (s) isə qövmünə bu həqiqətləri anlatmış və onları şirkdən uzaqlaşdırmağa çalışmışdır. Ayələrdə belə buyurulur:

**«Həqiqətən, əgər onlardan: "Göyləri və yeri kim yaratmışdır?!" - deyə soruşsan, mütləq: "Allah!" deyə cavab verəcəklər. De: "Elə isə bir söyləyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan qeyri ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi?! Yaxud: "Əgər Allah mənə bir mərhəmət əta etmək istəsə, onlar Onun mərhəmətinə mane ola bilərlərmi?!" De: "Mənə təkcə Allah kifayət edər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edərlər!"» («Zumər» surəsi, 38).**

**«De: "Əgər Allah sizə bir pislik, yaxud bir yaxşılıq diləsə, Allahın sizin haqqınızda görəcəyi bu işə kim mane ola bilər?! Onlar özləri üçün Allahdan başqa nə bir hami, nə də bir mədədkar tapa bilərlər» («Əhzab» surəsi, 17).**

İnsanın yeganə hamisi və qoruyanı onu yaradan Allahdır. Ancaq Allahdan qorxmayan insanlar bunu qəbul etmək istəməzlər. Ancaq çətin vaxtlarında, əlacsız qalanda, açıq-aşkar gördükləri bəzi hadisələrdə bu adamlar onlara Allahdan başqa heç kimin kömək edə bilməyəcəyini başa düşərlər. Peyğəmbərimiz (s) də insanlara bu həqiqəti xatırlatmışdır. Bir sıxıntıya, zərərə düşən kimi insanın Allahdan başqa, heç bir kömək edənin olmadığını söyləmişdir. Bu mövzu ilə əlaqəli olaraq Quranda Peyğəmbərimizə (s) xalqına bunları xatırlatmağı bildirilmişdir:



**Mustafa Raqım Əfəndi. 1797**
**"Allah bütün nöqsanlardan uzaqdır və Ona şükür edirəm. Ondan başka tanrı yoxtur. Andolsun, O ən böyükdür və Allahdan başqa güc yoxdur."**

**«De: "Mənə deyə bilərsinizmi? Sizə Allahın əzabı gəlsə və ya qiyamət başınızın üstünü alsa, Allahdan başqasına dua edib yalvaracaqsınızmı? Əgər doğru danışanlarsınızsa (deyin görək)!" Xeyr, yalnız Ona dua edib yalvaracaqsınız. O əgər istəsə, yalvardığınız bəlanı aradan qaldırar, siz də Ona şərik qoşduğunuz bütlərinizi unudarsınız» («Ənam» surəsi, 40-41).**

Peyğəmbərimizin (s) də xatırlatdığı bu həqiqəti unutmayan möminlər bir çətinliklə üzləşmədən də onlara yeganə kömək edə bilənin, onlardan sıxıntını və çətinlikləri tək aradan qaldıracaq gücün Allah olduğunu bilirlər. Quranda belə buyurulur:

**«De: "Gizlində dua edib: "Əgər bizi suyun və qurunun zülmətindən qurtarsan, əlbəttə, şükür edənlərdən olarıq", - deyə yalvardığınız zaman sizləri bunlardan xilas edən kimdir?" De: "Sizi ondan xilas edən və hər bir qəmdən qurtaran Allahdır. Sonra siz yenə də (Ona) şərik qoşursunuz"» («Ənam» surəsi, 63-64).**

Peyğəmbərimiz hədislərində də bütün müsəlmanları şirkə qarşı xəbərdar etmişdir:

*«(Ən böyük günah) Allah səni yaratdığı halda, Ona şərik qoşmağındır».*[35]

Peyğəmbərimiz başqa bir sözündə isə Allahın şirkdən başqa bütün günahları bağışlayacağını Allahın belə buyurduğunu bildirmişdir:

*«Bir adam bilsə ki, Mən qüdrət sahibiyəm, günahları bağışlayaram. O şirk etməyənə kimi Mən onu bağışlayaram».*[36]

Peyğəmbərimiz (s) xüsusilə gizli şirkin insanlar üçün çox vacib bir təhlükə olduğunu isə bu sözləri ilə ifadə etmişdir:

*«Mənə görə sizin üçün dəccaldan daha çox qorxduğum şeyi xəbər verimmi? O, gizli şirkdir ki, insanın göstəriş üçün əməl etməsidir».*[37]

*«Şirk ümmətimdə düz daşda qaranlıq gecədə qarışqaların gəzməsindən daha gizlidir. Əlaməti ədalətsizliyə görə məhəbbət və ədalətə görə nifrət etməkdir. Din Allah üçün sevgi və Allah üçün nifrətdən başqa nədir? Uca Allah buyurdu: Əgər siz Allahı sevirsinizsə, mənə tabe olun ki, Allah da sizi sevsin».*[38]



«De: "Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz! Onlar yenidən nə vaxt diriləcəklərini də bilməzlər!».

"Nəml" surəsi, 65

## Peyğəmbərimiz (s) qeybin ancaq Allaha məxsus olduğunu bildirmişdir

«Qeyb» kəlməsi Quranda insanların bilmədikləri, görmədikləri gizli olan şeyləri ifadə etmək üçün istifadə edilmişdir. Məsələn, gələcəkdə baş verəcək hadisələr bizim üçün qeybə aid məlumatlardır. Ancaq gələcəyə dair bütün məlumatlar hər adamın, hər ölkənin, hər binanın, hər əşyanın gələcəyi, hər anı ilə Allah dərgahında bilinir.

Peyğəmbərimizə (s) qeyblə bağlı məlumatın ancaq Allaha aid olduğunu insanlara açıqlaması üçün Quranda belə bildirilmişdir:

**«De: "Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybini bilmək ancaq Ona məxsusdur. O, hər şeyi gözəl görür, yaxşı da eşidir! Onların Allahdan başqa heç bir hamisi yoxdur. O, heç kəsi Öz hökmünə şərik etməz!"» («Kəhf» surəsi, 26)**

**«De: "Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz! Onlar yenidən nə vaxt diriləcəklərini də bilməzlər!» («Nəml» surəsi, 65)**

**«De: "Rəbbim haqqı (batilin yerinə və ya istədiyinin ürəyinə) nazil edər. O, qeybi ən yaxşı biləndir!"» («Səba» surəsi, 48)**

Rəsulullah (s) bəzən qeyblə bağlı bəzi şeylər soruşulanda onlara belə cavab verərdi:

*«Bilmirəm. Mən bir bəndəyəm. Mövlam nəyi bildirirsə, onu bilirəm. Onun bildirmədiyini bilmirəm...»*[39]

## Peyğəmbərimiz (s) Allahın ən gizli danışıqları da bildiyini insanlara xatırlatmışdır

Bəzi adamlar bir pislik fikirləşəndə ya da tərəfdarları olan adamlarla bir mənfilik planlaşdıranda, dedi-qodu, qeybət edəndə, hiylələr düşünəndə bunları insanlardan gizlədiklərini güman edirlər. Halbuki Allah hər insanın bütün fikirləşdiklərini, ürəyindən keçirdiklərini, iki adam arasındakı pıçıldaşmaları, göylərdə və yerdə olan hər şeyi bilir. Allah insanın hər an etdiklərinə şahiddir. Hər bir adam da gizli etdiyini və ya xəlvətcə

danışdığını güman etdiyi hər şeyin hesabatını axirətdə verəcəkdir. Bəlkə həmin adam etdiyi pisliklə dolu olan həmin danışıqları yadından çıxaracaqdır, amma Allah insanların yadlarından çıxardıqları hər şeyi hesab günündə qarşılarına gətirəcəkdir.

Peyğəmbərimiz (s) də bu məsələyə diqqətləri yönəldərək insanları verəcəkləri hesab üçün xəbərdar etmişdir. Bu mövzudakı ayələrdən bəziləri belədir:

> **«De: "Ürəklərinizdəkini gizli də saxlasanız, aşkara da çıxartsanız (fərqi yoxdur), Allah onu bilir. Çünki O, göylərdə və yerdə nə varsa bilir. Allah hər şeyə qadirdir!» («Ali-İmran» surəsi, 29)**

> **«De: "Mənimlə sizin aranızda təkcə Allahın şahid olması kifayət edir. Şübhəsiz ki, O, bəndələrindən xəbərdardır, görəndir!"» («İsra» surəsi, 96)**

> **«Əgər onlar üz döndərsələr, de: "Sizə olduğu kimi bildirdim. Sizə vəd olunan şeyin yaxınmı, uzaqmı olduğunu bilmirəm. Şübhəsiz ki, O, aşkar deyilən sözü də, sizin gizlətdiklərinizi də bilir!» («Ənbiya» surəsi, 109-110)**

> **«De: "Siz dininizi Allahamı öyrədirsiniz?" Halbuki Allah göylərdə və yerdə nə varsa, bilir. Allah hər şeyi biləndir!» («Hucurat» surəsi, 16)**

## Peyğəmbərimiz (s) insanlara Quranın Allahın dərgahından göndərildiyini açıqlamışdır

Peyğəmbərimizin (s) dövründə və sonrakı dövrlərdə də Quranın haqq kitab olduğunu inkar edənlər olmuşdur. Bu adamlar Quranı Peyğəmbərimizin (s) yazdığını iddia edəcək qədər hədlərini aşmışdılar. Halbuki Quranın insan təfəkkürü ilə yazılmadığı çox aydın şəkildə məlum olan bir məsələdir. Allahın sözü olan Quranın içində bir çox möcüzə, insanların əldə edə bilməyəcəyi bənzərsiz bir hikmət vardır. Peyğəmbərimiz (s) də insanlara bu həqiqəti xatırlatmış və Quranı Allahın göndərdiyini bildirmişdir. Bu mövzudakı ayələrdən bəziləri belədir:



**Qurani-Kərimin ilk orijinal nüsxəsi («Qədr» surəsi). Topqapı sarayının nümayiş etdirilməyən arxiv bölümündə mühafizə olunur.**

**«De: "Onu göylərin və yerin sirrini bilən nazil etmişdir. Həqiqətən, O, bağışlayandır, rəhm edəndir!"» («Furqan» surəsi, 6)**

**«De: "Bir söyləyin görək, əgər (bu Quran) Allah dərgahındandırsa və sonra siz də onu inkar edibsinizsə, (sizin kimi haqdan) uzaq bir nifaq içində olan kəsdən daha çox azmış kim ola bilər?!» («Fussilət» surəsi, 52)**

Quranın bir insan tərəfindən yazıldığını iddia edənlər onun malik olduğu möcüzələrdən, Allahın sonsuz hikmət ehtiva edən sözlərindən xəbərsizdirlər. Halbuki Quran bir insanın deyil,

«Kitabın nazil edilməsi yenilməz qüvvət, hikmət sahibi Allah tərəfindəndir!»

"Zumər" surəsi, 1



«...Bu elə bir kitabdır ki, onu sənə insanları onların öz Rəbbinin izni ilə zülmətlərdən nura – yenilməz qüvvət sahibi, tərifə layiq olan Allahın yoluna çıxartmaq üçün nazil etmişik».

«İbrahim» surəsi, 1

bütün insanların və cinlərin də bir yerə yığışaraq yaza bilməyəcəkləri, ərsəyə gətirə bilməyəcəkləri bir kitabdır. Hz.Muhəmmədə (s) bununla bağlı olaraq xalqına bunları bildirməsi əmr edilmişdir:

**«De: "Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər"» («İsra» surəsi, 88).**

**«Yoxsa: "Onu özündən uydurdu!" - deyirlər. De: "Əgər doğru deyirsinizsə, ona bənzər bir surə gətirin və Allahdan başqa, kimə gücünüz çatırsa, onu da çağırın!"» («Yunus» surəsi, 38)**

Peyğəmbərimiz (s) bir hədisində isə Quranın Allahın sözü olduğunu belə bildirmişdir:

*«Quran Allah azzə və cəllənin kəlamıdır. Elə isə Quranın sahibi olan Rəbbinin qadağan etdiklərini etməmək surəti ilə ona təzim (hörmət) etsin».*[40]

## Peyğəmbərimiz (s) Quranın müsəlmanlar üçün bir müjdə və hidayət rəhbəri olduğunu bildirmişdir

Peyğəmbərimiz (s) Quranın insanları hidayətə apardığını söyləmiş və onlara Quranı özlərinə rəhbər tutmalarını tövsiyə etmişdir. Bu mövzudakı ayələrdən bəziləri belədir:

**«De: "Ruhülqüds onu (Quranı) sənin Rəbbindən iman gətirənlərə səbat vermək, müsəlmanları isə doğru yola yönəltmək və müjdə vermək üçün haqq olaraq nazil etmişdir!"» («Nəhl» surəsi, 102)**

**«De: "Əgər mən azsam, bunun zərəri ancaq mənə olar. Yox, əgər doğru yolla getsəm, bu da Rəbbimin mənə vəhy etdiyi (Quran) sayəsindədir. Həqiqətən, O eşidəndir, yaxındır» («Səba» surəsi, 50).**

Peyğəmbərimizin (s) bir hədisində Quranın qurtuluşa aparan bir rəhbər olduğu belə bildirilir:

*«Hər kim Quranı qarşısına keçirərsə, Quran onu cənnətə aparar. Hər kim də onu arxasına qoyarsa, onu da cəhənnəmə aparar».*[41]

## Peyğəmbərimiz (s) hesabat günü heç kimin başqasının günahını yüklənməyəcəyini bildirmişdir

Cahiliyyə cəmiyyətlərində geniş yayılan səhv inamlardan biri bir adamın başqasının günahını öz üzərinə götürə biləcəyini güman etmələridir. Məsələn, biri yoldaşlarının ibadət etməsinə mane olmağa çalışır və onlara «günahı mənim boynuma» deyirlər. Əlbəttə, belə deyən bir adam ibadətə mane olmağın günahını qazanır, ancaq qarşısındakı adam da bu ibadəti yerinə yetirməməyin günahını alacaqdır. Yəni heç kim ondan bu günahı alıb öz üzərinə götürə bilməz. Hesab günündə hamı ancaq öz etdiklərinə cavabdeh olacaqdır. Heç kimə başqalarının günahları soruşulmayacaq, heç kim də başqasının günahını boynuna götürməyəcəkdir.

Allah Hz.Muhəmmədə (s) bu mövzunu belə çatdırmasını bildirmişdir:

> **«De: "Allah hər şeyin Rəbbi olduğu halda, heç mən Ondan başqa Rəbbmi istərəm?" Hər kəsin qazandığı günah ancaq özünə aiddir. Heç bir günahkar başqasının günahını daşımaz. Axır dönüşünüz Rəbbinizədir. O zaman sizə aranızda ixtilaf doğuran məsələlər barəsində xəbər verəcəkdir» («Ənam» surəsi, 164).**

Peyğəmbərimiz (s): «Heç kim başqasının günahını çəkməz»[42], - sözləri ilə xalq arasında yayılan bu səhv inama aydınlıq gətirmişdir.

## Peyğəmbərimiz (s) xalqına özlərindən əvvəlkilərin başlarına gələnlərdən bəhs edərək ibrət almalarını tövsiyə etmişdir

Bəşər tarixi boyunca Allaha, dinə və Allahın elçilərinə qarşı çıxan cəmiyyətlər həmişə bir fəlakətə məruz qalmış, hətta arxalarında heç bir iz qalmayacaq tərzdə tarix səhnəsindən silinib getmişlər. Bu cəmiyyətlərin aqibəti bütün insanlara bir ibrət olmalı, Allahın qəzəblənməsindən qorxub çəkinərək Allaha üz tutmalıdırlar.

> **«De: "Yer üzünü gəzib dolaşın, günahkarların axırının necə olduğuna bir baxın!"» («Nəml» surəsi, 69).**

> **«De: "Yer üzünü dolaşın və sonra görün ki, (peyğəmbərlərə) yalançı deyənlərin aqibəti necə oldu?"» («Ənam» surəsi, 11)**


«Peyğəmbər möminlərə onların
özlərindən daha yaxındır...»
«Əhzab» surəsi, 6

**«De: “Yer üzünü gəzib dolaşın və əvvəlkilərin axırının necə olduğuna baxın. Onların əksəriyyəti müşrik idi» («Rum» surəsi, 42).**

Peyğəmbərimiz (s) yuxarıdakı ayələri rəhbər tutaraq: *«Ey xalqım! Ağır olun! Sizdən əvvəlki ümmətlər bu etdiyiniz əməl ucbatından həlak oldular. Peyğəmbərlərinə qarşı ixtilafları və kitablarının bəzisini bəzisinə qarışdırmaları ucbatından»*[43], - deyərək ətrafındakıları keçmişdəkilərin başlarına gələnlərlə xəbərdar etmişdir.

## İnsanlara ölümü xatırlatmışdır

Axirətin mövcudluğuna inanmayan və ya şübhə ilə yanaşan insanların ən böyük qorxularından biri ölüm qorxusudur. Ölərkən hər şeylərini itirəcəklərini fikirləşdikləri və dünyaya çox ehtirasla bağlandıqları üçün ölümü qətiyyən düşünməzlər. Halbuki hər insan Allahın onun üçün taleyində müəyyənləşdirdiyi bir vaxtda öləcəkdir və bundan əsla heç bir qaçış yolu tapa bilməyəcəkdir. Peyğəmbərimiz (s) də bu adamlara ölümdən qaçışın onlara heç bir xeyiri olmayacağını bildirmiş və onların ölümdən sonrakı həqiqi həyatlarını fikirləşmələrini təmin etməyə çalışmışdır.

**«De: “Əgər ölməkdən, yaxud öldürülməkdən qaçarsınızsa, qaçmaq sizə heç bir fayda verməz. Ancaq az bir müddət dolanıb-keçinərsiniz» («Əhzab» surəsi, 16).**



**«Belə de: "Sizə vəd olunmuş bir gün vardır ki, ondan bircə an belə nə geri qalar, nə də irəli keçə bilərsiniz!"» («Səba» surəsi, 30)**

Peyğəmbərimiz (s) ölümü fikirləşməyi də tövsiyə etmiş və belə buyurmuşdur: *«Ölümü ən çox zikr edən və onlara gəlməzdən əvvəl onun üçün ən yaxşı hazırlıq edənlərdir. Ağıllılar bunlardır».*[44]

## Qiyamət vaxtının ancaq Allaha məxsus olduğunu bildirmişdir

İnsanları ən çox maraqlandıran mövzulardan biri də qiyamətin vaxtının nə vaxt baş verməsidir. Halbuki Allah qiyamətin vaxtının Özündən başqa heç kimin bilməyəcəyini bildirmiş və Hz.Muhəmmədə (s) bu



mövzuda ondan soruşulan suallara belə cavab verməsini əmr etmişdir:

**«İnsanlar səndən qiyamət saatı barədə soruşar. De: "Onu ancaq Allah bilər!" Nə bilirsən, bəlkə də, o saat yaxındır» («Əhzab» surəsi, 63).**

**«De: "Mən sizin qorxudulduğunuz əzabın yaxın olduğunu, yaxud Rəbbimin onun üçün uzun bir müddət təyin etdiyini bilmirəm!» («Cin» surəsi, 25)**

**«Əgər onlar üz döndərsələr, de: "Sizə olduğu kimi bildirdim. Sizə vəd olunan şeyin yaxınmı, uzaqmı olduğunu bilmirəm» («Ənbiya» surəsi, 109).**

## Cəhənnəmdə bəzilərinin sonsuza kimi qalacağını bildirmişdir

Cahiliyyə cəmiyyətlərində geniş yayılan inamlardan birinin də cəhənnəmdə müəyyən bir müddət qalıb oradan çıxacaqlarıdır. Halbuki Allah cəhənnəm əzabının bəzi adamlar üçün sonsuza kimi davam edəcəyini bildirmişdir. Peyğəmbərimiz (s) də Allahın əmrinə tabe olaraq bir müddət cəhənnəmdə qalacaqlarını iddia edənlərə, Allahın istəyindən başqa, insanların bəzilərinin cəhənnəmdə sonsuza kimi qalacaqlarını xəbər vermişdir:

**«Onlar: "Cəhənnəm odu bizə bir neçə gündən artıq əzab verməz" - dedilər. Onlara söylə: "Siz Allahdan belə bir vəd almısınızmı? (Əgər belədirsə) Allah heç vaxt Öz əhdindən dönməz. Yoxsa Allaha qarşı bilmədiyinizi söyləyirsiniz?" Bəli, günah qazanan və qazandığı günahlarla əhatə olunan şəxslər cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar. İman gətirənlər və yaxşı işlər görənlər isə cənnətlikdirlər və orada əbədi olacaqlar» («Bəqərə» surəsi, 80-82).**

Peyğəmbərimiz bir sözündə cənnətdəki və cəhənnəmdəki həyat haqqında bunları bildirmişdir:

*«Cənnətliklər cənnətdə, cəhənnəmliklər də cəhənnəmdə olduqları vaxt ölüm gətirilər. Cənnətlə cəhənnəmin arasına qoyularaq orada kəsilər. Sonra bir səs eşidilər: «Ey cənnət əhli! Artıq əbədiyyət var, ölüm yoxdur. Ey cəhənnəm əhli! Artıq əbədiyyət var, ölüm yoxdur.*



«Elə isə binasını Allah qorxusu və rizası üzərində quran kəs daha yaxşıdı, yoxsa uçulmaqda olan bir yerin kənarında qurub onunla birlikdə cəhənnəm oduna yuvarlanan kəs?! Allah zalım tayfanı doğru yola yönəltməz!»

“Tövbə” surəsi, 109

*Cənnətliklərin sevinci bununla daha da artar. Cəhənnəmliklərin də kədəri çoxalar»».*[45]

## Allahı ən gözəl adları ilə yad etməyimizi söyləmişdir

Əvvəl də qeyd edildiyi kimi, Peyğəmbərimiz (s) təbliğ edərkən, hər hansısa bir şeyi izah edərkən, dua edərkən Allahı zikr edər, Onu ən gözəl adları ilə ucaldardı. Peyğəmbərimizin (s) insanları da bu gözəl davranışa dəvət etməsi belə əmr edilmişdir:

**«De: "İstər Allah, istərsə də Rəhman deyib çağırın. Hansını desəniz (fərqi yoxdur), çünki ən gözəl adlar yalnız Ona məxsusdur". Namaz qılarkən səsini nə çox qaldır, nə də çox alçalt. Bu ikisinin arasında orta bir yol tut! Və de: "Özünə heç bir övlad götürməyən, mülkündə heç bir şəriki olmayan, zəif olmadığı üçün heç bir köməkçiyə ehtiyacı olmayan Allaha həmd olsun!" Və Allahı uca tut!» («İsra» surəsi, 110-111)**

## Peyğəmbərlər arasında ayrı-seçkilik salmamışdır

Peyğəmbərimiz (s) Allahın əmrinə uyğun olaraq Allahın göndərdiyi peyğəmbərlər arasında heç bir ayrı-seçkilik etməməyimizi bildirmiş və sözlərində «Peyğəmbərlərin birini digərindən üstün tutmayın»,[46] - deyə buyurmuşdur.

Peyğəmbərlərimizin hər biri Allahın sevdiyi, dost tutduğu, etibar etdiyi, cənnəti ilə müjdələdiyi mübarək, müqəddəs, təqvalı insanlardır. Bütün peyğəmbərlər Allahın dinini insanlara təbliğ etmişlər, hamını Hz. Muhəmməd (s) kimi, Allahın yoluna çağırmışdılar. Bu, Peyğəmbərimizin bizə bildirdiyi çox vacib davranış və inamdır. Quranda isə bu haqda belə buyurulur:

**«Söylə: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun oğullarına nazil edilənə, Rəbbi tərəfindən Musa, İsa və peyğəmbərlərə verilənlərə inandıq və onların heç birini bir-birindən ayırmırıq. Biz yalnız Ona təslim oluruq!"» («Ali-İmran» surəsi, 84).**



**«Biz onları əmrimizlə doğru yola gətirən imamlar etdik. Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər».**

**"Ənbiya" surəsi, 73**

**«Belə deyin: “Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən peyğəmbərlərə verilən şeylərə inanmışıq. Onların heç birini digərindən ayırmırıq. Biz ancaq Allaha təslim olanlarıq!”» («Bəqərə» surəsi, 136)**

## Peyğəmbərimiz (s) insanları gözəl əxlaqa dəvət etmişdir

Kitab boyunca da bəhs edildiyi kimi, Peyğəmbərimiz (s) bütün aləmlərə nümunə olan əxlaqa malik idi və insanları da gözəl əxlaqlı olmağa dəvət etmiş, onlara Allahın razı qalacağı əxlaqın və davranışların necə olmalı olduğunu izah etmişdir. Quranda Peyğəmbərimizə (s) gözəl əxlaq haqqında insanlara xatırlatması əmr edilən bəzi ayələr belədir:

**«De: “Gəlin Rəbbinizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin; kasıblıq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Açıq və gizlin pis işlərə yaxın düşməyin. Allahın haram buyurduğu cana qıymayın. Bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb anlayasınız! Yetimin malına, xeyirxah məqsəd istisna olmaqla, həddi büluğa çatana qədər yaxın düşməyin. Ölçüdə və çəkidə düz olun. Biz hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyirik. Söz söylədiyiniz zaman qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdi yerinə yetirin. (Allah) bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb öyüd-nəsihət qəbul edəsiniz!» («Ənam» surəsi, 151-152)**

**«De: “Rəbbim yalnız aşkar və gizli alçaq işləri, hər cür günahı, haqsız zülmü, Allahın haqqında heç bir dəlil nazil etmədiyi hər hansı bir şeyi Ona şərik qoşmağınızı və Allaha qarşı bilmədiyiniz şeyləri deməyinizi haram buyurmuşdur» («Əraf» surəsi, 33).**

Peyğəmbərimizin (s) gözəl əxlaqı tövsiyə etdiyi hədislərdən bəziləri isə belədir:

*«Rəbbim mənə doqquz şeyi əmr etdi: Gizli və aşkar halda da, Allahdan qorxmağımı, əsəbi və sakit halda da, ədalətli söz söyləməyimi, kasıb və imkanlı ikən qənaətcil olmağımı, məndən ayrılana da, qohumluq əlaqələrini qorumağımı, məni məhrum edənə də, verməyimi, mənə zülm edəni bağışlamağımı, susqunluğumun təfəkkür olmasını, danışığımın zikr olmasını, doğru və gözəl olanı əmr etməyimi...»*[47]

*«Sənə zülm edəni bağışla. Səndən küsənə sən get, sənə pislik edənə yaxşılıq et. Əleyhinə də olsa, haqqı söylə».*[48]

*«Harada olursan ol, Allahdan çəkin və pisliyin ardınca yaxşılıq et, bu onu yox edər. İnsanlara yaxşı əxlaqla davran».*[49]

*«İnsanlara gözəl əxlaqla davran».*[50]

Peyğəmbərimiz (s) Yəmənə göndərdiyi elçilərinə bunları tövsiyə etmişdir:

*«Sirkə balı dağıtdığı kimi, pis xasiyyət də əməli pozar».*[51]

*«Möminin şərəfi dini, əsilzadəliyi gözəl əxlaqı, mürüvvəti də ağlıdır».*[52]

## Peyğəmbərimiz (s) insanları təkəbbürlənməyə qarşı xəbərdar etmişdir

Peyğəmbərimiz qürurun və təkəbbürlüyün pis əxlaq xüsusiyyəti olduğunu və təkəbbürlü adamların aqibətinin cəhənnəm olacağını bildirmişdir. Onları bu böyük təhlükəyə qarşı da xəbərdar etmişdir. Peyğəmbərimiz (s) hər vəziyyətdə təvazökarlığı, mərhəmətli, sevimli davranışları ilə insanlara ən gözəl nümunə olmuşdur. Peyğəmbərimizin (s) təkəbbürlük haqqındakı xəbərdarlıqlarından bəziləri belədir:

*«Uca Allah gözəldir, gözəlliyi sevər. Təkəbbürlük isə haqqın ləğvi, insanların təhqiridir».*[53]

*«İnsan özünü xalqdan böyük görüb uzaq tuta-tuta zalımlar arasına*

*yazılar və onların başına gələn müsibətə düçar olar».[54]*

Peyğəmbərimiz (s) dədə-babaları ilə öyünən və buna görə təkəbbürlənən insanları da tənbeh etmiş və belə demişdir:

*«İnsanlar ya cəhənnəm kömüründən başqa bir şey olmayan ölmüş əcdadları ilə öyünməkdən əl çəkərlər, ya da Allahın dərgahında burnu ilə pislik yuvarlayan may böcəyindən də aşağı səviyyəyə düşərlər. Uca Allah sizi cahiliyyə təkəbbürlüyündən təmizlədi. Artıq o, təqvalı bir mömin, yaxud bədbəxt günahkardır. İnsanların hamısı Hz.Adəmin övladlarıdır. Adəm isə torpaqdan yaradılmışdır».[55]*

Peyğəmbərimiz (s) həmişə səhabələrinə gözəl geyinmələrini, səliqəli və xoş görünmələrini tövsiyə etmişdir. Ancaq eyni zamanda onlara geyimlərinə və ya gözəlliklərinə görə təkəbbürlənən insanların dünyada və axirətdə alçaldılacaqlarını da xatırlatmış, hər cür şəraitdə təvazökar olmalarını tövsiyə etmişdir. Həmin tövsiyələrindən biri belədir:

*«Bir adam nəfsinin xoşuna gələn əynindəki paltarla, saçları da düzəldilmiş tərzdə gedərkən, yeriyərkən təkəbbürlənmişdi ki, birdən yerə batdı. Qiyamət qopana kimi orada çətinliklə batmağa davam edəcək».[56]*

## Peyğəmbərimizin (s) infaq haqqındakı sözləri

"İnfaq etmək" bir adamın malını və canını Allahın yolunda, Allahın razı olacağı tərzdə xərcləməsidir. Ətrafındakılar infaq haqqında Peyğəmbərimizə (s) bəzi suallar vermiş və Allah Rəsulu da onlara infaqın necə olacağını izah etmiş, onları infaq etmək üçün həvəsləndirmişdir. Quranda Peyğəmbərimizə (s) infaq haqqında deməsi bildirilən ayələr belədir:

**«Səndən (Allah yolunda) nə verəcəkləri haqqında soruşanlara söylə: "Verəcəyiniz şey ata-anaya, qohumlara, yetimlərə, miskinlərə və müsafirə (yolçulara) məxsusdur". Şübhəsiz ki, Allah etdiyiniz xeyirli işi biləndir» («Bəqərə» surəsi, 215).**

**«...Nəyi paylamalı olduqlarını soruşanlara isə de: "Ehtiyacınızdan artıq qalanını". Allah sizə Öz ayələrini bu cür bildirir ki, bəlkə fikirləşəsiniz» («Bəqərə» surəsi, 219).**

**«De: "Həqiqətən, Rəbbim bəndələrindən istədiyinin ruzisini bol edər, (istədiyininkini də) azaldar. (Allah yolunda) nə**



«Biz səni bütün insanlara müjdə verən, qorxudan bir peyğəmbər göndərdik. Lakin insanların əksəriyyəti bilmirlər!».

«Səbə» surəsi, 28

**xərcləsiniz, Allah onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır!"» («Səba» surəsi, 39)**

Peyğəmbərimizin (s) müsəlmanları xəsislikdən çəkindirən, onlara comərdliklə Allah yolunda xərcləmələrini xatırladan sözlərindən bəziləri belədir:

*«Zülmdən çəkinin. Çünki zülm qiyamət günü qaranlıqlar olacaqdır. Xəsislikdən də uzaqlaşın, çünki xəsislik sizdən əvvəlkiləri həlak etmiş, onları bir-birlərinin qanlarını tökməyə, haramlarını halal hesab etməyə sövq etmişdir».*[57]

*«Kasıbları sevin və onlara yaxın olun. Siz onları sevsəniz, Allah da sizi sevər. Siz onlara yaxın olsanız, Allah da sizə yaxın olar. Siz onları geyindirsəniz, Allah da sizi geyindirər. Siz onları yedirsəniz, Allah da sizi yedirər. Siz comərd olun ki, Uca Allah da sizə qarşı comərd olsun».*[58]

## Hz.Muhəmməd (s) cinlərin də peyğəmbəri idi

Allah Quranın 72-ci surəsi olan «Cin» surəsində cinlərin də Hz.Muhəmmədin (s) təbliğini, Qurana qulaq asdıqlarını və bəzilərinin müsəlman olaraq Peyğəmbərimizə (s) tabe olduqlarını bildirir. Bu mövzu ilə bağlı ayələrdən bəziləri belədir:

**«De: "Mənə vəhy olundu ki, bir dəstə cin dedilər: "Biz çox qəribə bir Quran eşitdik. O, haqq yolu göstərir. Biz ona iman gətirdik və biz bir daha heç kəsi Rəbbimizə şərik qoşmayacağıq» («Cin» surəsi, 1-2).**

Allah yenə «Cin» surəsində müsəlman olan cinlərin belə dediklərini bildirir:

**«Doğrusu, biz hidayət yolunu göstərəni (Quranı) dinlədiyimiz zaman ona iman gətirdik. Kim Rəbbinə iman gətirsə, nə (yaxşı əməllərinin mükafatının) əskilməsindən, nə də haqsızlığa məruz qalmaqdan qorxar. Şübhəsiz ki, aramızda müsəlmanlar da var, (haqq yoldan) çıxanlar da. Müsəlman olanlar haqq yolu axtarıb tapanlardır» («Cin» surəsi, 13-14).**

Bu cinlər aralarından bəzilərinin Allaha qarşı yalan danışaraq, batil inamlar uydurduqlarını bildirirlər. Cinlərin daha əvvəl inandıqları bu batil dinin xüsusiyyəti «Cin» surəsində belə bildirilir:

**«Həqiqətən, Rəbbimizin cəlalı çox ucadır. O Özünə nə bir zövcə götürmüşdür, nə də bir uşaq! Doğrusu, bizim səfehimiz**



«Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırır. Allah (lütfü ilə) genişdir!».

"Bəqərə" surəsi, 261

**Allah barəsində tamamilə yalan söyləyirmiş. Biz elə güman edirdik ki, nə insan, nə də cin tayfası Allah barəsində yalan danışmaz» («Cin» surəsi, 3-5).**

Başqa bir ayədə isə Peyğəmbərimizin ibadət üçün qalxanda cinlərin onun ətrafında qələbəlik yaradaraq az qala bir-birinin üstünə çıxdıqları bildirilir:

**«Allahın bəndəsi (Muhəmməd əleyhissəlam) qalxıb Ona ibadət edəndə onlar az qalmışdı ki, bir-birinin üstünə minələr» («Cin» surəsi, 19).**

Ayələrdən də aydın olduğu kimi Hz.Muhəmməd (s) bütün insanlara və bütün cinlərə peyğəmbər olaraq göndərilmişdir. Qurani-Kərim də həm insanlar, həm də cinlər üçün bir yol göstərəndir, rəhbərdir.

## Peyğəmbərimizin (s) inkar edənlərə xəbərdarlıqları

Quranı və Hz.Muhəmmədin (s) peyğəmbərliyini inkar edənlər Peyğəmbərimizə (s) çoxlu çətinliklər törətmişlər, onun təbliğ fəaliyyətinə mane olmağa, hətta onu öldürməyə, həbs etməyə, sürgünə göndərməyə çalışmışdılar. Lakin Peyğəmbərimiz (s) hər dəfə onlara Allahın gücünü, mövcudluğunu, özünün haqq bir elçi və Quranın da haqq kitab olduğunu bildirmiş, onları axirət əzabı ilə xəbərdar edib qorxutmuşdur. Ancaq Peyğəmbərimiz (s) fəthdən sonra da heç kimi zorla dinə gətirməyə çalışmamış, hamıya öz inamında azad olduğunu bildirmişdir.

Bu mövzudakı bəzi Quran ayələri belədir:

**«Əgər səni yalançı hesab etsələr, de: "Mənim əməlim mənə, sizin əməliniz isə sizə aiddir. Mənim etdiyim əməllərin sizə, sizin etdiyiniz əməllərin mənə heç bir dəxli yoxdur!"» («Yunus» surəsi, 41)**

**«De ki, mənə, həqiqətən, belə vəhy olunur: "Sizin tanrınız ancaq bir olan Allahdır. Bundan sonra müsəlman olacaqsınızmı?" Əgər onlar üz döndərsələr, de: "Sizə olduğu kimi bildirdim. Sizə vəd olunan şeyin yaxınmı, uzaqmı olduğunu bilmirəm. Şübhəsiz ki, (Allah) aşkar deyilən sözü də, sizin gizlətdiklərinizi də bilir! Mən bilmirəm, bəlkə də, (cəzanızın) təxirə salınması sizi imtahana çəkmək və bir müddət sizə**

**«Sən öyüd-nəsihət ver. Çünki öyüd-nəsihət möminlərə fayda verir. Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!»**

**«Zariyat» surəsi, 55-56**



«Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin. Bilin ki, Allah insanla onun qəlbi arasına girər və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz!»

"Ənfal" surəsi, 24



«Ey iman gətirənlər! Allahdan qorxun və Onun peyğəmbərinə iman gətirin ki, sizə Öz mərhəmətindən iki pay versin, sizə getməyiniz üçün nur bəxş etsin və sizi bağışlasın...».

“Hədid” surəsi, 28

**gün-güzəran vermək üçündür". Dedi: "Ey Rəbbim! Ədalətlə hökm et. Sizin mənə aid etdiyiniz sifətlərə qarşı kömək diləniləsi kimsə yalnız Rəbbimiz olan Rəhmandır!"» («Ənbiya» surəsi, 108-112)**

**«De: "Ey camaatım, əlinizdən gələni edin. Mən də yerinə yetirirəm. Axirət yurdunun aqibətinin kimə nəsib olacağını biləcəksiniz. Şübhəsiz ki, zalımlar nicat tapmayacaqlar!» («Ənam» surəsi, 135)**

## İnkarçılarla mənasız mübahisələrə girməmişdir

Peyğəmbərimiz Allahın mövcudluğunu, Quranı və onun peyğəmbərliyini inkar edənlərə qarşı çox səbirli və anlayışlı davranmış, heç vaxt təzyiqə və məcburiyyətə müraciət etməmişdir. Hətta onların arasında ədalətli davranacağını və onlarla mənasız mübahisələrə girilməyəcəyini bildirmişdir. Peyğəmbərimizin Allahın əmrinə tabe olaraq söylədiyi bu ayələr Quranda belə bildirilir:

**«Buna görə də sən dəvət et və sənə əmr edildiyi kimi səbatlı ol. Onların nəfslərindən gələn istəklərə uyma və de: "Mən Allahın nazil etdiyi kitaba inandım. Mənə sizin aranızda ədalətlə hökm etmək əmr olunmuşdur. Allah bizim də Rəbbimizdir, sizin də Rəbbiniz. Bizim əməllərimiz bizə, sizin də əməlləriniz sizə aiddir. Bizimlə sizin aranızda heç bir mübahisə yoxdur. Allah hamımızı bir yerə toplayacaqdır. Axır dönüş də yalnız Onadır!"» («Şura» surəsi, 15)**

## İnkar edənləri tövbə etməyə çağırmışdır

Allah sonsuz mərhəmətli, şəfqətli və bağışlayandır. Allah Quranda hər bəndəsinin tövbəsini qəbul edəcəyini, bir insan günahlarından əl çəkərsə, günahlarını bağışlayacağını müjdələyir. Peyğəmbərimiz (s) də inkar edənlərə Allahın bu müjdəsini çatdırmışdır:

**«Kafir olanlara de: "Əgər onlar əl çəksələr, keçmişdəki günahları bağışlanar. Yox, əgər yenə qayıtsalar, əvvəlkilərin başına gələnlər onların da başına gələr» («Ənfal» surəsi, 38).**



«Şübhəsiz ki, onlar Allahdan gələcək bir şeyi səndən dəf edə bilməzlər. Zalımlar bir-birinin dostudurlar, Allah isə müttəqilərin dostudur!»

“Casiyə” surəsi, 19

Peyğəmbərimiz hədislərində də insanlara həmişə tövbə edə biləcəklərini belə xatırlatmışdır:

*«Tövbə qapısı açıqdır. Günəş Qərbdən çıxana kimi qapanmaz».*[59]

## İnkar edənlərə mütləq məğlub olacaqlarını bildirmişdir

Peyğəmbərimizin (s) hər sözündə və hər davranışında Allaha olan etibarını, təslimiyyətini və sədaqətini görmək mümkündür. Peyğəmbərimiz (s) ən çətin vaxtlarında da Allahın mütləq kömək edəcəyindən, möminlərin qalib gələcəyindən və inkar edənlərin məğlubiyyətə məruz qalacaqlarından arxayın olmuşdur. Quranda deməsi əmr edilən bu ayələr də bunun bir nümunəsidir:

**«Kafir olanlara de: "Siz tezliklə məğlub olacaq və cəhənnəmə sürüklənəcəksiniz!" Necə də pis yerdir!» («Ali-İmran» surəsi, 12)**

Peyğəmbərimiz bir hədisində isə belə buyurmuşdur:

*«Sizə vəd edilən mütləq yerinə yetiriləcəkdir. Siz Allahı aciz buraxa bilmərsiniz».*[60]



## İnkar edənlərə axirətin mövcudluğunu xatırladaraq onları xəbərdar etmişdir

İnkar edənlərin ən bariz xüsusiyyətlərindən biri axirətin mövcudluğuna inanmamalarıdır. Peyğəmbərimizin (s) dövründə də inkar edən adamlar axirətdə insanların təkrar dirildiləcəklərinə inanmamışdılar. Peyğəmbərimiz (s) isə onların iddialarına ən hikmətli və mənalı tərzdə cavab vermişdir. Quranda Peyğəmbərimizə bu hikmətli ayələri söyləməsi əmr edilmişdir:

> **«Onlar: "Biz sür-sümük, çürüyüb ovxalanmış torpaq olduğumuz halda, dirildilib yeni məxluqmu olacağıq?" - deyirlər. De: "İstər daş olun, yaxud dəmir! Və ya ürəyinizdə (özünüzü dağlar, göylər kimi) böyük bir məxluq bilin! (Yenə diriləcəksiniz!)". Onlar deyəcəklər: "O halda bizi kim (yenidən dirildib həyata) qaytaracaqdır?" De: "İlk dəfə sizi yoxdan yaradan!" Onlar sənə başlarını bulayıb: "Bu nə vaxt olacaqdır?" - deyə soruşacaqlar. De: "Bəlkə də, bu yaxın zamanda!"» («İsra» surəsi, 49-51)**

> **«Məgər biz öldükdən, torpaq və sür-sümük olduqdan sonra dirildiləcəyikmi?! Eləcə də əvvəlki atalarımız da?!" De: "Bəli, özü də zəlil olaraq (dirildiləcəksiniz)» («Saffat» surəsi, 16-18).**



Peyğəmbərimiz bəlkə bu adamlar inkarlarından dönər və iman gətirərlər deyə, onlara axirətin dünya həyatından daha xeyirli və üstün olduğunu xatırlatmışdır. Onun bu sözlərindən bəziləri belədir:

*«Ey insanlar! Dünya nəğd verilən bir maldır. Yaxşı da, pis də ondan payını alır. Axirət isə sadiq bir vəddir. Orada qadir olan Hökmdar hökm edər. Haqq yerini tapar. Batil isə zay olub gedər. Ey insanlar, axirət övladı olun, dünyanın qulu olmayın. Çünki övlad anaya tabedir. (Yəni dünya uşağı olsanız, dünya kimi məhv olmağa layiq olarsınız.) Allahdan qorxaraq əməl edin. Bilin ki, əməlləriniz sizinlə üzləşəcəkdir. Və siz mütləq yenidən Allaha qovuşacaqsınız. Hər kim zərrə miqdarında xeyir edərsə, onun əvəzini görəcək, hər kim də zərrə miqdarı şər iş görərsə, onun əvəzini görəcəkdir».*[61]

## İnkar edənləri cəhənnəmlə xəbərdar etmişdir

Allahın elçilərinin ən vacib vəzifələrindən biri insanları xəbərdar etmək və onları Allahın əzabı və cəhənnəm ilə qorxutmaqdır. Rəsullar bu-



nunla insanların qorxub çəkinmələrinə, gözəl əxlaqlı yaşamalarına və bəzilərinin axirətdə cənnətə layiq olmalarına səbəb olurlar. Peyğəmbərimiz də insanları cəhənnəm əzabı ilə xəbərdarlıq etmiş, onları inkardan, pisliklərdən və dinsizlikdən qorumağa çalışmışdır. Peyğəmbərimizin (s) cəhənnəmlə xəbərdar edib qorxutması bəzi ayələrdə belə bildirilir:

**«Ayələrimiz onlara açıq-aşkar surətdə oxunduğu zaman kafir olanların çöhrəsində bir ikrah sezərsən. Onlar ayələrimizi oxuyanların üstünə az qala hücum çəksinlər. De: "Sizə bundan daha pisini xəbər verimmi? Cəhənnəm...! Allah onu kafirlərə vəd etmişdir. O nə pis məskəndir!"» («Həcc» surəsi, 72)**

**«(Mənim vəzifəm) Allah dərgahından olanı və Onun göndərdiklərini təbliğ etməkdir. Allaha və Onun Peyğəmbərinə asi olanları cəhənnəm odu gözləyir. Onlar orada həmişəlik qalacaqlar!"» («Cin» surəsi, 23)**

Peyğəmbərimiz cəhənnəmi özündən uzaq görənlərə cəhənnəmdəki əzabı təfərrüatları ilə bildirmiş, Quranda bildirildiyi kimi, inkar edənlərin cəhənnəmdəki vəziyyətlərini, əzabdan xilas olmaq üçün necə yalvaracaqlarını söyləmiş və insanların cəhənnəmdən qorxub çəkinmələrinə səbəb olmaq üçün səy göstərmişdir.



## İnkar edənlərə qarşı qəti və dəqiq ifadələr işlətmiş və onlara tabe olmayacağını bildirmişdir

Peyğəmbərimiz (s), həmin dövrdəki inkarçılar say və güc olaraq daha üstün kimi görünmələrinə baxmayaraq, onların davranışlarına və təhdidlərinə fikir verməmiş, Quranı böyük qətiyyətlə insanlara çatdırmış və doğru yoldan qətiyyən dönməyəcəyini açıq-aşkar və qəti olaraq bildirmişdir. Qətiyyət və səbir möminlərə məxsus çox vacib bir xüsusiyyətdir və hər müsəlman Peyğəmbərimizin qətiyyətini və əzmkarlığını nümunə götürməlidir. Bununla bağlı bəzi ayələr belədir:

**«De: "Sizin Allahdan qeyri tapındığınız bütlərə ibadət etmək mənə qadağan edilmişdir". De: "Mən sizin nəfsinizin istəklərinə əsla uymaram. Belə ola biləcəyi təqdirdə mən azar və doğru yola yönəlmişlərdən olmaram!" De: "Mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəm. Siz isə onu yalan hesab etdiniz. Sizin tələm-tələsik istədiyiniz (əzab) məndə deyildir. Hökm ancaq Allahındır. Haqqı yalnız O bəyan edər. O ayırd edənlərin ən yaxşısıdır!"» («Ənam» surəsi, 56-57)**

**«De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm! Siz də mənim ibadət etdiyimə ibadət etməzsiniz! Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm! Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz! Sizin də öz dininiz var, mənim də öz dinim!» («Kafirun» surəsi, 1-6)**

## Peyğəmbərimizin (s) Kitab əhlinə etdiyi xatırlatmalar

Peyğəmbərimiz (s) Kitab əhlini də ən gözəl tərzdə xəbərdar etmiş, onların təhrif edilmiş, şirk içində bir dinə deyil, Allahın sonuncu vəhyinə inanmalarını təbliğ etmişdir.

Peyğəmbərimizin (s) inkar edənlərə olduğu kimi, Kitab əhlinə də heç bir təzyiq göstərməmiş, onlara ancaq nəsihət vermişdir.

Kitab əhlinin ən bariz xüsusiyyətlərindən biri, xüsusilə yəhudilərin özlərini Allahın yeganə sevimli bəndələri olaraq qəbul etmələri və özlə-


«De: “Ey qövmüm! Siz özünüzə uyğun tərzdə işinizi görün, mən də özümə münasib şəkildə işimi görəcəyəm. Siz mütləq biləcəksiniz».
“Zumər” surəsi, 39

rindən başqa heç kimin cənnətə daxil ola bilməyəcəklərini iddia etmələridir. Onların bu iddiaları Quranın bəzi ayələrində qeyd edilmişdir. Peyğəmbərimizin (s) isə onların bu əsassız, heç bir dəlilə əsaslanmayan iddialarına verdiyi cavab Quranda belə bildirilir:

**«Onlara: "Allahın nazil etdiklərinə inanın!" - deyildikdə, onlar: "Biz özümüzə göndərilənə inanırıq", - deyərək, ondan başqasını inkar edirlər. Halbuki o onların əllərində olanı təsdiq edən bir həqiqətdir. Onlara söylə: "Əgər siz inanan kəslərsinizsə, bəs nə üçün əvvəllər Allahın peyğəmbərlərini öldürürdünüz?» («Bəqərə» surəsi, 91)**

**«Sən onlara de: "Əgər Allah yanında axirət evi başqa insanlara deyil, yalnız sizə məxsusdursa və əgər siz doğru deyirsinizsə, onda ölüm istəyin!" Onlar öz əməllərini bildiklərinə görə ölümü əsla istəməzlər. Allah zalımları tanıyandır!» («Bəqərə» surəsi, 94-95)**

**«Dedilər: "Cənnətə yəhudilərdən və xaçpərəstlərdən başqası girməyəcək!" Bu ancaq onların xülyalarıdır. Onlara söylə: "Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin!"» («Bəqərə» surəsi, 111)**

**«Yəhudilər və xaçpərəstlər dedilər: "Biz Allahın oğulları və sevimliləriyik". De: "Bəs onda Allah nə üçün günahlarınıza görə sizə əzab verir?" Xeyr, siz də Onun yaratdığı bir bəşərsiniz. O, istədiyini bağışlar, istədiyinə əzab verər. Göylərin, yerin və onların arasında olan hər bir şeyin ixtiyarı Allahın əlindədir və axır dönüş də Onun hüzurunadır!» («Maidə» surəsi, 18)**

**«Onlar: "Doğru yolu tapmaq üçün yəhudi, yaxud da xaçpərəst olun!" - deyirlər. Sən de: "Biz batildən haqqa tapınan (haqq yolda olan) İbrahim dinindəyik, çünki o, Allaha şərik qoşanlardan deyildi» («Bəqərə» surəsi, 135).**

Peyğəmbərimiz (s) möminlərə də Kitab əhli ilə danışarkən: *«Biz Allaha, mələklərinə, kitablarına və peyğəmbərlərinə inandıq deyin»,* - buyurmuşdur.[62]

## Peyğəmbərimiz (s) Kitab əhli ilə mübahisə etməmiş və onlara iman gətirmələri üçün təzyiq etməmişdir

Peyğəmbərimiz (s) Kitab əhlini şirk qoşmadan iman gətirməyə və Quran əxlaqını yaşamağa çağırmış, lakin ona itaət etməyənlərə qarşı da çox mülayim və ədalətli davranmışdır. Kitab əhlini ibadətlərində sərbəst buraxmış, hər cür adətlərini yerinə yetirmələrinə icazə vermiş, öz əhlinə də onlara qarşı ədalətlə davranmalarını buyurmuşdur. Bu haqda Peyğəmbərimizin (s) belə dediyi rəvayət edilmişdir:

*«Kim bir zimmiyə əziyyət verərsə, mən ondan şikayətçiyəm. Mən (bu dünyada) kimdən şikayətçi olsam, qiyamət günü də şikayətçi olaram».*[63] *(Zimmi müsəlmanların hakimiyyətinin tabeçiliyində olan müsəlman olmayanlara deyilir).*



Hz.Peyğəmbərin (s) və onun ardınca gedənlərin müxtəlif xristian, yəhudi və başqa dini qruplarla bağladığı müqavilələrin mətnləri bu gün də bir sənəd kimi mühafizə olunur. Məsələn, Peyğəmbərimizin (s) xristian olan İbn Harris b. Kəb və dindaşları üçün hazırlatdığı müqavilə mətnində: «Şərqdə və Qərbdə yaşayan bütün xristianların dinləri, kilsələri, canları, namusları və malları Allahın, Peyğəmbərin və bütün möminlərin himayəsindədir. Nəsranilik (xristianlıq) dinində yaşayanların heç biri İslam dinini qəbul etməyə məcbur edilməyəcək. Xristianlardan biri hər hansı bir cinayətə və ya haqsızlığa məruz qalarsa, müsəlmanlar ona kömək etmək məcburiyyətindədirlər»[64] maddələrini yazdırandan sonra: **«Kitab əhli ilə ən gözəl tərzdə mücadilə edin...»** («Ənkəbut» surəsi, 46) ayəsini oxumuşdur.

Quranda Peyğəmbərimizə (s) Kitab əhlinə qarşı necə davranmalı olduqlarını ümmətinə belə bildirməsi xəbər verilir:

> **«De: "Siz Allah barəsində bizimlə mübahisəmi edirsiniz? Halbuki, O həm bizim, həm də sizin Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin əməlləriniz isə sizə aiddir. Ona sadiq olan bizik!"» («Bəqərə» surəsi, 139)**



## Kitab əhlini də Allaha şirk qoşmadan iman gətirməyə çağırmışdır

Peyğəmbərimiz (s) Kitab əhlini dinə dəvət edərkən onlara Allaha şirk qoşmamalarını söyləmiş və onları müsəlmanlarla müştərək bir məsələyə gəlməyə dəvət etmişdir:

> **«Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin! "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi Rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq!"» («Ali-İmran» surəsi, 64)**

> **«De: "Ey kitab əhli! Dininizdə haqsız yerə ifrata varmayın. Əvvəlcə yolunu azmış, bir çoxlarını da azdırmış və doğru yoldan çıxmış bir tayfanın nəfsinin istəklərinə uymayın!"» («Maidə» surəsi, 77)**

Hz.Muhəmməd (s) səhabələrindən Muazı Yəmənə göndərmiş və yola salarkən ona Kitab əhlini əsasən Allaha ibadət etməyə çağırmasını söyləmişdir:

> *«Sən Kitab-əhli olan bir xalqa gedirsən. Onları dəvət edəcəyin ilk şey Allaha ibadət olsun...»*[65]




«Şübhəsiz ki, bu (Quran) aləmlərin
Rəbbi tərəfindən nazil edilmişdir!»
«Şuəra» surəsi, 192

# Peyğəmbərimizin görünüşü

Kitabın əvvəlki fəsillərində Peyğəmbərimizin Quran ayələrində bildirilən və bütün insanlar üçün nümunə olan gözəl əxlaq xüsusiyyətlərindən bəhs edildi. Onun ədalətli, şəfqətli, mərhəmətli, sülhsevər, mülayim, səbirli, təvəkküllü, cəsur, təvazökar və qətiyyətli xarakteri müxtəlif misallarla tədqiq edildi.

Quran ayələri ilə yanaşı, səhabələrin məlumatları da Peyğəmbərimiz (s) haqqında ətraflı bilgi verir. Peyğəmbərimizin (s) ailəsi və ətrafındakı möminlərlə olan rəftarı, gündəlik həyatından təfərrüatlar, zahiri görünüşü, görənləri heyrətləndirən heybəti (hörmətlə yanaşı, şiddətli həyəcan hissini verən halı, əzəməti), sevdiyi yeməklər, geyimi və gülüşü kimi bir çox təfərrüat İslam alimləri tərəfindən «şəmail» kəlməsi ilə ifadə edilir. «Şəmail» sözü «şimal»dan törəmişdir. Bu kəlmə «xarakter, xasiyyət, hal-hərəkət, davranış» kimi mənaları verir. «Şəmail» sözü əvvəllər geniş mənalar ehtiva etsə də, vaxt ötdükcə xüsusiləşmiş və Peyğəmbərimizin yaşadığı həyat haqqındakı təfərrüatları və şəxsi xüsusiyyətlərini ifadə edən bir termin halına gəlmişdir.

Rəbbimizin aləmlərə üstün etdiyi bu seçilmiş bəndəsinin xarakterinə və görünüşünə dair bildirilən hər bir incəlik, həm də onun üstün əxlaqının da bir əksidir.

Peyğəmbərimizin (s) şəmailindən bəhs edilən bu fəslin hazırlanmasının məqsədi isə onun müxtəlif mənbələrdə qeyd edilən gözəl özəlliklərini tədqiq edib, yaşayışından özümüzə, dövrümüzə tövsiyələr əldə etməkdir.

## Peyğəmbərimizin (s) yaradılışındakı gözəllikləri

Peyğəmbərimizin səhabələri bu müqəddəs insanın zahiri görünüşünün gözəlliyi, görənləri heyrətləndirən heybətindən, nurundan və duruşundan gülüşünə kimi Allahın onda təcəlla etdirdiyi müxtəlif gözəlliklər haqqında bir çox təfərrüatlar çatdırmışlar. Peyğəmbərimizlə eyni dövrdə yaşamayan müsəlmanlara Allahın Rəsulunu müxtəlif cəhətləri ilə tanıtmışdılar. Bəzi səhabələr onu ümumi xüsusiyyətləri ilə bizə tanıdarkən, bəziləri uzun və ətraflı bəhs etmişdilər. Bunlardan bəziləri belədir:

## Peyğəmbərimizin zahiri görkəmi və yaraşığı

Səhabələri Peyğəmbərimizin (s) gözəlliyindən belə bəhs edirdilər:

*«Allah Rəsulu sallallahu aləyhi və səlləm çox yaraşıqlı və cazibədar idi. Mübarək sifəti ayın ondördüncü günündəki bədrlənmiş ay kimi parlaq idi... Burnu çox gözəl idi... Gur saqqallı, irigözlü, düz yanaqlı idi. Ağzı geniş, dişləri inci kimi parlaq idi... Boynu sanki bir gümüş sütun idi... İki çiyni arası geniş, çiyninin sümüklərinin başları qalın idi...»*[66]

Ənəs b. Malik danışır:

*«Rəsulullahın boyu nə çox uzun, nə də çox qısa idi. Dərisinin rəngi də nə duru ağ, nə də tünd qarabuğdayı idi. Saçları isə nə düz, nə də qıvrım idi. Qırx yaşına çatanda Allah onu peyğəmbər olaraq vəzifələndirdi. Peyğəmbər olandan sonra 10 il Məkkədə, 13 il də Mədinədə qaldı və 60 yaşlarında ikən vəfat etdi. Bu fani həyata vida edəndə saçında və saqqalında 20 tel ağ saç yox idi».*[67]

*«Rəsulullah (s) ağ, gözəl və mülayim idi».*[68]

Ənəs b. Malik bildirir:

*«Peyğəmbərimiz uzun da deyildi, qısa da, əksinə ortaboy idi. Xoş görünüşü var idi. Saçı nə qıvrım, nə də düz idi. Mübarək üzünün rəngi isə nurani ağ idi».*[69]

Bəra b. Azib danışır:

*«...Rəsulullahdan daha gözəl adam görmədim. Çiyinlərinə çatan saçları var idi. İki çiyin arası geniş idi. Boyu nə qısa idi, nə də uzun idi».*[70]

Hz.Əlinin nəvələrindən biri olan İbrahim b. Muhəmməd (s) rəvayət edir:

*«Babam Hz.Əli Peyğəmbərimizdən bəhs edərkən Onu belə tanıdardı: «Peyğəmbər nə həddindən artıq uzun, nə də qısa idi. O, yaşadığı*




**İmam Əlinin (ə) Peyğəmbərimizin (s) bədən və əxlaq gözəlliyini, davranış mükəmməlliyini insanların ona duyduğu sevgi və hörməti bildirdiyi hilyəi-şərif**



«Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar (Allaha) boyun əyərək namaz qılır və zəkat verirlər»

"Maidə" surəsi, 55



«O Özündən başqa heç bir tanrı olmayan, gizlini də, aşkarı da bilən Allahdır. O, rəhmlidir, mərhəmətlidir!»

“Həşr” surəsi, 22

*cəmiyyətin ortaboylusu idi. Saçları nə qıvrım, nə də düz idi, həfif dalğalı idi. Mübarək üzünün rəngi qırmızıya çalan tərzdə ağ, gözləri qara, kirpikləri sıx və uzun, çiyninin yuxarısı isə iri idi. O insanların ən comərdi, ən doğru danışanı, ən mülayim xasiyyətlisi və ən yoldaşcanlısı idi. Onu birinci dəfə görənlər onun heybətindən çox həyəcanlanır, gözəl xarakterini bilərək söhbət edənlər isə onu hər şeydən çox sevərdilər. Onun üstünlüklərini və gözəlliklərini tanıtmağa çalışan adam «Mən ondan əvvəl və ondan sonra onun kimi olan başqasını görmədim» deyərək Onu tərifləmək məsələsində acizliyini və sözün kifayət etmədiyini etiraf edərdi. Allahın rəhməti və salamı ona olsun»».*[71]

Hz.Həsən (r) buyurur:

*«Rəsulullah yaradılışdan heybətli və möhtəşəm idi. Mübarək üzü, bədrlənmiş ayın parlaqlığı kimi nur saçırdı. Ortaboyludan uzun, incə, uzundan qısa idi. Saçları qıvrımla düz arasında idi, əgər öz-özünə iki yerə ayrılıblarsa, onları başının iki tərəfinə salar, deyilsə, ayrımazdı. Saçını uzadardısa, qulağının yumşaq yerini ötərdi. Peyğəmbərimizin rəngi parlaq ağ idi, yəni nurani ağ idi. Alnı açıq idi. Qaşları hilal kimi, gur və bir-birinə yaxın idi.*

*Boynu saf mərmərdən meydana gələnlərin boynu kimi gümüş təmizliyində idi. Bədəninin bütün orqanları bir-biri ilə uyğun idi və yaraşıqlı bir formaya malik idi...»*[72]

Səhabələrdən biri bildirir:

*«Həzrəti Peyğəmbər gümüşdən yaradılan kimi nurlu ağ idi, saçları da az-maz dalğalı idi».*[73]

*«Peyğəmbərimiz (s) ağ-çəhrayı qarışıq rəngdə idi. Gözləri qara, kirpikləri sıx və uzun idi».*[74]

*«Peyğəmbərimizin alnı geniş idi, hilal qaşlı idi və qaşları gur idi. İki qaşının arası açıq idi, xalis bir gümüş kimi idi. Gözləri çox gözəl, bəbəkləri qapqara idi. Kirpikləri bir-birinə keçəcək tərzdə gur idi... Güləndə dişləri çaxan şimşək kimi parıldayardı. İki dodağı də bənzərsiz tərzdə gözəl idi... Saqqalı gur idi. Boynu çox gözəl idi, nə uzun idi, nə də qısa. Boynunun günəş və külək görən hissəsi qızıl ərintili gümüş əyinti kimi gümüşün ağlığı və qızılın da qırmızılığını əks etdirən tərzdə parıldayardı... Sinəsi geniş idi, sinəsinin düzlüyü güzgünü, ağlığı da ayı xatırladırdı... Çiyni geniş idi... Qolları və əzələləri iri idi. Ovucları ipəkdən də yumşaq idi».*[75]

**«Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin)! Biz ki səni onların üzərində gözətçi olmağa göndərməmişik».**

**“Nisə” surəsi, 80**


«Onların mallarından sədəqə al. Bununla
onları təmizləmiş, pak etmiş olarsan.
Onlardan ötrü dua et, çünki sənin duan
onlar üçün bir arxayınçılıqdır. Allah
eşidəndir, biləndir»
“Tövbə” surəsi, 103

Peyğəmbərimizin hicrəti əsnasında çadırına baş çəkdiyi Ummu Məbəd adlı comərdliyi, namusu və cəsarəti ilə tanınan bir şəxs Peyğəmbərimizi tanımamışdı. Ancaq Peyğəmbərimizi (s) deyilənlərdən tanıyan ərinə onu belə tərif etmişdir:

> *«Aydın üzlü və gözəl yaradılışlı idi. Zəif və incə də deyildi. Gözlərinin qarası və ağı bir-birində əməllicə ayrılmışdı. Saçı ilə kirpikləri və bığları gümrah idi. Səsi qalın idi. Susanda təmkinli, danışanda da heybətli idi. Uzaqdan baxanda insanların ən gözəli və sevimlisi, yaxından görəndə də şirin və mülayim görünüşü vardı. Çox şirin danışırdı. Orta boylu idi, baxan adam nə qısa, nə də uzun olduğunu hiss edərdi. Üç nəfərin arasında ən gözəl görünəni və nurani olanı idi. Ətrafındakı yoldaşları ona qulaq asardılar, bir şey buyuran kimi də dərhal buyruğunu yerinə yetirərdilər. Danışığı tox və qəti idi».*[76]

Peyğəmbərimizi görənlərin sözlərindən də aydın olduğu kimi, Allahın Rəsulu çox yaraşıqlı, görənlərinin nəfəsini kəsəcək dərəcədə gözəlüzlü və gözəl boy-buxunlu idi. Həmçinin idmançı və çox təsirli bədən quruluşuna malik idi və çox güclü idi.

## Peyğəmbərimizin (s) şəmaili

Osmanlı dövrünün məşhur alimlərindən biri olan Əhməd Cevdət Paşa Peyğəmbərimizin qeyd edilən xüsusiyyətlərini xülasə halına gətirən əsər ərsəyə gətirmişdir. Bu çalışması «Qısası ənbiya» adlı əsərinin IV fəslində «Bəzi əvsafı səniyyəi Muhəmmədiyyə» sərlövhəsi altında yazmışdır:

> «...Mübərək bədəni gözəl idi. Bütün orqanları arasında bir-birinə uyğunluq vardı. Gözəl əndamlı idi. Alnı, sinəsi, çiyinlərinin arası, ovucları geniş, boynu uzun və yaraşıqlı, gümüş kimi saf, çiyinləri, əzələləri, baldırları iri və qalın, biləkləri, barmaqları uzun idi. Əlləri və barmaqları qalındı. Cildi isə ipəkdən yumşaq idi. Başı qaydasında, hilal qaşlı, çəkmə burunlu, oval üzlü idi. Kirpikləri uzun, gözləri qara, gözəl, böyük, iki qaşının arası açıq, lakin qaşları bir-birinə yaxın idi.
>
> O seçilmiş peyğəmbərin rəngi parlaq idi, yəni nə ağ, nə də qarabuğdayı, bəlkə də ikisinin arasında və gül kimi qırmızıya meyilli ağ, nurani, parlaq idi. Mübarək üzündə nur parıldayardı.
>
> Dişləri inci dənələri kimi sağlam və parıltılı idi. Danışarkən

qabaq dişlərindən sanki nur saçılar, gülərkən gözəl ağzı şimşək kimi işıq saçaraq açılardı...

Dünyasını dəyişəndə saçı, saqqalı təzə ağarmağa başlamışdı, başında və saqqalında iyirmiyə yaxın ağ tük var idi. Hissləri çox güclü idi. Çox uzaqdan eşidər və çox adamın görmədiyi məsafədən görərdi. Qısası, mükəmməl və müstəsna surətdə yaradılmış bir bədənə malik idi... Onu qəfildən görən adam sevinər, onunla danışan adam ona ürəkdən aşiq olardı.

Elm sahiblərinə səviyyələrinə uyğun olaraq hörmət edərdi. Qohumlarına da çox yaxşılıq edirdi. Lakin onları onlardan da fəzilətli olanlardan üstün tutmazdı.

Xidmətçiləri ilə də xoş rəftar edərdi. Özü nə yeyərdisə və geyinərdisə, onlara da ondan yedirər və geyindirərdi.

Əliaçıq, comərd, mərhəmətli, bağışlayan, igid və mülayim xasiyyətli idi. Sözündə duran və sadiq idi.

Gözəl əxlaqı və iti dərrakəsi ilə bütün insanlara və hər cür tərifə layiq idi. Yeyib-içərkən, geyinərkən ehtiyacı olduğu qədərlə kifayətlənər və artığını paylayardı».[77]

## Peyğəmbərimizin peyğəmbərlik möhürü

Allah Hz.Muhəmmədi (s) aləmlərin üzərinə seçmiş və onun **«peyğəmbərlərin sonuncusu»** («Əhzab» surəsi, 40) olduğunu bildirmişdir. Ondan sonra heç bir peyğəmbər göndərilməyəcəkdir və Quran insanlara hidayət rəhbəri olaraq göndərilən sonuncu kitabdır. Allah Peyğəmbərimizin bu bənzərsiz xü-

susiyyətini onun mübarək bədənində bir izlə təcəlli etdirmişdir.

İslam mənbələrindən və rəvayətlərdə Peyğəmbərimizin (s) kürək sümüklərinin arasında olan bu əlamət «peyğəmbərlik möhürü» adlandırılır. Peyğəmbərimizin (s) möhürünə oxşar peyğəmbərlik əlamətlərinin başqa peyğəmbərlərdə də olduğu, ancaq Peyğəmbərimizinkinin (s) daha fərqli olduğu «əl-Mustədrək»də Vəhb b. Munəbbih tərəfindən belə bildirilmişdir:

> «...Allah elə bir peyğəmbər göndərməmişdir ki, onun sağ əlində peyğəmbərlik xalı (şamətun nubuvvə) olmasın. Ancaq peyğəmbərimiz Muhəmməd aleyhissalam bunda müstəsna təşkil etmişdir. Çünki Onun peyğəmbərlik xalı (sağ əlində deyil) kürək sümükləri arasındadır. Peyğəmbərimizdən bu haqda soruşulanda: "Kürək sümüklərim arasında olan bu xal məndən əvvəlki peyğəmbərlərin xalı kimidir..."[78], -demişdir».

Cabir b. Səmurə bildirir:

> «Mən Rəsulullahın kürək sümükləri arasında olan peyğəmbərlik möhürünü gördüm. O, göyərçin yumurtası böyüklüyündə qırmızımtıl yumru idi».[79]

İmam Əlinin nəvələrindən olan İbrahim b. Muhəmməd bildirir:

«Babam Hz.Əli Peyğəmbərimizin görünüşündən bəhs edərkən Rəsulullahın görünüşü (hilyəsi) haqqındakı hədisi ətraflı danışar və:

> «Kürək sümükləri arasında peyğəmbərlik möhürü var idi.




**Hz.Əlinin Peyğəmbərimizin (s) gözəl əxlaqını, insanları heyran buraxan yaraşığını, davranışlarındakı qüsursuzluğu anlatdığı hikmətli sözlərə yer verən başqa hilyəi-şərif.**

Və o peyğəmbərlərin axırıncısıdır», - deyərdi».[80]

Əbu Nadirə danışır:

«Səhabələrdən Əbu Səid əl-Xudridən Allah Rəsulunun peyğəmbərlik möhürünün necə olduğunu soruşdum. Kürəyində gül tumurcuğu kimi bir ət parçası olduğunu dedi».[81]

«Kürəyinin arasında peyğəmbərlik möhürü var idi. Bu möhür sağ çiyninə daha yaxın idi».[82]

Muhəmməd b. Musənnə, Muhəmməd b. Hazm Şubə Simaqdan:

«Cabir ibni Səmurənin belə dediyini eşitdim: Allah Rəsulunun (s) kürəyində möhür gördüm, göyərçin yumurtası kimi idi».[83]

## Peyğəmbərimizin saçı

Peyğəmbərimizin saçının uzunluğu ilə əlaqəli müxtəlif fikirlər var. Fikirlər arasında belə bir fərqin olması isə təbiidir, çünki bu məlumatları xəbər verənlər Peyğəmbərimizi müxtəlif vaxtlarda gördükləri üçün saçının uzunluğu da hər dəfəsində fərqli ola bilər.

Ancaq bu təriflərdən aydın olur ki, Peyğəmbərimiz (s) saçını ən qısa qulağı ətrafında, ən çoxu isə çiyinlərinə qədər uzatmışdır.

Ənəs b. Malik bildirir:

*«Həzrəti Peyğəmbərin saçları qulaqlarının orta tərəfinə qədər uzanmışdı».*[84]

Peyğəmbərimizin xanımlarından biri bildirir:

*«Allah Rəsulunun mübarək saçları qulaqları ilə çiyinləri arasında idi. Allahın salamı və duası ona olsun».*[85]

Bəra b. Azib bildirir:

*«Peyğəmbərimiz ortaboy idi. Çiyinləri geniş idi. Saçları isə qulaq yumşaqlarına dəyərdi».*[86]

Əbu Talibin qızı Ummu Hani bildirir:

*«Rəsulullah Məkkəyə gələndə evimizi şərəfləndirmişdi. Bu əsnada mübarək başı dörd hörgülü idi».*[87]





«Bilin ki, aranızda Allahın Peyğəmbəri vardır. Əgər o, bir çox işlərdə sizə uysaydı, siz əziyyət çəkərdiniz. Lakin Allah sizə imanı sevdirdi...»

«Hucurat» surəsi, 7

## Peyğəmbərimizin (s) saç və saqqal təmizliyi

Peyğəmbərimiz təmizliyə çox əhəmiyyət verdiyi üçün saçlarının və saqqalının təmizliyinə də çox əhəmiyyət vermişdir. Bəzi mənbələrdə onun yanında həmişə daraq, güzgü, misvaq (diş təmizləmək üçün), kürdan, qayçı, sürmədan kimi əşyaların olduğu bildirilir.[88]

Peyğəmbərimiz (s) səhabələrinə də eyni tövsiyələri etmiş və «Kim saç buraxıbsa, onun təmiziliyinə fikir versin», [89] buyurmuşdur. Peyğəmbərimizin (s) saçı və saqqalı ilə əlaqəli başqa bildirilənlər də belədir:

Hz.Adda ibn Xaliddən:

*«Mübarək saqqalı çox gözəl idi».*[90]

Möminlərin analarından biri bildirir:

*«Rəsulullah (s).. saçını darayıb yağlayanda...»*[91]

Simak b. Harb rəvayət edir:

«Cabir b. Səmurədən eşitdim. Ona Həzrəti Peyğəmbərin saçlarının ağarması ilə bağlı soruşulmuşdu. O da: Başını yağlayanda saçlarının ağartısı görünməzdi, amma başına yağ sürtməyəndə saçının ağardığı görünürdü»[92], - dedi.

Peyğəmbərimizin (s) zahiri görünüşünə və təmizliyinə əhəmiyyət verməsi möminlərə gözəl nümunə olmuşdur. Bir rəvayətdə Peyğəmbərimizin bu mövzudakı davranışı belə bildirilir:

«Bir gün Peyğəmbər (s) səhabələrinin yanına çıxacağı vaxt



küpdəki suya baxaraq sarığını və saqqalını səhmana saldı və belə dedi: «Allah qardaşlarının qarşısına çıxarkən bəndəsinin qardaşları üçün bəzənməsini sevər»».[93]

## Peyğəmbərimizin (s) geyim tərzi

Səhabələr Peyğəmbərimizin (s) geyimi haqqında da müxtəlif məlumatlar çatdırmışlar. Bununla yanaşı, Peyğəmbərimizin möminlərə necə geyinməli olduqları ilə bağlı tövsiyələri də onun bu mövzuya verdiyi əhəmiyyəti göstərir. Məsələn, Peyğəmbərimiz hədislərdən belə buyurmuşdur:

«Allah gözəldir, gözəlliyi sevər. Gözəl geyinmək təkəbbürlənmək deyil. Təkəbbürlənmək (malik olduğun neməti özündən bilib) haqqı rədd etmək, xalqı aşağı görməkdir».[94]

«Allah gözəldir, gözəli sevər və bəndəsinə verdiyi nemətin əsərini üzərində görməkdən xoşu gələr».[95]



Peyğəmbərimizin (s) nəvəsi Hz.Həsən onun geyimi haqqındakı fikrini belə ifadə etmişdir:

«Peyğəmbərimiz bizə əldə etdiyimizin ən yaxşısını geyinməyimizi və tapa bildiyimiz ən yaxşı ətirləri sürməyimizi əmr edərdi».[96]

Peyğəmbərimizin (s) bu mövzudakı başqa hədisi də belədir:

*«Ey möminlər! Yeyin, için, geyinin və Allah yolunda xərcləyin. Ancaq israfa, təkəbbürlüyə və qürura qaçmayın».*[97]

Peyğəmbərimiz səhabələrindən biri zahiri görünüşünə fikir verməyəndə və

ya səliqəsiz olanda dərhal ona xəbərdarlıq edərdi. Bununla bağlı bir rəvayəti atasından eşidən Əbul Havas belə bildirmişdir:

«Üstümdə adi bir paltar olduğu halda Rəsulullah aləyhissalatu vəssəlamın yanına gəlmişdim. Mənə:

Sənin malın yoxdur?, - deyə soruşdu.

Bəli, var, - deyə cavab verəndə

Hansı maldan? - dedi.

Allah mənə hər cür mal vermişdir, - deyəndə:

«Elə isə Uca Allah sənə bir mal verəndə Allahın verdiyi bu nemətin əsəri və fəziləti üzərində görülməlidir», - buyurdu».[98]

Buna oxşar bir hadisəni isə Cabir belə bildirmişdir:



«Rəsulullah aleyhissalatu vəssalam minik heyvanlarımızı güdən bir adamımızı gördü. Üstündə köhnəlmiş iki hissəli paltar var idi. «Onun bu köhnələrdən başqa geyinməyə heç nəyi yoxdur?», - deyə soruşdu. «Bəli, var», - dedim. Paltar torbasında iki geyimi də var. Mən onları geydirmişdim».

«Elə isə çağır onu, bunları geyinsin», - deyə əmr etdi. (Çağırdım, Peyğəmbərin əmrini çatdırdım) O da onları geyindi. Qayıtmaq üçün dönəndə Rəsulullah aləyhissalatu vəssalam:

«Niyə bu yeniləri geyinmir? Bu daha yaxşı deyil?», - deyə buyurdu.[99]

Peyğəmbərimizin (s) geyim tərzi ilə əlaqəli səhabələrin çat-

dırdığı məlumatlardan bəziləri isə bunlardır:

İbnu Abbas bildirir:

*«Mən Rəsulullah aleyhissalatu vəssəlamın üstündə mümkün olan ən gözəl paltarı gördüm».*[100]

Ummu Sələmə danışır:

*«Peyğəmbərimizin ən çox sevdiyi paltar çeşidi köynək (qamis) idi».*[101]

Səhabələrdən Qurrə bildirir:

*«Mən beyət eləmək üçün Muzəynə qəbiləsindən bir qrup adamla birlikdə Rəsulullahın yanına gəldik. Peyğəmbərimizin köynəyinin yaxası düyməsiz olduğuna görə...»*[102]



Ənəs b. Malik anladır:

«Peyğəmbərimiz geyindiyi paltarların arasında Hibərəi Yəmanini çox sevirdi».[103] (Hibərə Yəməndə pambıqdan toxunulan, qırmızı çubuqlu yaşıl parçadır. Qədimdəkilərin «alaca» adlandırdıqları naxışlı paltarlar üçün istifadə edilən bir ifadədir. Bu da parçanın düz deyil, naxışlı olduğunu və bir neçə rəngdən ibarət olduğunu göstərir).

Əl-Bəra b. Azib danışır:

«Qırmızı naxışlı paltarın Peyğəmbərimiz qədər başqasına yaraşdığını görmədim. Rəsulullahı bu paltarla görəndə mübarək saçları çiyinlərinə dəyəcək qədər sallanmışdı».[104]

Səmurə b. Cundub rəvayət edir:

«Həzrəti Peyğəmbər: «Ağ paltar geyinin. Çünki o, çox təmiz və xoşdur», - buyurmuşdur».[105]

Möminlərin analarından biri bildirir:

«Rəsulullah bir səhər vaxtı üstündə qara yundan toxunan izar (sinədən aşağı örtülən paltarlara deyilir) olduğu halda evdən çölə çıxmışdı».[106]

## Peyğəmbərimizin üst paltarları

Əşas b. Suleyn bildirir:

«Mənə bibim, ona da əmisi danışmışdı. Bibimin əmisi demişdi: "Bir gün Mədinənin küçələrindən biri ilə gedirdim. Bu əsnada arxamdan bir səs eşitdim: «İzarını yuxarı qaldır. Çünki izarın yerdə sürünməməsi onun daha təmiz qalmasını və uzun müddət dözümlü olmasına səbəb olar»", - deyirdi. Dönüb arxaya baxanda bu sözləri Rəsulullahın dediyini gördüm».[107]

Sələmə b. əl-Əqvadan:

«Səhabələrdən biri uzunluğu ayaqlarının yarısına qədər çatan izar geyinər və «Yoldaşımın, yəni Rəsulullahın (s) izarları da eyni ilə belə idi», - deyərdi».[108]



## Peyğəmbərimizin üzüyü və möhürü

Ənəs b. Malik danışır:

«Peyğəmbərimizin möhürü gümüşdən hazırlanmışdı. Qaşı isə Həbəş daşından idi».



**Peyğəmbərimizin (s) möhürü... Hazırda Türkiyənin İstanbul şəhərində, Topqapı sarayında mühafizə olunur**

Rəsulullah əcnəbi dövlət başçılarına məktub yazdırmaq istəyəndə bir möhür üzük hazırlanmasını istədi.

«Peyğəmbərimizin barmağındakı üzüyün parıltısı hələ gözümün qarşısında durur».

«Peyğəmbərimizin möhürləri qaşına üç sətirdə «Muhəmməd Rəsulullah» sözü yazılmışdı. Birinci sətirdə «Muhəmməd», ikinci sətirdə «Rəsul», üçüncü sətirdə də «Allah» sözləri yazılmışdı».[109]

## Peyğəmbərimizin yeriyişi

Səhabələrdən biri danışır:

«Mən Rəsulullahdan daha gözəl birini görmədim, sanki gümüş onun üzündə dövr edirdi. Peyğəmbərimizdən daha sürətli yeriyənini də görmədim. Addımlayarkən sanki yer üzü ayaqları altında burulurdu. Biz ardınca gedərkən, arxada qalmamaq üçün böyük səy göstərirdik».[110]

Hz.Əlinin nəvələrindən İbrahim b. Muhəmməd: «Babam Hz.Əli Rəsulullahı tanıdarkən belə deyirdi: "Rəsulullah yeriyərkən, yoxuşdan aşağı düşən adam kimi ayaqlarını sərt qaldırardı"[111], - deyərək Peyğəmbərimizin (s) rahat yeriyişi olduğunu bildirmişdir».

İbn Mirsad isə belə demişdir:

«Yeriyəndə ağır. Lakin sürətli gedərdi. Yanındakılar ona çata bilmirdi».[112]

Əbu Atabədən:

«Güclü addımlarla yeriyərdi».[113]

«...Yeriyərkən ayaqlarını yerdən bir az qaldırıb qabaqlarına həfif əyilərək yeriyərdi. Ayaqlarının səs çıxarıb toz qaldıracaq tərzdə yerə möhkəm vurmazdı. Addımlarını uzun və sürətli atmaqla yanaşı, rahat və ağır yeriyərdi. Yeriyərkən sanki meyilli və əngəlli bir yerdən düşən görünüşü verərdi. Bir tərəfə dönüb baxanda bütün bədəni ilə birlikdə dönərdi. Elə-belə sağa-sola baxmazdı. Yerə baxışı, göyə baxışından daha çox idi. Əksəriyyət etibarı ilə gözünün ucu ilə baxardı. Səhabələri ilə birlikdə gedərkən onları qabağa keçirir özü arxaları ilə gedərdi. Yolda rastlaşdığı adamlara onlardan əvvəl tez salam verərdi».[114]

«Həmişə hərəkəti orta idi. Bir yerə yola çıxanda tez, sağa və sola meyil etməyib, ağır-ağır, lakin sürətli və rahat gedərdi.

**1871-ci il, «Lilium Auratum» adlı əsər**



Belə ki, sanki yeriyir kimi görünür, lakin yanında gedənlər sürətli getdikləri halda arxada qalırdılar».[115]

## Peyğəmbərimizin oturuşu

Qaylə binti Mahrəmə anladır:

«Rəsulullahı (s) çox təvazökar oturarkən gördüm, heybətindən bədənim titrəməyə başladı».[116]

Cabir b. Səmurə:

«Mən Peyğəmbərimizi sol tərəfinə qoyulmuş bir yastığa söykənmiş vəziyyətdə gördüm».[117]

## Peyğəmbərimizin danışığı

Peyğəmbərimiz təsiredici üslubu, hikmətli və qəti çıxışı ilə tanınan bir şəxs idi. Onun təbliği insanlarda böyük təsir oyandırır,

**Geromenin «Fayoum şəhəri» adlı əsəri**



**«İslama dəvət olunduğu halda, Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?! Allah zalım qövmü doğru yola yönəltməz!».**

**«Səff» surəsi, 7**



hamı söhbətindən zövq alırdı. Səhabələrdən bizə çatdırılan müxtəlif rəvayətlər də onun bu xüsusiyyətini göstərir. Bu mövzuda bəzi məlumatlar belədir:

> «Allah Rəsulu insanların ən bəlağətli, ən düzgün danışanı və ən şirin sözlü olanı idi (sanki ağzından bal axırdı). O belə deyirdi: «Mən ərəbin ən fasihiyəm (səhvsiz, aydın və gözəl danışanı)».[118]

Peyğəmbərimizin xanımlarından biri Rəsulullahın (s) sözlərini belə tərif edir:

> «O sizin danışdığınız kimi sözü tez-tez və dalbadal sıralamazdı, sözləri az və mənalı idi. Halbuki siz cümlələri bir-birinə əlavə edib dayanırsınız».[119]

> «Allah Rəsulu çox vəciz (az sözlə çox məna ifadə edən) danışırdı. Belə danışmağı ona Allahın dərgahından Cəbrail gətirmişdi. Qısa cümlələrdə bütün məqsədini bildirirdi. Vəciz sözlü cümlələr deyərdi, sözlərində nə artıqlıq, nə də əksiklik olardı. Kəlmələri bir

**Devid Robertsin «Nubya və Misir» adlı əsəri (solda) və «Sultan Həsən Mədrəsəsi» adlı əsəri (aşağıda).**



ahəng içində bir-birini izləyər, sözləri arasında dayanar və beləliklə, qulaq asanlar sözlərini öyrənib əzbərləyərdilər. Səsi gur və şirin idi. Lazım gələndə danışardı, pis sözlər deməzdi. Əsəbi və sakit vaxtlarında (özü üçün deyil, Allahın razılığı üçün) həmişə haqqı deyərdi».[120]

«Yaxşı olmayan söz danışanlardan üz döndərərdi. Xoşuna gəlməyən, çirkin saydığı bir sözü danışmaq məcburiyyətində qalanda, onu kinayə yolu ilə ifadə edərdi».[121]

«Özü susanda yanındakılar danışardı. Onun yanında mübahisə edilməzdi».[122]



«Səhabələrin üzlərinə qarşı çox gülərüz və gülümsər idi, onların danışıqlarını bəyənər, diqqətlə dinləyər, özünü onlardan biri hesab edərdi».[123]

Xanımlarından biri Peyğəmbərimizin (s) danışığı haqqında belə deyir:

«Danışığı seçilmiş sözlərdən ibarət idi. Hər eşidən onu başa düşərdi».[124]

Əbu Umamədən:

«İnsanların ən gülərüzlüsü və xoşcanlısı idi».[125]

Ənəs bunu bildirmişdir:

«Peyğəmbərimiz (s) xalqın ən çox iltifat edəni idi».[126]



## Peyğəmbərimizin gözəl ətiri

Peyğəmbərimiz təmizliyə çox əhəmiyyət verirdi. Özündən həmişə tərtəmiz, xoş və gözəl iy gələr, müsəlmanlara da təmizliyi tövsiyə edərdi. Səhabələrdən rəvayət edilən məlumatlarda Peyğəmbərimizin (s) bu gözəl xüsusiyyəti haqqında ətraflı məlumatlar verilir. Bunlardan bəziləri belədir.

Ənəs b. Malik danışır:

«Rəsulullah Mədinə küçələrinin birindən keçəndə Onun ətrindən xalq həmin yoldan Peyğəmbərin keçdiyini deyərdi. Biz Peyğəmbərimizin (s) gəlişini ətirinin gözəlliyindən bilərdik».[127]

İbni Əbi Adi, Humeyd, Ənəsdən bildirir:

«Rəsulullahın əlindən daha yumşaq nə bir yun parçası, nə də bir ipəyə (ömrümdə) toxunmadım. Rəsulullahın (s) ətirindən daha gözəl bir iy də iyləmədim».[128]



Muaz b. Hişam atasından, Qatadə, Ənəsdən belə rəvayət etmişdir:

«Rəsulullah (s) gözəl ətiri ilə tanınırdı. Rəsulullah (s) gözəl idi. Ətiri də xoş idi. Bununla yanaşı, ətiri sevərdi».[129]

«Bədəni təmiz, ətiri xoş idi. Ətir sürtüb-sürtməməsindən asılı olmayaraq, dərisinin rəngi ən gözəl ətirlərdən də gözəl qoxurdu. Hər kim onunla əllə görüşsə, bütün günü onun təmiz ətirini hiss edərdi, əli ilə bir uşağın başını sığallasa, təmiz ətiri ilə həmin uşaq başqalarının arasında seçilərdi».[130]

## Peyğəmbərimizin sevdiyi yeməklər

«Çox isti yeməyi sevməzdi».[131]

«Ən çox xoşladığı yemək ət idi».[132]

«Balqabağı çox sevərdi».[133]

«Ovlanan quş ətlərini yeyərdi».[134]

«Xurmalardan Acvə xurmasını sevərdi».[135]



«Ey Peyğəmbər! Həqiqətən, Biz səni bir şahid, bir müjdəçi və bir qorxudan kimi göndərdik! Allahın izni ilə Ona tərəf çağıran və nurlu bir çıraq olaraq göndərdik!»

"Əhzab" surəsi, 45-46



Mədinə, «Peyğəmbər» məscidi

«Biz onları əmrimizlə doğru yola gətirən imamlar etdik. Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər».

"Ənbiya" surəsi, 73




«...Onlar üçün altından çaylar axan
cənnətlər vardır. Meyvələrindən bir
ruzi yedikləri zaman: “Bu bizim
əvvəlcə yediyimiz ruzidir”, -
deyəcəklər. Əslində isə bu onlara -
bənzər olaraq verilmişdir...»
“Bəqərə” surəsi, 25



Allah Rəsulunun xanımlarından biri onun sevdiyi yeməklər haqqında bunları bildirmişdir:

«Şirniyyatı və balı sevərdi».[136]

«Həzrəti Peyğəmbərin yediyi ərzaqların bir hissəsi belə sadalanır: Qoyunun qabaq budu, kürək əti, qabırğa əti, kabab, toyuq, toy quşu, ət şorabası, tirit, boranı, zeytun yağı, kəsmik, yemiş, halva, bal, xurma, ənbər balığı...»[137]

Rəsulullahın (s) həyat yoldaşı bunlara aşağıdakıları da əlavə etmişdir:

«Qovun, qarpızı yaş xurma ilə yeyərdi».[138]

Səhabələrdən Cabir xəbər verir:

«Təzə xurma və yemiş çox yeyərdi və «bunlar gözəl nemətlərdir», - deyərdi».[139]

«Heç vaxt hansısa yemək haqqında mənfi danışmamışdı. Xoşuna gəlsə, yeyər, xoşuna gəlməsə, yeməzdi. Xoşu gəlməyəndə də, başqasına pisləməzdi».[140]

Peyğəmbərimizin sevdiyi bəzi yeməklər haqqında söylədiyi sözlərdən bir hissəsi isə belədir:

«Ətin ən gözəl yeri bel ətidir».[141]

«Sirkə nə gözəl qidadır».[142]

«Göbələk qüdrət halvasıdır».[143]



«Sinaməki və sənnut (kərə yağı tulumuna qoyulan bal) yeməyə davam edin. Çünki bu iki şeydə ölümdən başqa hər xəstəlikdən, şübhəsiz ki, şəfa vardır».[144]

«Zeytun yağından yeyin və istifadə edin. Çünki bu yağ bərəkətlidir».[145]

## Peyğəmbərimizin sevdiyi içkiləri

Rəsulullahın (s) xanımlarından biri bildirir:

«Şərbətlərin arasında şirin və soyuq olanını sevərdi».[146]

«Peyğəmbərimiz bal şərbəti, xurma və quru üzüm şirəsi kimi içkiləri xoşlayardı».[147]





Pieter Gysels Antwerp,
(1621-1690)
«Bağ» adlı tablo.



**İbrahim Safi. Natürmort tablo.**

«Peyğəmbərimizin ən çox xoşladığı içki soyuq və şirin şərbətlərdi».[148]

«Şərbətlərin arasında ən çox bal şərbətini sevərdi».[149]

«İçkilərin arasında ən çox südü sevərdi».[150]

Peyğəmbərimiz (s) süd haqqında belə buyurmuşdur:

«Allah bir adama yemək yedirəndə həmin adam «Allahım, bizə bu yeməyi bərəkətli elə və bizə bundan xeyirli ruzi ver», - deyə dua etsin. Allah bir adama bir miqdar süd içirəndə həmin adam: "Allahım, bizə bu südü bərəkətli elə və bizə daha çox süd ver", - deyə dua etsin. Çünki yeməyin və içkinin yerini tutan süddən başqa bir şey bilmirəm».[151]

## Peyğəmbərimizin (s) su haqqında dedikləri

Peyğəmbərimiz (s) xüsusilə səyahət əsnasında səhabələrinə su payladardı. Məsələn, səfər əsnasında bir yerdə dayanmış və yanın-

dakılardan su istəmişdir. Əlini və üzünü yuyandan sonra sudan içmiş və yanındakı səhabələrinə də «Siz də bir miqdarını üzünüzə, boynunuza vurun»,[152] - demişdir.

Rəsulullah (s) su içəndən sonra belə dua etmişdir:

> «Mərhəməti ilə suyu şirin olaraq yaradan, acı və duzlu yaratmayan Allaha şükür olsun».[153]

Rəsulullah (s) başqa bir sözündə isə su haqqında belə buyurmuşdur:

> «Allah suyu təmizləyici olaraq yaratdı. Dadını, rəngini və ya ətrini dəyişdirən maddələrdən başqa heç nə onu murdarlamaz».[154]

## Peyğəmbərimizin (s) gözəl xasiyyətlərindən bəziləri

Huccətulislamlardan biri böyük müsəlman alimlərin məlumatlarını bir yerə yığaraq Peyğəmbərimizin gözəl xasiyyətlərindən bəzilərini belə xülasə etmişdir:

> «Rəsulullah insanların ən mülayimi, ən cəsuru, ən ədalətlisi və ən namuslusu idi. O, insanların ən comərdi idi. Allahın ona bəxş etdiklərindən xurma, arpa, nə olsa, ancaq illik yeyəcəyini ayırar, geri qalanını Allah yolunda xərcləyərdi. Onda olan bir şey istənəndə, verərdi.



O, həya olaraq da, insanların ən mükəmməli idi. Rəbbi üçün əsəbiləşər, özü üçün hirslənməzdi.

Özü və ya səhabələrinin ziyanına da olsa, haqqı icra edərdi.

Allah Rəsulu insanların ən təvazökarı, sözü uzatmadan ən bəlağətli danışanı, ən gülərüzlüsü idi. Dünya işlərindən heç nə onu nigarançılığa salmazdı.

Mədinənin uzaq yerindəki xəstələrə də baş çəkər, gözəl ətirdən xoşlanar, pis iylərdən diksinərdi. Kasıblarla oturar, yoxsullarla birlikdə yeyərdi. Heç kimlə qaba davranmazdı, ondan üzr istəyənin üzrünü qəbul edərdi. Zarafat edəndə də, həmişə haqqı söyləyərdi. Mübah olan oyunları görəndə qadağan etməzdi, xanımları ilə yarışardı. İmkansız insanları yoxsul olduqlarına görə aşağı görməz,

imkanlı olana da var-dövlətinə görə hörmət etməzdi. Onu da, bunu da bərabər bilərək Allaha dəvət edərdi». Uca Allah üstün xasiyyəti və mükəmməl siyasəti onda birləşdirmişdi...

Uca Allah əxlaqı bütün gözəlliklərini, yaxşı yolları, əvvəlkilərin və sonrakıların başlarına gəlmiş hadisələrin xəbərlərini, axirətdə qurtuluşa və səadətə aparan məsələləri, dünyada qibtə edilərək arxası ilə gediləcək və gedilməyəcək hər şeyi ona öyrətmişdi.

Uca Allah onun buyruqlarına itaət və hərəkətlərində onun ardınca getməyi bizə müvəffəq etsin».[155]

**«Allahdan qorxub pis əməllərdən çəkinənlərə vəd edilən cənnətin vəsfi belədir: altından çaylar axar, yeməkləri də, kölgələri də daimidir...»**

**"Rəd" surəsi, 35**



«Həmçinin sizə ayələrimizi oxumaq, sizi təmizləmək, Kitabı, hikməti və bilmədiklərinizi öyrətmək üçün sizə öz içərinizdən bir peyğəmbər göndərdik».

"Bəqərə" surəsi, 151

# Peyğəmbərimizin (s) gözəl həyatı

Peyğəmbərimizin həyatının hər sahəsində möminlərə çox gözəl misallar vardır. Hz. Muhəmmədin (s) səhabələri ilə olan söhbətləri, onlara səslənişi, zarafatları, uşaqlarla olan şəfqətli münasibəti, həyat yoldaşlarına qarşı ədalətli, mehriban və sevimli davranışları, həm ailəsi, həm də bütün müsəlmanlar üçün nümunəvi himayədar olması, gülərüzlülüyə, sevinci, canlılığı, möminlərə olan sevgisi və şəfqəti, gözəl əxlaqın və ideal insan modelinin mühüm nümunəsidir. Bu fəsildə Peyğəmbərimizin (s) Allahın razı olduğu gözəl həyatından nümunələr veriləcəkdir.

## Peyğəmbərimiz (s) gülərüzlü idi və gülərüz olmağı tövsiyə edərdi

Peyğəmbərimiz üzərindəki ağır məsuliyyətə və üzləşdiyi müxtəlif çətinliklərə baxmayaraq, çox təvəkküllü, təslimiyyətli və sevincli bir insan idi. Həyatının hər sahəsində imanın sevinci və şövqü içində olurdu. Həm bu iman sevinci, həm də gözəl əxlaqına görə həmişə gülərüzlü və səmimi bir halı var idi.

Səhabələr Peyğəmbərimizin (s) bu vəziyyətini belə bildirirlər:

> Hz. Əli (r): «Onun gülərüzlü olması və hamı ilə nəzakətlə davranması onu insanlara sanki bir ata kimi etmişdi. Hamı onun yanında və nəzərində bərabər idi».[156]
>
> Allah Rəsulu həmişə gülərüzlü, mülayim xasiyyətli idi...[157]



**«O, ümmilərin arasında özlərindən onlara ayələrini oxuyan, onları təmizləyən, onlara Kitabı və hikməti öyrədən peyğəmbər göndərəndir...»**

**«Cumə» surəsi, 2**

«Allah Rəsulu... insanların ən çox gülümsəyəni və ən sevincli olanı idi».[158]

Peyğəmbərimiz (s) səhabələrinə də gülərüzlü olmalarını tövsiyə etmiş və belə buyurmuşdur:

«Siz insanları var-dövlətinizlə razı sala bilmərsiniz, onları gözəl üz və gözəl xasiyyətlə razı sala bilərsiniz».[159]

«Uca Allah asanlıq göstərən və gülərüzlü adamı sevər».[160]

## Peyğəmbərimizin (s) səhabələri ilə münasibəti və söhbətləri

Peyğəmbərimiz (s) ətrafındakı müsəlmanlarla çox yaxından maraqlanardı. Onların hər birinin imanını, davranışını, təmizliyini, sevincini, sağlamlığını yaxından təqib edərdi. Hər birinin çatışmazlıqlarını, ehtiyaclarını nəzərə alar, təmin edilməsinə çalışardı. Onlarla olan söhbətlərində isə onları xoş tutar, könüllərini alardı. Səhabələr onun yanından sevinc və daxili firavanlıqla ayrılardılar.

Allah Rəsulunun ən yaxınlarından biri olan Hz.Əli Peyğəmbərimizin (s) söhbətlərindəki vəziyyəti və səhabələri ilə olan rəftarını belə bildirmişdir:

«Rəsulullah insanların ən əliaçığı, ən geniş ürəklisi, ən düzgün danışanı, öhdəsinə götürdüyü işi ən yaxşı yerinə yetirəni, ən mülayim xasiyyətlisi və ən gözəl söhbət edəni idi. Onu tanıyıb söhbət edənlər onu sevərək yanına yaxınlaşardılar. Onun haqqında danışanlar: "Nə ondan əvvəl, nə də ondan sonra onun kimisini gördüm", - deyərdi. Nə vaxt ondan bir tələb edilsə, mütləq onu verərdi».[161]

«(Birlikdə) oturduğu adamların hər biri ilə maraqlanar, fərqli davrandığını büruzə verməzdi. Ehtiyacını təmin etməsi üçün onunla oturan, yaxud onu ayaq üstə saxlayan adama qarşı səbirli olar, həmin adam ayrılmayana kimi onu tərk edib ayrılmazdı».[162]

«Səhabələrindən ötrü darıxar, görmədiyi vaxt onları soruşardı. Onların vəziyyətlərinin necə olduğunu, işlərinin necə getdiyini də soruşardı. Gözələ gözəl, çirkinə çirkin deyərdi».[163]

«Həmişə düzlərin yanında idi, başqasını qəbul etməzdi. Elə-belə yanına daxil olanlar razı halda, yanlarında dəlil və rəhbər olaraq ordan uzaqlaşardılar».[164]

«Gələn əcnəbilərin həddini aşan və məntiqsiz davranışlarını səbirlə qarşılayardı. Səhabələr bəzən kənardan gələn şəxslərin

bu cür davranışlarına əsəbiləşdiyi halda, onları sakitləşdirər və belə deyərdi: «Belə adamları görəndə onları irşad edin!»[165]

«Heç kimin sözünü kəsməz, qurtarana qədər gözləyərdi».[166]

«...İnsanları bir-birinə sevdirən, bir-birilərinə qaynayıb-qarışmalarına səbəb olan şeyləri danışardı. Onları ürkütməz, qaçırmazdı. Hər tayfanın rəhbərinə əhəmiyyət verərdi, onlara ehsan edərdi...»[167]

Nəvəsi İmam Həsən isə Peyğəmbərimiz (s) haqqında bunları demişdir:

«Mənalı baxışları var idi... Az sözlə çox məna ifadə edən sözlərlə gözəl və vəciz danışardı. Nə artıq, nə də yersiz danışardı».[168]

«Nüfuzlu əyanlarla adi şəxslərlə danışdığı kimi bərabər tərzdə danışardı. Onlardan heç nəyi gizlətməzdi».[169]

Əbu Zərr Peyğəmbərimizin (s) səhabələrinə qarşı sevgi dolu davranışını belə nəql etmişdir:

«Bir gün Peyğəmbərimizin yanına getdim. Yerdə otururdu. Durub məni qucaqladı. Bu qucaqlaması həqiqətən də çox səmimi idi».[170]

Səhabələrdən biri də Hz.Muhəmmədin insanlara qarşı çox incə düşüncəli və insanpərvər olan gözəl davranışını belə tərif etmişdir:

«Bir adam Allah Rəsulu ilə əlini uzadıb görüşəndə həmin şəxs əlini buraxmayana kimi Rəsulullah əlini çəkməzdi. Onunla danışan adama tərəf tam dönər, danışanın sözü qurtarmamış üzünü döndərməzdi».[171]

Peyğəmbərimiz (s) xəstələnən səhabələri ilə də yaxından maraqlanırdı. Arıq olanların kökəlmələri, kök olanların da özlərinə fikir vermələrini, faydalı yeməklərə üstünlük vermələrini tövsiyə edərdi.[172] Məsələn, bəzi xəstəliklərində səhabələrinə bal şərbəti içmələrini tövsiyə etmişdir.[173]

Hətta bir dəfə səhabələrdən birinin ürəyi gedəndə Peyğəmbərimiz (s) onu ayağa qaldırmış, evinə aparmış və ac olduğunu başa düşərək, ona əvvəlcə süd içirmişdir.[174]

Peyğəmbərimiz (s) səhabələri ilə zarafatlaşar, onlarla birlikdə gülərdi.

Səhabələrin sözlərindən də aydın olduğu kimi, Peyğəmbərimiz həm ailəsi, həm də səhabələri ilə tez-tez zarafatlaşar, onların zarafatlarına gülər və onlara gözəl adlar, yaxud ləqəblər qoyardı. Amma hər bir məsələdə olduğu kimi, zarafatlaşma mövzusunda da Peyğəmbərimiz (s) çox dərin düşüncəli, vicdanlı və anlayışlı davranardı. Peyğəmbərimizin (s) zarafat mövzusunda verdiyi tövsiyələri belə xülasə edilə bilər:

- “Mən zarafat edirəm, amma ancaq doğru olanı söyləyirəm.



Məkkə, Kəbə,
Kral Fəhd qapısı

«Sizə özünüzdən bir peyğəmbər gəldi ki,
sizin əziyyətə düşməyiniz ona ağır gəlir,
o sizi çox istəyir, möminlərə şəfqətlidir,
mərhəmətlidir!»
“Tövbə” surəsi, 128





**İstanbul, Topqapı Sarayı Müqəddəs Əmanətlər hissəsində olan Kəbənin açarı.**

- Bir müsəlmanın qardaşını qorxutması halal deyil.
- Qardaşınla mübahisə etmə, ona lağ edərək zarafatlaşma!
- Başqalarını güldürmək üçün yalan danışana yazıqlar olsun.
- Bəndə zarafatla da olsa, yalan danışmağı, düz də olsa, mübahisə etməyi buraxmayana kimi, yaxşı mömin ola bilməz.
- Zarafatla da olsa, yalan danışmayın".[175]

## Peyğəmbərimizin (s) sevgi mövzusundakı tövsiyələri

Peyğəmbərimizin (s) xüsusilə üzərində dayandığı ən mühüm mövzulardan biri möminlərin bir-birlərini heç bir mənfəət güdmədən, səmimi bir sevgi ilə sevmələri və bir-birlərinə qarşı kin, əsəb və paxıllıq kimi pis hisslər bəsləməməlidir. Peyğəmbərimiz (s) həm bu mövzuda möminlərə ən gözəl nümunə olmuş, həm də onlara tez-tez bu mövzularda tövsiyələr vermişdi.

Allah bu mövzu haqqında Quranda belə buyurur:

**«Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir. De: "Mən sizdən bunun müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabının (mükafatını) artırarıq!" Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir!» («Şura» surəsi, 23)**

Peyğəmbərimizin (s) sevgi, dostluq və qardaşlıq haqqında hədislərindən bəziləri isə belədir:

«Mömin özü üçün istədiyini qardaşı üçün də arzulayar».[176]

«Hədiyyələşin, bir-birinizi sevin. Bir-birinizə yemək hədiyyə verin. Bu ruzinizdə genişlik meydana gətirər».[177]

«Ziyarətləşin, hədiyyələşin. Çünki ziyarət sevgini möhkəmlədir, hədiyyə də ürəkdəki pis hissləri söküb atar».[178]

«Bir-birinizə paxıllıq etməyin, bir-birinizə kin saxlamayın, bir-birinizə çirkin söz deməyin, bir-birinizə arxanızı döndərməyin, bir-birinizin arxası ilə danışmayın. Ey Allahın bəndələri, qardaş olun».[179]

«Sizdən əvvəlki xalqların dərdi sizə yoluxdu: həsəd və kin. Kin bəsləmək kökündən qazıyan şeydir. Allaha and olsun ki, iman gətirməyənə kimi cənnətə daxil ola bilmərsiniz. Bir-birinizi sevməyənə kimi iman gətirmiş olmarsınız. Sizə bir-birinizi sevəcəyiniz bir şeyi xəbər verim? Aranızda salamı yayın».[180]

## Peyğəmbərimizin uşaqlarla olan münasibəti və mərhəməti

Peyğəmbərimiz Hz.Muhəmmədin (s) bütün bəşərə nümunə olan şəfqəti, mərhəməti və möminlərə olan sevgisi uşaqlarla olan münasibətində çox aydın şəkildə özünü büruzə verirdi. Peyğəmbərimiz (s) həm öz uşaqları və nəvələri ilə, həm də səhabələrinin uşaqları ilə yaxından maraqlanmış, doğulmalarından adlarının qoyulmasına, sağlamlıqlarından elm öyrənmələrinə, geyimlərindən oynadıqları oyunlara kimi onlara tövsiyələr etmiş, hətta yol göstərmiş, maraqlanmışdır.

Məsələn, Peyğəmbərimiz qızı Hz.Fatiməyə (r) hər iki nəvəsinin doğulmasından əvvəl: «Uşaq doğulan kimi mənə xəbər verməmiş heç nə etməyin»,[181] - deyə tənbehləmişdi.





Körpələrin doğulmasından sonra isə onların qidalanmalarını, təmizliklərini və necə qorunacaqlarını şəxsən göstərərək danışmışdır.

Bundan başqa, Peyğəmbərimiz (s) yeni doğulan körpələrə, uşaqlarına, nəvələrinə və səhabələrinə həmişə dua etmişdir. Onları sığallayarkən, ya da oyunlarına baxarkən onlar üçün Allahdan xeyirli və uzun ömür, elm, hikmət və iman istəmişdir. Məsələn, nəvələri Hz.Həsən və Hz.Hüseynə həmişə dua etmiş və bu duasının Hz.İbrahimin Hz.İshaq və Hz.İsmail üçün etdiyi dua olduğunu bildirmişdir.[182]

Səhabələrdən İbni Abbas uşaq ikən Peyğəmbərimizin (s) ona «Allahım, buna hikməti öyrət», - deyərək dua etdiyini bildirir. Səhabələrindən olan Ənəsə isə uşaqlıq vaxtlarında Allahın var-dövlətini, övladlarını çox, ömrünü uzun etməsi və verdiklərinin Ənəs haqqında xeyirli və bərəkətli olması üçün dua etmişdir.[183]

Peyğəmbərimiz uşaqların oyun oynamasına da çox əhəmiyyət vermiş, hətta bəzən onlarla oyun da oynamışdır. Hz.Peyğəmbər (s): «Uşağı olan onunla uşaqlaşsın», [184] - deyərək, valideynlərə uşaqlarını şəxsən özlərinin də əyləndirmələrini tövsiyə etmişdir. Peyğəmbərimiz (s) uşaqların üzgüçülük, qaçış, güləş kimi oyun və idman növləri ilə məşğul olmalarını da tövsiyə etmiş, hətta nəvələrini və ətrafındakı uşaqları da buna həvəsləndirmişdir.

Səhabələr Peyğəmbərimizin uşaqları ne-



cə çox istədiyini, onlarla necə maraqlandığını və oynadığını xəbər vermişlər. Bunlardan bəziləri belədir:

«Rəsulullah aləyhissalatı vəssalam uşaqlarla zarafatlaşmada insanların ən qabaqcılı idi».[185]

əl-Bəra:

«Həsəni Peyğəmbər sallallahu aləyhi və səlləmin çiynində gördüm...»[186]

«Peyğəmbərimiz (s) qızı Hz.Fatiməyə belə deyərdi: «Bu oğullarımı (Həsən və Hüseyin) yanıma çağır!» Onlar gələndən sonra onların hər ikisini sinəsinə sıxar, iyləyərdi».[187]

Yalə ibn Murrə Peyğəmbərimizin (s) uşaqlara olan sevgisinə, onlarla necə zarafatlaşdığına dair bunları bildirmişdir:

«Bir gün səhabələr Rəsulullahla birlikdə aləyhissalatu vəssəlamın dəvət edildiyi bir yeməyə gedirdi-



lər. Yolda uşaqlarla oynayan nəvəsi Hüseyinə rast gəldi. Rəsulullah (s) nəvəsini görən kimi qabağa çıxıb camaatın yanında onu tutmaq üçün əllərini açdı. Nəvəsi isə sağa-sola qaçmağa başladı. Rəsulullah da onun kimi sağa-sola qaçaraq onu tutana kimi arxasınca qaçdı. Tutan kimi bir əlini nəvəsinin çənəsinin altına, digərini də boynuna qoyub onu öpdü və: «Hüseyin məndəndir. Kim Hüseyini sevərsə, Allah da onu sevsin. Hüseyin də nəvələrdən bir nəvədir», - buyurdu».[188]

Ənəsinin bildirdiyinə görə, Rəsulullah (s): «Dünyada iki reyhanım», - dediyi nəvələri Həsən və Hüseyini tez-tez yanına çağırıb, onları bağrına basar və qoxlayardı.[189]

İbnu Rəbiati ibnil Haris deyir ki,

«Atam məni, Abbas da oğlu əl-Fadlı Rəsulullahın yanına göndərdi. Yanlarına girəndə bizi sağ və sol tərəfində otuzdurdu. Bizi elə möhkəm qucaqladı ki, ondan daha güclüsünü görmədik».[190]

Rəsulullah (s) uşaqlara olan sevgisini göstərərkən tez-tez onların başlarını sığallayardı və onlara xeyir dualar edərdi. Məsələn, Yusif ibni Abdillah ibn Səlam: «Hz.Peyğəmbər (s) məni Yusif deyə adlandırdı, başımı sığalladı», - deyir. Amr ibn Hureys isə anasının onu Hz.Peyğəmbərin (s) yanına apardığını, Rəsulullahın (s) başını sığallayıb bol ruziyə qovuşması üçün dua etdiyini, Abdullah ibn Utbə də beş-altı yaşında olarkən Peyğəmbərimiz onun başını sığallayaraq, zürriyyəti və bərəkəti üçün dua etdiyini xatırladığını bildirir.[191]

Hz.Muhəmmədin (s) uşaqlara göstərdiyi marağı və sevgi dolu davranışını səhabələrindən biri bu sözlərlə danışmışdır:

«Meyvənin nübarı gətiriləndə Rəsulullah (s): "Allahım, bizə, şəhərimizə, meyvələrimizə, ölçülərimizə (mudd və sayımıza) qatbəqat bərəkət ver", - deyə dua edərdi. Sonra meyvəni orda olanların ən balacasına verərdi».[192]

«Uşağa qarşı yumşaq davranmaq Allah Rəsulunun adətlərindən idi. Allah Rəsulu hər bir səfərdən qayıdanda uşaqlar onu qarşılayardılar. Allah Rəsulu da dayanar, səhabələrinə uşaqları qaldırmalarını əmr edərdi. Onlar da uşaqların bəzilərini Allah Rəsulunun qarşısına, bəzisini arxasına mindirər və bəzilərini də özləri yanlarına apardılar».[193]

«Rəsulullah (s) Hz.Fatimənin evinin həyətinə gəldi və oturdu. «Burda uşaq var?», - deyə soruşdu. Hz.Fatimənin uşağı (Rəsulullahın nəvəsi) sürətlə qaçaraq gəldi və Rəsulullahın boynuna sarıldı. Rəsulullah uşağı öpdü».[194]

«Uşaqlarla o qədər içiçə olmuşdu ki, bir dəfə yarışan uşaqları görən kimi, onları sevindirmək üçün onlarla birlikdə qaçmışdı».[195]

Cabir ibn Səmurə də eyni mövzuda bunları bildirmişdir:

«İlk namazı Rəsulullah aleyhissalatı vəssəlamla birlikdə qıldım. Sonra Allah Rəsulu ailəsinin yanına getdi. Mən də onunla birlikdə çıxdım. Onu bəzi uşaqlar qarşıladı. Birdən onların yanaqlarını bir-bir sığallamağa başladı. Mənim də yanağımı sığalladı. Əlində bir sərinlik və xoş iy hiss elədim».[196]

Qız uşaqları doğulan kimi öldürüldükləri bir vaxtda peyğəmbər olaraq vəzifələndirilən Hz.Muhəmməd (s) qız uşaqlarını da oğlan uşaqlarından ayırmamaq lazım gəldiyini, qız uşaqlarını öldürməyin günah olduğunu bildirmiş və hər birinə bərabər sevgi və maraq göstərərək, cəmiyyətə də gözəl nümunə olmuşdur.

Peyğəmbərimizin (s) qız uşaqlarındakı gözəl xüsusiyyətləri vurğuladığı sözlərindən biri belədir:

«Qız nə gözəl övladdır. Şəfqətli, yardımsevər, gözəl, mübarək və analıq hissləri ilə doludur».[197]

«Peyğəmbərimiz (s) sevgisini həm sözləri ilə, həm də davranışları ilə göstərirdi. Uşaqlara onları sevdiyini söyləyərdi».[198]

Peyğəmbərimiz uşaqlara olan şəfqətində heç bir ayrı-seçkilik salmazdı. Öz uşaqlarına və nəvələrinə göstərdiyi sevginin və mərhəmətin eynisini başqa səhabə uşaqlarına da göstərərdi. Xalid b. Səid Peyğəmbərimizə (s) baş çəkməyə gələndə yanında azyaşlı qızı var idi. Həbəşistanda doğulduğu üçün Peyğəmbərimiz (s) ona ayrı yaxınlıq göstərirdi. Bu dəfə Peyğəmbərimizin (s) əlinə naxışlı parça gətirilmişdi. Xalidin qızını çağırtdı və ona verdi, sevindirdi.

Cəmrə həmin vaxtlar balaca bir uşaq idi. Atası onu Peyğəmbərimizin (s) yanına apardı və dedi: «Ey Allahın Rəsulu, bu qızım üçün Allaha bərəkətlə dua edərsinizmi?» Peyğəmbərimiz Cəmrəni qucağına otuzdurdu, əlini başına qoydu və bərəkətlə dua etdi.

Peyğəmbərimizin (s) köməkçisi Zeydin oğlu Usamə Peyğəmbərimiz haqqında bunları bildirmişdir:

«Rəsulullah bir dizinə məni, bir dizinə də nəvəsi Həsəni otuzdurar, sonra ikimizi bağrına basar və "Ey Rəbbim, bunlara mərhəmət elə. Çünki mən bunlara qarşı mərhəmətliyəm", - deyə dua edərdi».[199]

Bəzi adamlar Peyğəmbərimizin (s) uşaqlarla oyun oynamasını, onlarla maraqlanmasını başa düşmürdülər. Bir dəfə Aqra b. Xabis Peyğəmbərimizi (s) Hz.Həsəni öpərkən gördü və belə dedi:

«Mənim on uşağım var. İndiyi kimi heç birini öpməmişəm». Bundan sonra Peyğəmbərimiz «Mərhəmət etməyənə mərhəmət olunmaz», - buyurdu».[200]

Peyğəmbərimiz oğlu İbrahimi də süd anasının evində tez-tez baş çəkməyə gedər, şəfqət və mərhəmət göstərərək başını sığallıyar, bağrına basardı. Peyğəmbərimizin xidmətçisi Ənəs bununla bağlı xatirəsini belə danışır:

«Mən evdəkilərə Rəsulullahdan (s) daha şəfqətli, daha mərhəmətli davranan adam həyatımda görmədim. İbrahim Mədinənin Avali adlanan hissəsində süd anasının yanında olarkən Peyğəmbərimiz (s) onu görməyə gedər, biz də birlikdə olardıq... Peyğəmbərimiz (s) içəri girər, oğlunu alar, öpər, sonra qayıdardı... Yenə bir gün gedəndə Rəsulullah uşağını gətizdirdi, bağrına basdı. Ona bəzi sözlər dedi, onunla danışdı».[201]

Həzrəti Əli danışır:

«Peyğəmbərimiz bizə baş çəkməyə gəlmişdi. Gecəni bizdə qaldı. Həsən və Hüseyn də yatmışdılar. Bir vaxt Həsən su istədi. Peyğəmbərimiz dərhal ayağa durdu və su tuluğundan bir stəkan su götürdü, uşağa verdi...»[202]

Peyğəmbərimiz (s) möminlərə uşaqları arasında ədalətlə davranmalarını xatırlatmış və belə demişdir:

«Allahdan qorxun. Uşaqlarınızın sizə itaətli olmalarını istədiyiniz kimi, siz də onların aralarında ədalətlə davranın».[203]

«Allah hər məsələdə uşaqlar arasında ədalətli davranmağınızı sevir, hətta öpməyə qədər...».[204]

Peyğəmbərimizin (s) uşaqlarının təlim-tərbiyələri üzərində çox dayanmış və bu məsələdə bir çox tövsiyə edərək yol göstərmişdir.

Peyğəmbərimizin (s) bu mövzudakı sözlərindən bəziləri belədir:

«Bir ata övladına gözəl əxlaqdan daha yaxşı miras buraxmaz».[205]

«Uşağın atası üzərindəki haqlarından biri adını və ədəbini gözəlləşdirməsidir».[206]

«Uşaqlarınıza ikram edin və gözəl tərbiyə verin...»[207]

Peyğəmbərimiz Hz.Muhəmməd (s) hər məsələdə olduğu kimi, uşaqlarla maraqlanması, onlara göstərdiyi sevgi və şəfqətlə möminlərə ən gözəl nümunədir. Peyğəmbərimiz (s): «Balacalarına mərhəmət etməyən... bizdən deyil»[208], - deyərək uşaqlara göstərilən şəfqətin əhəmiyyətini bildirmişdir.

## Peyğəmbərimizin xanımları möminlərin analarıdır

Peyğəmbərimizin xanımları bütün möminlərin anaları, bütün müsəlman qadınlara nümunə, təqva sahibi olan möminlərdir. Quranda, hədislərdə və Peyğəmbərimizin həyatı haqqındakı rəvayətlərdə Hz.Muhəmmədin (s) həyat yoldaşlarının xasiyyətləri, imanları, Peyğəmbərimizə (s) necə kömək etdikləri, təbliğatları və gözəl əxlaqları haqqında bir çox məlumatlar verilir.

Quranda Peyğəmbərimizin xanımları haqqında verilən məlumatlardan biri onların bütün möminlərin anası olmasıdır:

**«Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır və onun övrətləri də onların analarıdır... » («Əhzab» surəsi, 6)**

Allah başqa bir ayədə isə möminlərə Peyğəmbərimizdən (s) sonra onun xanımlarının nikahlanmasını qadağan etmişdir. Bu ayə belədir:

**«... Sizə Allahın Peyğəmbərini incitmək, özündən sonra onun zövcələri ilə evlənmək əsla yaraşmaz. Həqiqətən, bu, Allah yanında böyük günahdır!» («Əhzab» surəsi, 53)**

Quranın bəzi ayələrində isə Peyğəmbərimizin (s) xanımlarının başqa qadınlar kimi olmadıqlarını bildirmiş və onların necə davranmalı olduqları xəbər verilmişdir. Ayələrdə belə buyurulur:

**«Siz ey Peyğəmbərin zövcələri! Allahdan qorxacağınız təqdirdə siz qadınların heç biri kimi deyilsiniz. Buna görə də yumşaq danışmayın, yoxsa qəlbində mərəz olan tamaha düşər. Gözəl danışın! Evlərinizdə qərar tutun. İlkin cahiliyyə dövründəki kimi bər-bəzəyinizi taxaraq göstərməyin! Namaz qılın, zəkat verin, Allaha və Rəsuluna itaət edin. Siz ey ev əhli! Allah siz-**

**dən çirkinliyi yox etmək və sizi tər-təmiz etmək istər! Allahın evlərinizdə oxunan ayələrini və hikməti xatırlayın. Allah lütfkardır, xəbərdardır!"» ("Əhzab" surəsi, 32-34)**

Müqəddəs Peyğəmbərimizin (s) təqva sahibi olan xanımlarının ayələrdə bildirilən davranışları, yəni sözü düzgün, ağlı və vicdana uyğun tərzdə söyləmələri, ağır davranışları, ibadətlərdə və Peyğəmbərimizə itaət etmək məsələsindəki həssaslıqları, Quranı və Peyğəmbərimizin (s) yolunu çox yaxşı bilmələri bütün mömin qadınlara nümunədir.

Allah ayələrində Peyğəmbərimizin (s) həyat yoldaşlarının mükafatlarının iki qat veriləcəyini belə bildirmişdir:

**«Siz ey Peyğəmbərin zövcələri! Sizdən hansı biriniz açıq-aşkar bir çirkin iş görsə, onun əzabı ikiqat olar. Bu, Allah üçün asandır! Sizdən hər kim Allaha və Rəsuluna itaət edib yaxşı işlər görsə, onun mükafatını ikiqat verərik. Biz onun üçün tükənməz ruzi hazırlamışıq» («Əhzab» surəsi, 30-31).**

Peyğəmbərimizin ilk zövcəsi Hz.Xədicədir (r). Hz.Xədicə həm də ilk müsəlmanlardandır. Peyğəmbərimiz (s) ilk vəhyi dərhal ona demişdir. Ağlı, fərasəti, bəsirəti və hikməti ilə tanınan Hz.Xədicə dərhal iman gətirmiş və həmin gündən sonra Peyğəmbərimizə (s) böyük dəstək olmuş, Quran əxlaqının yayılmasında maddi-mənəvi cəhətdən çox işlər görmüşdür.

Peyğəmbərimizin (s) Sudə, Aişə, Hafsa, Zeynəb, Ummu Sələmə, Cuveriyyə, Ummu Həbibə, Safiyə, Məymunə kimi adları qeyd edilən başqa xanımları da fədakarlıqları, səbirləri və Peyğəmbərimizə olan bağlılıqları ilə səhabələrinə nümunə olmuşlar.

Peyğəmbərimiz (s) həm xanımları, həm də uşaqları ilə həmişə maraqlanmış, onların imanlarını, sağlamlıqlarını, sevinclərini və elmlərini artırmalarına səbəb olmuşdur. Rəvayətlərdə Peyğəmbərimizin (s) xanımları ilə oynaması, hətta yarışması da nəql olunur. Səhabələr «Peyğəmbərimiz (s) xanımları ilə ən çox zarafatlaşan kişi idi»[209], - deyərək Peyğəmbərimizin xanımları ilə olan münasibətini bildirmişdir.

Bundan başqa, Peyğəmbərimizin xanımları onun «Xanımlarına qarşı insanların ən mülayimi, ən comərdi, gülərüzlüsü»[210] olduğunu bildirmişlər.

Peyğəmbərimizin bilinən başqa bir xüsusiyyəti isə xanımları


«Allaha və Peyğəmbərə itaət edənlər Allahın
nemətlər verdiyi peyğəmbərlər, siddiqlər,
şəhidlər və salehlərlə bir yerdə olacaqlar.
Onlar necə də gözəl yoldaşlardır!»
"Nisə" surəsi, 69



**«O, kefi istəyəni (havadan) danışmır.**

**Bu, ancaq nazil olan bir vəhydir.»**

**“Nəcm” surəsi, 3-4**

«...Muhəmməd Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, bir-birinə isə mərhəmətlidirlər.»

«Fəth» surəsi, 29



arasında çox ədalətli olması idi. Hətta rəvayətlərdə xanımlarının yanına getmək üçün vaxt ayırdığı bildirilir. Bu mövzuda xanımları belə deyir:

> «Rəsulullah (s) gecələr vaxt ayırımında ədalətə əməl edər və deyərdi: «Ey Allahım! Bu, müəyyənləşdirdiyim bir vaxt ayırmadır. Sənin gücünün çatıb mənim gücümün çatmadığı şeyə görə mənə məhv etmə»».[211]

Ənəs danışır:

> «Rəsulullahın (s) doqquz xanımı var idi. Xanımlarına baş çəkmək işini növbə ilə həyata keçirirdi. Birinci xanımına ikinci dəfə doqquz gün sonra növbə çatırdı. Xanımları hər axşam Rəsulullahın həmin gün gələcəyi otaqda yığışardılar».[212]



Peyğəmbərimiz bir çox sözündə də mömin qadınların nə qədər dəyərli varlıqlar olduqlarını bildirmişdir. Məsələn, bir sözündə, «Dünya bir maldır. Dünya malının ən xeyirlisi salehə qadındır»[213], - dediyi bildirilir.

Peyğəmbərimiz səhabələrinə də həyat yoldaşlarına qarşı necə davranmalı olduqlarını bildirmişdir:

> «Ən dolğun imana malik, xasiyyəti ən gözəl və ailəsinə qarşı ən nəzakətli, lütfkar olanıdır».[214]
>
> «Ən xeyirliniz xanımlarına qarşı ən xeyirli olanınızdır. Mən zövcələrinə qarşı sizin yaxşınızam».[215]





«Bu, sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Onlar (Yusifin qardaşları) hiylə quraraq əlbir iş gördükləri zaman sən ki onların yanında deyildin!»

“Yusuf” surəsi, 102

# Peyğəmbərimizin gələcəyə dair verdiyi xəbərlər

Hər insanın, hər cəmiyyətin və hər ölkənin bir taleyi var. Hələ dünyada heç bir insan yaradılmamışdan əvvəl hər bir adamın gələcəkdə nələr yaşayacağı, bir ölkənin hansı hadisələrə şahid olacağı, hər cəmiyyətin keçəcəyi mərhələlər və bu kimi hadisələr Allahın dərgahında bütün təfərrüatları ilə müəyyən edilmişdir. Lakin insanlar əvvəlcədən müəyyən edilən, Allahın yanında yaşanmış, hətta bitmiş bu hadisələrin heç birindən xəbərdar olmazlar. Bunları ancaq yaşadıqca görür və bilirlər. Dolayısı ilə gələcək insanlar üçün qeybdir, yəni bilinməzdir.

Ancaq Allah bəzi bəndələrinə qeyb haqqında məlumatlar verdiyini Quranda bildirmişdir. Bunlardan biri də Hz.Yusif peyğəmbərdir. Hz.Yusif zindanda olarkən Allahın mövcudluğunun dəlillərini anlatdığı iki yoldaşına belə demişdir:

> **«Belə cavab verdi: "Yeyəcəyiniz təam gəlməmişdən əvvəl mən onun nə olduğunu sizə xəbər verərəm. Bu, Rəbbimin mənə öyrətdiyi elmlərdəndir. Mən Allaha inanmayan və axirəti də inkar eləyən bir tayfanın dinini tərk etdim!» («Yusuf» surəsi, 37)**

Ayədə də bildirildiyi kimi, Hz.Yusif qeyb olan bir xəbəri bildiyini söyləyir. Bu, Allahın Hz. Yusif peyğəmbərə verdiyi elm və möcüzədir. Allah bundan başqa, Hz. Yusifə yuxuları yozmaq elmini də bəxş

etmişdi. Hz. Yusif Allahın istəyi ilə gələcəkdə baş verən bəzi hadisələri görə bilirdi.

Hz.Yusifə verilən elmin oxşarı başqa peyğəmbərlərə də verilmişdir. Allah ayələrdə elçilərindən seçdiklərinə qeyb xəbərlərini açıqlayacağını belə bildirmişdir:

**«Qeybi bilən ancaq Odur və Öz qeybini heç kəsə əyan etməz. Bəyənib seçdiyi peyğəmbərdən başqa! Allah onların önündə və arxasında gözətçilər qoyar» («Cin» surəsi, 26-27).**

Əlbəttə, Rəbbimiz Peyğəmbərimizə də qeyblə bağlı bir çox xəbər vermişdir. Peyğəmbərimiz (s) həm keçmişdə meydana gələn və heç kimin bilmədiyi hadisələri, həm də gələcəkdə baş verəcək bir çox hadisəni Allahın bildirməsi ilə öyrənmişdir.

Bir ayədə Allah bu həqiqəti belə xəbər verir:

**«Bu, sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Onlar (Yusifin qardaşları) hiylə quraraq əlbir iş gördükləri zaman, sən ki, onların yanında deyildin!» («Yusuf» surəsi, 102)**

Bu fəsildə Allahın Peyğəmbərimizə həm Quran vasitəsi ilə, həm də xüsusi olaraq ona bildirdiyi və Peyğəmbərimizin (s) hədisləri vasitəsilə bizə gəlib çatan bu qeyb xəbərlərindən bir neçəsi haqqında məlumat veriləcəkdir. *(Ətraflı məlumat üçün Harun Yəhyanın* **«Quran möcüzələri»** *adlı kitabını oxuya bilərsiniz).*

Bu xəbərlərin bir çoxu baş vermişdir və insanlar da bu möcüzələrə şahid olmuşlar. Bu həm Peyğəmbərimizin Allahın elçisi, həm də Quranın Allahın sözü olduğunun dəlillərindən biridir.



«Bunlar qeyb xəbərlərindəndir ki, vəhy ilə sənə bildiririk. Onlar: “Məryəmi kim öz himayəsinə alacaq?” - deyə, qələmlərinin atdıqları və bir-birilə mübahisə etdikləri zaman sən ki onların yanında deyildin».

“Ali-İmran” surəsi, 44

## Peyğəmbərimizə (s) Quranla verilən qeyb xəbərlərindən bəziləri

***«Əlif, Lam, Mim! Rumlular (bizanslılar iranlılara) məğlub oldular. «Dünyanın ən aşağı yerində». Lakin onlar məğlubiyyətlərindən sonra qalib gələcəklər. Bir neçə ilin içində (üç illə doqquz). Əvvəl də, sonra da hökm Allahındır. O gün möminlər sevinəcəklər» («Rum» surəsi, 1-4).***

Peyğəmbərimizə (s) Quran vasitəsi ilə gələcək haqqında verilən xəbərlərdən biri «Rum» surəsinin əvvəlindəki ayələrdə bəhs edilir. Bu ayələrdə Bizans imperatorluğunun bir məğlubiyyətə məruz qaldığı, amma çox qısa vaxt sonra təkrar qalib gələcəyi bildirilmişdir.

Bu ayələr xristian olan bizanslıların bütpərəst bir cəmiyyət olan farslar qarşısında çox ağır məğlubiyyətindən təxminən 7 il sonra, bizim eranın 620-ci ilində göndərilmişdi. Və ayələrdə Bizansın çox yaxında qalib gələcəyi xəbər verilirdi. Halbuki, o əsnada Bizans o qədər böyük itkilərə məruz qalmışdı ki, təkrar qalib gəlməsi bir yana, özünü saxlaması da imkansız görünürdü. Təkcə farslar deyil, avarlar, slavlar və lombardlar Bizans dövlətinə qarşı böyük təhdid idilər. Avarlar indiki İstanbulun yanına qədər gəlmişdilər. Bizans kralı Herakl ordunun xərclərini təmin etmək üçün kilsələrdəki qızıl və gümüş bəzək əşyalarının əridilib pula çevrilməsini əmr etmişdi. Hətta bunlar da kifayət etməyəndə bürüncdən heykəllər də pul üçün əridilməyə başlanmışdı. Bir çox rəhbərlər kral Herakla üsyan etmiş, imperatorluq bölünmə həddinə çatmışdı. Əvvəlcədən Bizans torpağı olan Mesopotamiya, Kilikiya, Suriya, Fələstin və Misir bütpərəst farslar tərəfindən işğal edilmişdi.[216]

Qısası, hamı Bizansın tarix səhnəsindən silinəcəyini gözləyirdi.

Amma elə bu dövrdə «Rum» surəsinin ilk ayələri vəhy edildi və Bizansın doqquz il ötmədən təkrar qalib gələcəyi xəbər verildi. Bu qalibiyyət elə imkansız görünürdü ki, ərəb müşrikləri Quranda xəbər verilən bu zəfərin, qətiyyən baş verməyəcəyini fikirləşirdilər. Lakin bu, Quranın bütün xəbərləri kimi, əlbəttə, baş verdi. «Rum» surəsinin ilk ayələrinin göndərilməsindən təxminən 7 il sonra bizim eranın 627-ci ilinin dekabr ayında Bizans və Sasani (fars) imperatorluğu arasında Ninova xarabalıqları yaxınlığında böyük müharibə baş verdi. Bu dəfə Bizans ordusu farsları məğlub etdi. Bir neçə aydan sonra da farslar işğal etdikləri yerləri Bizansa geri qaytarılmasını nəzərdə tutan bir müqavilə bağlamaq məcburiyyətində qaldılar.[217]

Beləliklə, Allahın Quranla Peyğəmbərimizə bildirdiyi «Rumun qalibiyyəti» möcüzəli şəkildə həqiqət oldu.

Bu ayələrdə mövcud olan başqa bir möcüzə də həmin dövrdə heç kimin müəyyənləşdirməsi mümkün olmayan coğrafi bir həqiqətin xəbər verilməsidir.

«Rum» surəsinin 3-cü ayəsində rumların «dünyanın ən alçaq yerində» məğlub olduqları bildirilir. Ərəb dilində «ədna əl ard» olan bu ifadə bəzi tərcümələrdə «yaxın yer» olaraq da tərcümə edilir. Ancaq bu tərcümə əsl ifadənin tam əvəzi deyil, məcazi mənasıdır. «Ədna» kəlməsi ərəb dilində «alçaq, aşağı» demək olan «dəni» sözündən törəmişdir və «ən alçaq» mənalarına gəlir. «Ard» isə yer üzü deməkdir. Dolayısı ilə «ədna əl ard» ifadəsi də «yer üzünün ən alçaq yeri», «dünyanın ən aşağı yeri» mənasına gəlir.

Bizans imperatorluğu ilə Sasanilər (farslar) arasındakı müharibə dünyanın ən aşağı yerində baş vermişdir. Bu döyüşün baş verdiyi yer Suriya, Fələstin və indiki İordaniya ərazilərinin kəsişdiyi bölgə Lut gölünün hövzəsidir. Məlum olduğu kimi, dəniz səviyyəsindən 395 metr aşağı olan Lut gölünün ətrafı dünyanın «ən aşağı» ərazisidir. Yəni rumlar eynilə ayədə bildirildiyi kimi, «dünyanın ən aşağı yeri»ndə qalib gəlmişdilər.

Burada diqqət etməli olduğumuz məsələ Lut gölünün dəniz səviyyəsindən aşağı olmasının ancaq müasir dövrdəki ölçülərlə müəyyən edilməsidir. Əvvəllər kiminsə Lut gölünün dünyanın ən aşağı yeri olduğunu bilməsi mümkün deyildi. Amma bu ərazi Quranda «dünyanın ən aşağı yeri» olaraq bildirilir. Bu, Quranın ilahi bir söz olduğunu və Peyğəmbərimizin də (s) Allahın Rəsulu olduğunu bir daha sübut edir.


«Rumlular məğlub oldular. Dünyanın
ən aşağı yerində...»
«Rum» surəsi, 2-3

Lake Lot.

***«Bəzi ayələrimizi göstərmək üçün bəndəsini bir gecə Məscidül Həramdan ətrafını mübarək etdiyimiz Məscidül Əqsaya aparan Allah pak və müqəddəsdir. O, doğrudan da, eşidəndir, görəndir!»***
***(«İsra» surəsi, 1).***

Allah bu ayədə Peyğəmbərimizi bir gecə Məscidi-Əqsaya apardığını və oranı göstərdiyini bildirir. Bu, çox böyük möcüzədir. Məlum olduğu kimi, Məscidi Haram Məkkədə, Əqsa məscidi isə Qüdsdədir. Peyğəmbərimiz bu hadisə baş verəndə Məkkədə idi. Həmin dövrün şəraitində isə bir gecə ərzində Məkkədən Qüdsə getmək mümkün deyil. Həmçinin bunu da bildirməliyik ki, Peyğəmbərimiz Qüdsü və Məscidi Əqsanı əvvəllər heç vaxt görməmişdir.

Ertəsi gün bu böyük möcüzəni ətrafındakılara danışanda Məkkəli müşriklərin ona inanmadıqları və dəlil göstərməsini istədikləri rəvayət edilir. Qureyşlilərin arasında Məscidi-Əqsanı görənlər var idi və Peyğəmbərimizdən həmin yerin necə olduğunu danışmasını tələb etmiş, bununla bağlı müxtəlif suallar soruşmuşdular.

Peyğəmbərimiz Məscidi-Əqsanı olduğu kimi danışandan sonra müşriklər Peyğəmbərimizin (s) Məscidi-Əqsa haqqında düzgün məlumat verdiyini söyləmişlər, sonra da həmin yolla gələn karvanlarla rastlaşıb -rastlaşmadığını soruşmuşlar. Peyğəmbərimiz (s) bu suala: «Bəli, həmin karvanlarla rastlaşdım, Rəvhada idi. Bir dəvələri itmişdi, onu axtarırdılar. Yüklərinin arasında bir su qədəhi vardı. Susadım, onu götürüb içdim və yenə olduğu yerinə qoydum. Gələndə soruşarsınız ki, orda su qalmışdımı?», - buyurdu. Qureyşlilər: «Bu da başqa bir əlamətdir», - deyəndən sonra Peyğəmbərimizə karvan haqqında təfərrüatları soruşmağa davam etmişdilər. Peyğəmbərimiz (s) isə soruşduqlarının hamısına cavab vermiş və belə demişdir: «Aralarındakı filan adam qabaqda, boz rəngli bir dəvə-

«Verdiyi nemətlərlə sınamaq üçün sizi yer üzünün varisləri təyin edən, dərəcələrə görə birinizi digərinizdən üstün edən Odur. Həqiqətən, sənin Rəbbin tezliklə cəza verən və şübhəsiz ki, bağışlayan, rəhm edəndir!»

"Ənam" surəsi, 165



**Qubbətus Səhra və əl-Əqsa məscidi, 1890**

nin üzərində dikilmiş iki xaral olduğu halda filan gün günəşin doğuşu ərəfəsində gələrlər». Bundan sonra onlar: «Bu başqa bir səbəbdir», - deyərək Allah Rəsulunun dediyi gün sürətlə Səniyyəyə tərəf qaçaraq günəşin çıxmasını gözlədikləri rəvayət edilir. Həqiqətən də günəşin doğması ilə birlikdə bəhs edilən karvan görünmüşdür. Karvanın qabağında isə, Peyğəmbərimizin bildirdiyi kimi, boz dəvə də var idi.[218]

Allahın Peyğəmbərimizə (s) həyatı boyunca heç görmədiyi bir məkanı, ora getmədən göstərməsi çox vacib bir möcüzədir. Həmin dövrdə Məkkədən Qüdsə, bir gecədə gedib-çıxmağın mümkün olmaması isə bu möcüzəni daha aydın göstərir.

***«And olsun ki, Allah Təala Öz Peyğəmbərinin yuxusunun çin olduğunu təsdiq etdi. Siz, inşallah, əmin-amanlıqla, başınızı qırxdırmış, qısaltmış halda və qorxmadan Məscidül-Hərama daxil olacaqsınız. Allah sizin bilmədiklərinizi bilir. O bundan əlavə tezliklə bir qələbə də bəxş edəcəkdir». («Fəth» surəsi, 27).***

Peyğəmbərimiz Mədinədə ikən yuxusunda möminlərin əmin-amanlıqla Məscidi-Hərama daxil olduqlarını və Kəbəni təvaf etdiklərini görmüş və möminləri bu xəbərlə müjdələmişdir. Çünki Məkkədən Mədinəyə hicrət edən möminlər həmin vaxtdan etibarən Məkkəyə daxil ola bilmirdilər. Peyğəmbərimizin (s) bu yuxusunu açıqlayandan sonra, rəvayətlərə görə, möminlər Məkkəyə umrə niyyəti ilə getmişlər, ancaq müşriklər onların Məkkəyə daxil olmalarına icazə verməmişdilər. Münafiqlər isə fitnə çıxarmaq üçün bunu fürsət bilmişdilər, nə Kəbəyə gedə bildiklərini, nə də saçlarını qısalda bildiklərini söyləyərək Peyğəmbərimizin (s) gördüyü yuxunu yalanlamağa çalışmışdılar. Allah Peyğəmbərimizə (s) dərgahından bir yardım və dəstək olaraq «Fəth» surəsinin 27-ci ayəsini vəhy etmiş və yuxusunun doğru olduğunu, Allah əgər

istəyərsə, möminlərin Məkkəyə girə biləcəklərini bildirmişdir. Həqiqətən də bir müddət sonra əvvəl Hudeybiyə sülhü və ardınca gələn Məkkənin fəthi ilə müsəlmanlar eynilə ayədə bildirildiyi kimi, əmin-amanlıq içində Məscidi Hərama girmişdilər. Beləliklə, Allah Peyğəmbərimizin əvvəlcədən xəbər verdiyi müjdənin həqiqət olduğunu göstərmişdi.[219]

Burada mühüm olan başqa bir məqam isə budur: Peyğəmbərimiz möminlərə bu müjdəni verəndə, buna səbəb ola biləcək heç bir şərait yox idi. Hətta şərtlər tamamilə əksini göstərir, müşriklər möminləri Məkkəyə buraxmamaqda qətiyyətli görünürdülər. Bu isə ürəyində xəstəlik olanların Peyğəmbərimizin (s) sözlərinə şübhə ilə yanaşmalarına səbəb olmuşdu. Ancaq Peyğəmbərimiz (s) Allaha güvənərək insanların nə deyəcəklərinə heç əhəmiyyət vermədən Allahın ona bildirdiyinə iman gətirmiş və bunu insanlara açıqlamışdır.

Dediklərinin Quran ayələri ilə təsdiq edilməsi və yaxın gələcəkdə sözlərinin baş verməsi isə Peyğəmbərimizin (s) və Quranın mühüm bir möcüzəsidir.



***«Biz İsrail oğullarına kitabda: "Siz yer üzündə iki dəfə fitnə-fəsad törədəcək və çox dikbaşlıq edəcəksiniz!" - deyə bildirdik. Onlardan birincisinin vaxtı gələndə üstünüzə çox güclü qullarımızı göndərdik. Onlar evlərinizin arasında gəzib dolaşırdılar. Bu vəd artıq yerinə yetirildi. Sonra sizə onların üzərində təkrar zəfər çaldırdıq, var-dövlət, oğul-uşaq verməklə kömək göstərdik və sayca sizi daha çox etdik».***
***(«İsra» surəsi, 4-6)***

«İsra» surəsindəki bu ayələrdə bildirildiyi kimi, İsrail oğulları yer üzündə iki dəfə fitnə çıxaracaqdılar. Bunlardan ilk «fitnə və təkəbbürlü yüksəliş»lərindən sonra Allah onların üstünə güclü bir ordu göndərdiyini bildirir. Həqiqətən də İsrail oğulları Hz.Yəhyanı öldürdükləri və Hz.İsanı öldürmək üçün hiylə qurduqları dövrün, yəni təkəbbürlü yüksəlişlərinin və fitnəkarlıqlarının dərhal arxasından miladdan sonra 70-ci ilində romalılar tərəfindən Qüdsdən sürgün edilmişdilər. Qüdsdəki Hz.Süleyman məbədi isə yerlə-yeksan edilmişdir.

Miladdan sonra 70-ci ildə Fələstindən sürgün edilmələrindən sonra yəhudilər bütün dünyaya yayılmışdılar. Hz.İsanın qatilləri olaraq göründükləri üçün də Avropada yaşadıqları ölkələrdə ümumiyyətlə alçaldılmış, çətin şərtlərdə yaşamışdılar, hətta çox vaxt dinlərini gizləmək məcburiyyətində qalmışdılar. Peyğəmbərimizə (s) bu ayə vəhy edildiyi vaxt da yəhudilər çətin şərtlərdə yaşayırdılar və bir dövlətləri də yox idi. Ancaq Allah ayələrdə İsrail oğullarına təkrar güc verəcəyini xəbər vermişdir.

Peyğəmbərimizin (s) sağlığından çox uzaq və çətin bir ehtimal olaraq görünən bu hadisə daha sonra tam olaraq gerçəkləşdi. Yəhudilər Fələstinə geri qayıtdılar və 1948-ci ildə İsrail dövlətini qurdular. İsrailin



**Peyğəmbərimizə İsrail oğullarının yenidən güc əldə edəcəklərini bildirən ayənin vəhy edildiyi dövrdə yəhudilər çox çətin vəziyyətdə yaşayırdılar və bir dövlətləri də yox idi. Ancaq illər sonra Quranın bir möcüzəsi baş verdi və 1948-ci ildə Devid Ben-Qurion (solda) İsrail dövlətinin qurulduğunu elan etdi.**





dövrümüzdəki siyasi və hərbi gücü, təsiri isə bilinən bir həqiqətdir.

İsrail oğulları ilə əlaqəli olan bu ayədə və başqa ayələrdə mühüm olan məqamlardan biri həmin dövrdə imkansız görünən və olmasına dair heç bir inkişaf və ya ipucu olmayan hadisələrin gələcəkdə baş verəcəyinin xəbər verilməsidir. Əlbəttə, bütün bunlar Quranın bir möcüzəsidir.

***«Bir zaman Peyğəmbər öz zövcələrindən bəzilərinə gizli bir söz demişdi. (Həmin xanımlardan biri) bu sözü xəbər verdikdə və Allah bunu ona əyan etdikdə, (Peyğəmbər) bunun bir qismini bildirmiş, bir qismini bildirməkdən isə vaz keçmişdi. Əhvalatı bildirdikdə o: "Bunu sənə kim xəbər verdi?" - deyə soruşmuş, o da: "Bunu mənə hər şeyi bilən, hər şeydən agah olan Allah xəbər verdi!" - deyə cavab vermişdi». («Təhrim» surəsi, 3)***

Bu ayədə bildirildiyi kimi, Peyğəmbərimiz xanımlarından bəzilərinə bir sirr vermişdir. Ancaq onlar bu sirri saxlamayaraq bir-birlərinə ötürmüşdülər. Allah Peyğəmbərimizə onların bu davranışını bildirmiş və aralarındakı gizli danışıqları onlara xəbər vermişdir. Bunun üzərinə Peyğəmbərimiz zövcələrinə, aralarındakı gizli danışığı bildiyini söyləmişdir.



## Peyğəmbərimizin hədislərində bildirdiyi qeyb xəbərlərindən bəziləri

***«Siz Misiri fəth edəcəksiniz. Həmin yer (pula) «qirat» deyilən yerdi. Oranın xalqına xeyir tövsiyə edin. Onların bir zimmət, bir də rəhim (haqqı) vardır».[220]***

Peyğəmbərimiz (s) hədislərində Misirin fəth ediləcəyini müjdələyir. Peyğəmbərimiz (s) bu müjdəni verdiyi ərəfədə Misir romalıların hakimiyyəti altında idi. Həmçinin müsəlmanların hələ heç gücləri də yox idi. Ancaq Peyğəmbərimizin (s) bu sözləri həqiqət olmuş, vəfatından çox vaxt ötməmiş ikinci xəlifənin dövründə, miladdan sonra 641-ci ildə, Misir Amr bin Asın rəhbərliyi altında müsəlmanlar tərəfindən fəth edilmişdir.[221] Bu hadisə Peyğəmbərimizin (s) gerçəkləşən qeyb xəbərlərindən biridir.

***«Kisra ölәndən sonra ondan başqa Kisra yoxdur. Qeysər də ölәndən sonra başqa Qeysər yoxdur. Nəfsim əlində olan Cəlal sahibinə and olsun ki, siz hər ikisinin də xəzinələrini Allah yolunda xərcləyəcəksiniz».[222]***

Bu hədisdə bildirilən «Kisra» kəlməsi keçmişdə İran hökmdarları üçün istifadə edilən bir addır. Qeysər (Sezar) sifəti isə Roma imperatoru üçün istifadə edilirdi.

Peyğəmbərimiz hər iki hökmdarın malik olduğu xəzinələrin müsəlmanlara qalacağını müjdələmişdir.

Burada diqqət yetirməli olduğumuz məsələ Peyğəmbərimizin (s) bu xəbəri müjdələdiyi dövrdə müsəlmanların hərbi, iqtisadi və siyasi baxımdan hələ belə böyük bir fəthə girişməyə güclərinin olmamasıdır. Həmçinin bu dövrdə İran və Bizans imperatorluqları da Yaxın Şərqə hakim ən güclü iki dövlət idi. Peyğəmbərimizin xəbər verdiyi bu hadisələr də baş vermişdir. İkinci xəlifənin dövründə İran fəth edilmiş və qənimətləri ələ keçirilmişdi. Bu fəthlə birlikdə kisraların səltənəti də sona çatmışdır.[223]

Qeysərin ölümü və xəzinələrinin müsəlmanlara qalması isə, xüsusilə müsəlmanların xəlifələr dövründə Roma imperatorluğuna aid çox vacib mərkəzləri fəth etmələri ilə baş vermişdir. Əbu Bəkrin dövründən başlayaraq Qeysərin hakimiyyəti altındakı İordaniya, Fələstin, Şam (Dəməşq), Qüds, Suriya, Misir kimi mühüm mərkəzlərin hamısı fəth edilmişdir. İstanbulun 1453-cü ildə Osmanlı hökmdarı Fateh Sultan Mehmet tərəfindən fəth edilməsi və Roma imperatorluğunun süqutu ilə birlikdə Qeysər də tarixə dəfn edilmişdir.[224]

Amerikalı tədqiqatçı M.G.S. Hodgson «İslamın sərgüzəşti» adlı kita-



**Fateh Sultan Mehmetin İstanbulu fəth etməsi və Roma İmperatorluğunun süqutu, Qeysər (Sezar) dövrünün də sonu demək idi.**

bında müsəlmanların Bizans və Sasani (İran) imperatorluqlarına aid yerlərin fəthini belə açıqlayır:

> *«Hz. Muhəmməd məkkəli bir ərəb olaraq Mədinədə dini əsaslara görə təşkilatlanmış bir cəmiyyət qurur, Sasani (İran) və Roma imperatorluqlarına hücum edəcək bu cəmiyyəti Ərəbistan yarımadasının əksər hissəsinə yayır».*[225]

Beləliklə, Peyğəmbərimizin (s) dövründə siyasi və iqtisadi baxımdan çox çətin kimi görünən bu vacib fəthlər Allahın Hz. Muhəmmədə bəxş etdiyi möcüzələr olaraq baş vermişdir.

***«Uca Allah Kisranı oğlu Şirəveyhin hücumuna məruz qoydu. Şirəveyh filan ayda, filan gecədə və gecənin filan saatında onu öldürdü».***[226]

***«Mənim dinim və hakimiyyətim Kisranın mülkünün və səltənətinin gedib çıxdığı yerə çatacaqdır».***[227]

Peyğəmbərimiz (s) hökmdarları İslama dəvət etməyə qərar vermiş və səhabələrindən Abdullah b. Huzeyfəni İran Kisrası Pərviz ibn Hörmüzə elçi olaraq göndərmişdi. İran Kisrası isə təkəbbüründən əsəbiləşmiş və Peyğəmbərimizin dəvətinə tabe olmamışdır. Hətta Peyğəmbərimizə iki elçi göndərərək müsəlmanların ona təslim olmalarını tələb etmişdir. Peyğəmbərimiz isə bu iki elçini əvvəl İslam dininə dəvət etmişdir. Sonra isə iki elçini ertəsi gün onlara qərarını bildirəcəyini söyləmişdir.[228]

Ertəsi gün Peyğəmbərimiz elçilərə Allahın ona bildirdiyi bu xəbəri çatdırmışdır:

> «Uca Allah Kisranın oğlu Şirəveyhi atasına düçar etdi. Şirəveyh atasını filan ayda, filan gecədə və gecənin də filan saatında öldürdü!»[229]

Peyğəmbərimiz elçilərə belə demişdir:

*«Bazana (Kisranın vasitəçi olaraq elçi göndərməsini əmr etdiyi başçı) deyin ki: «Mənim dinim və hakimiyyətim Kisranın var-dövlətinin və səltənətinin çatdığı yerə kimi gedib çıxacaqdır». Yenə ona deyin: "Əgər sən müsəlman olsan, hazırda rəhbərlik etdiyin yerləri sənə verəcəyəm, səni Əbnalardan (Cənubi Ərəbistanda məskunlaşan iranlılar) meydana gələn qövmə hökmdar edəcəyəm"».*[230]

Bundan sonra elçilər Yəmənə qayıdaraq baş verənləri danışdılar. Eşitdiklərindən çox təsirlənən Bazan bunu: *«Allaha and olsun ki, bu hökmdar sözü deyil. Güman edirəm ki, bu şəxs dediyi kimi bir peyğəmbərdir»*[231] sözləri ilə ifadə etdi. Sonra da adamlarından: *«O necə adam idi?»,* - deyə soruşdu. Peyğəmbərimizin (s) heybətindən çox təsirlənən elçilər *«Biz ondan daha heybətli, heç bir şeydən qorxmayan və mühafizəçisiz olan bir hökmdar görmədik. Təvazökar idi və piyada olaraq camaatın arasında gəzirdi»,* - dedilər.

Bazan bir müddət gözləyib Peyğəmbərimizin Kisra haqqındakı dediklərinin düz çıxıb-çıxmayacağını görmək istədi. Beləliklə, Peyğəmbərimizin Allahın elçisi olduğuna arxayın olacağını bildirdi. Aradan qısa bir müddət ötəndən sonra Kisranın oğlu Şivəreyhdən Bazana bu mənada bir məktub gəldi:

*«Mən Kisranı öldürdüm. Bu məktub sənə gəlib çatan kimi mənim adımdan xalqın beyətini al, Kisranın sənə yazdığı şəxs haqqında da yeni bir əmrim gələnə kimi gözlə və heç bir təşəbbüsə keçmə».*[232]

Bazan və adamları hesablarında bu hadisənin eynilə Peyğəmbərimizin (s) bildirdiyi vaxtda meydana gəldiyini gördülər.[233] Bazan bu böyük möcüzəni görəndən sonra iman gətirdi və müsəlman oldu. Onun ardınca Yəməndə oturan Əbnalar müsəlman oldu.[234] Bazan Peyğəmbərimizin təyin etdiyi ilk başçı idi və İran-Sasani valilərindən imana gələn ilk şəxs idi.[235]

Peyğəmbərimizin 628-ci ilində İran Kisrası Pərvizi İslama dəvət edən bir məktub göndərdiyi və İran Kisrasının oğlu tərəfindən 628-ci ildə öldürüldüyü tarixi mənbələrdə də bildirilən bir hadisədir.[236]

## Peyğəmbərimizin (s) axırzaman əlamətləri haqqında bildirdikləri

Axırzaman qiyamətdən əvvəl dünyada yaşanacaq bir dövrdür. Peyğəmbərimizin (s) axırzamanda baş verəcək hadisələr haqqındakı bir çox xəbəri bizə çatmışdır. Bu hadisələrin hazırda yaşadığımız dövrdə bir-bir baş verməsi Peyğəmbərimizin (s) möcüzələrindən biridir. *(Ətraflı məlumat üçün Harun Yəhyanın «Qiyamətin əlamətləri», «Hz.Süleyman», «Axırzaman əlamətləri və Dabbətul arz» kitablarına baxın).* Hz.Muhəmməd (s) öz yaşadığı dövrdən 1400 il sonra meydana gələn hadisələri, sanki həmin dövrü müşahidə etmiş kimi ətraflı bildirmişdir.

*«Qiyamətdən əvvəl anarxiya və xaos günləri vardır».*[237]





**Axırzaman əlamətlərindən olan terror və zorakılıq hadisələri dünyanın bütün ölkələrində daha da şiddələnərək davam edir.**







**Peyğəmbərimizin keçmişdən verdiyi xəbərlər və günümüzdə baş verən hadisələr arasındakı paralellik bu müqəddəs insanın saysız-hesabsız möcüzələrindən birini bizə göstərir.**





***«Dünya hərc-mərclik içində qalanda, fitnələr zühur edəndə, yollar kəsiləndə, bəziləri bəzilərinə hücum edəndə...»***[238]









**Bu gün dünyanın əksər ölkələrində baş verən və səbəbsiz yerə dinc əhalinin öldürüldüyü müharibələr də Peyğəmbərimizin (s) xəbər verdiyi qiyamət əlamətlərindəndir.**







*«Allah açıq-aşkar inkar edilməyənə kimi qiyamət qopmaz».*[239]




**Çox geniş yayılmış ateist internet saytlarından nümunələr**

***«Böyük şəhərlər dünən sanki yox imiş kimi məhv olar».[240]***



**Hədislərdə bəhs edilən qiyamət əlamətlərindən biri də şəhərlərin yox olmasıdır. Yaxın dövrlərdə Meksika (sağda) və Tokioda (aşağıda) baş verən zəlzələlər hədislərin təcəllələrındandır.**





***"Aclıq və bahalıq çox geniş yayılacaq".*** [241]


Number of People Living in Poverty Increases in US

By Robert Pear

New York Times
September 25, 2002






South Review, 9 December 2001

Poor Nutrition Killing Children Worldwide

Number of children living in poverty rises by 100,000

The Independent, 6.10.2000

**Dünyadakı çoxlu yeraltı sərvətlərə baxmayaraq dünyanın müxtəlif ölkələrində şiddətli aclıq yaşanır. Bu vəziyyət bütün insanların üzərində fikirləşməli olduğu əlamətlərdəndir.**

*«Kişilər kişilərlə, qadınlar qadınlarla kifa-yətlənəndə qiyamət yaxınlaşacaq».*[242]

**Peyğəmbərimizin (s) 1400 il əvvəl xəbər verdiyi həmcinslərin azğınlıqları bu gün dünyanın bir çox yerində müşahidə edilir.**



The Telegraph, 19.07.2000

*«Qiyamət yaxınlaşanda yolun ortasında qadınla cinsi münasibətdə olacaq qədər həya aradan qalxar».*[243]



PREGNANT AT 11

Schoolgirl's teenage boyfriend went to her mum and confessed

Child Prostitution On The Rise In Asia

South Review, 5 August 2001

*«Cinayətlər çoxalmayana kimi qiyamət qopmaz».*[244]



For a long, tragic day two teens, armed with guns, bombs and a relentless fury, laid brutal siege to Columbine High. The hours of horror—and portraits of the killers.

ANATOMY OF A MASSACRE

Newsweek,8 May 99

The Daily Telegraph, 9.5.2000



Boy, 12, stabbed to death in crowded Soho street

By John Steele, Crime Correspondent

***Taliqana (Əfqanıstana) yazıq oldu. Şübhəsiz ki, Uca Allahın orada qızıl və gümüş olmayan xəzinələri vardır. Orada Allahı haqqı ilə bilən insanlar vardır.[245]***

Hədisdə Əfqanıstanın axırzamanda işğal ediləcəyinə işarə var. Rusların Əfqanıstanı işğalı 1979-cu ilə, hicrətin 1400-cü ili, başqa bir ifadə ilə hicrətin XIV əsrinin başlanğıcına uyğun gəlir.





*Afghan rebel leaders in Pakistan: 'The Russians gave the order to shoot'*

# Massacre in Afghanistan

For months, Afghan refugee camps in

tained from many refugees tally on every

Afghan soldie
to line up, then thei
the villagers for betr
President Nur Muham
Prime Minister Hafizu
later overthrew Taraki an
himself a few weeks ago).
ers refused to shout their lo
ordered to press tightly tog
officer took their photos, fi
men into each picture as
would allow.

**A Field of Corpses:** The
told to squat on their heels
hands in the air. "The Russians
order to shoot; I heard them,"
Madez Khan. Once again, the ar
tographer came forward, this time
pictures of the corpses before a
plowed them under. In response to
ing village woman who had run u
the green-eyed Soviet officer decl

Newsweek, 11 fevral 1980





**Şəkillərdə 1979-cu ildə Rus (SSRİ) ordusunun işğalı zamanı Əfqanıstan xalqının məruz qaldığı zülmün nümunələri görünür.**





***Rəsulullah: «Fərat çayı qızıl bir dağın üzərindən açılmayana kimi qiyamət qopmayacaqdır...»[246]***

***Fərat çayının suyu çəkilərək qızıl xəzinəsini açığa çıxarması vaxtı yaxınlaşır. Hər kim həmin vaxtı orada olarsa, o xəzinədən heç nə almasın.[247]***

**Bu hədis Suyutinin kitabında «suyun dayandırılması» olaraq qeyd edilir. Həqiqətən də şəkildə görünən Kəban su anbarı Fərat çayının suyunu dayandırmışdır.**


Fırat suyunun kesilme tarihi yaklaşınca Suriye ve Irak'taki telâş arttı

Komşuda su krizi

13 Ocak-13 Şubat arasında Fırat nehrinin suyunu keseceğiz

**İnşa edilən su anbarı sayəsində enerjinin istehsalı, yığılan suyun ərazilərdə istifadə edilərək torpağın məhsuldarlığının artması və nəqliyyat asanlığının təmin edilməsi kimi səbəblərlə buradakı torpaqlar «qızıl» kimi qiymətli hala gəlmişdir.**



**Aşağıdakı şematik rəsmdən də aydın olduğu kimi, su anbarı betondan nəhəng bir dağı xatırladır. Bu su anbarından (hədisdəki oxşatmaya görə dağdan) qızıl dəyərində sərvət tökülür. Dolayısı ilə su anbarı «qızıl dağ» xüsusiyyətini qazanır. (Doğrusunu Allah bilir)**



***Dünyanın xaraba olan yerlərinin bərpası, bərpa edilmiş yerlərin xarabaya qalması qiyamətin şərti və əlamətlərindəndir.*[248]**



**Alman parlamentinin (Reichstag) xarabalıq halı (1945-ci ili). Aşağıdakı şəkildə isə eyni binanın 1999-cu ilində təkrar inşa edilmiş halı görünür. Eyni ilə bir çox bina bərpa edilir və əvvəlki vəziyyətinə yenidən qovuşdurulurlar.**



***Mehdi üçün 2 əlamət var... Bunun birincisi, Ramazan ayının birinci gecəsi Ayın, ikincisi də ortasında Günəşin tutulmasıdır.[249]***

***Mehdinin çıxmasından əvvəl bir Ramazan ərzində Günəş iki dəfə tutulacaqdır.[250]***

***Ramazanda iki dəfə Ay tutulması olacaqdır.[251]***

Yuxarıdakı hədislərdən çıxan ortaq nəticələr bunlardır:

1. Ramazan ayında Ay və Günəş tutulmaları olacaqdır.
2. Bu tutulmalar təxminən 14-15 gün ara ilə olacaqdır.
3. Tutulmalar iki dəfə təkrarlanacaqdır.

Buna uyğun olaraq 1981-ci ildə (hicrətin 1401-ci ilində) Ramazan ayının 15-ci günü Ay, 29-cu günü Günəş tutulmuşdur. Yenə «ikinci olaraq», 1982-ci ildə (hicrətin 1402-ci ilində) Ramazan ayının 14-cü günü Ay, 28-ci günü də Günəş tutulmuşdur.

Həmçinin bu hadisədə Ayın Ramazan ayının tam ortasında BƏDRLƏNMİŞ AY halında tutulması və diqqətləri çəkəcək bir əlamət olaraq ortaya çıxması da son dərəcə mənalıdır.






Sky Telescope
Magazine, iyul 1999






(Yuxarıda) 1981-ci ilin iyul ayının 31-də baş verən Günəş tutulmasının şəkli.
(Ən yuxarıda) 1981-ci ildə baş verən Ay tutulmasının «Sky Telescope» jurnalının 1999-cu ilinin iyul tarixli sayında nəşr olunan şəkli.
Soldakı təqvim səhifələrində isə 1981 və 1982-ci illərdə baş verən Ay və Günəş tutulmalarının tarixləri görünür.




20th Chronicle (3/1986) p. 1278

**Quyruqlu ulduzun süni peykdən göndərilən şəkilləri**
**6 mart Sovet «Veqa 1» kosmosu bu gün Halley quyruqlu ulduzunun 5500 mil yaxınlığından uçdu və quyruqlu ulduzun buzlu nüvəsinin ilk şəkillərini göndərdi...**

***O gəlməmişdən əvvəl, şərqdən işıq saçan bir quyruqlu ulduz görünəcəkdir.***[252]

***O ulduzun çıxması, Günəş və Ay tutulmasından sonra olacaqdır.***[253]

***Şərq tərəfindən bir quyruqlu ulduz çıxıb işıq saçacaqdır. Onun hər günkü keçid istiqaməti şərqdən qərbədir.***[254]

- 1986-cı ildə (hicri 1406-cı ildə), yəni XIV əsrin əvvəllərində «Halley» quyruqlu ulduzu dünyamızın yaxınlığından keçmişdir. Bu quyruqlu ulduz parlaq, işıqlı bir ulduzdur.

- Hərəkət istiqaməti şərqdən qərbə tərəfdir.

- 1981 və 1982-ci (1401 - 1402) illərdə meydana gələn Ay və Günəş tutulmaları hadisəsindən sonra ortaya çıxmışdır.

***İnsanlar başlarında bir imam olmadığı halda, həcc edərlər. Minaya gələndə ətrafları, itlərin bir-birinə girişdiyi kimi qəbilələrin bir-birinə girməsi ilə böyük döyüşlər baş verər. Belə ki, ayaqlar qan gölü içində qalar.[255]***



# Sacrilege in Mecca

TIME, 3.12.1979

*Agony and hysteria as zealots seize the Sacred Mosque*

It was as great a sacrilege to devout Muslims as an attack on Jerusalem's Church of the Holy Sepulchre would be to Christians, or a profanation of the Wailing Wall would be to Orthodox Jews. Last week, a day before the beginning of the Islamic New Year, a mysterious band of Muslim fanatics seized the Sacred Mosque of Mecca, taking an unknown number of hostages. At week's end, the situation at the Sacred Mosque was unclear. Government officials in Riyadh said that Saudi armed forces, including the crack National Guard commanded by Prince Abdullah ibn Abdul Aziz, were in "complete control" of the mosque. Other sources, however, suggested that some of the invaders were holding out.

Yet the violent anti-Western, anti-American reaction of the mobs reflected the uncertain currents of emotional fervor that the Ayatullah has helped loose within the volatile world of Islam.

The Sacred Mosque is a gigantic holy place that can hold as many as 300,000 worshipers. At the center of its courtyard, which is 40 acres in size, is the Ka'ba. Muslims believe that this cube-shaped structure, covered always by a black cloth embroidered in gold, was erected to God by Abraham and that it was cleansed of idols by the Prophet Muhammad in A.D. 630. The Ka'ba is the chief focus of prayer and ritual during the hajj, the annual pilgrimage that this year drew more than 2 million Muslims to Mecca.

chine guns, hand grenades and daggers.

The group was led by a man in his early twenties, whose name was said to be Mohammed Abdullah al-'Utaibah. At the beginning of the call to prayer, the young man asked the imam who was leading the service to declare him the new Mahdi—the Islamic messiah. According to the belief of some Muslims, the Mahdi is supposed to appear during the new century. The imam refused; in the ensuing scuffle his assistant was shot and killed. "We are the followers of the Savior," cried the invaders, as they charged across the great square and surrounded the Ka'ba. A similar attack was attempted that morning at the Prophet's Mosque in Medina, 200 miles to the north, but that assault failed because authorities learned of it in advance.

When word of the invasion reached Riyadh, Saudi Arabia's King Khalid or dered the cutting of all telephone a telex lines to the outside world until he could establish whether the gunmen we connected with any outside group. Th as required by Islamic law, his govern ment sought the permission of the 'ulam the religious leadership, to make a c

**1979-cu ildə həcc əsnasında baş verən Kəbə hücumunda, eynilə hədisdə bildirildiyi kimi, bir qətliam yaşanmışdır. Bu qanlı Kəbə hücumu da axırzaman əlamətlərinin ardıcıllıqda çıxdığı dövrün tam əvvəlində, yəni hicrətin 1400-cü ilinin ilk günündə, 1400-cü ilin məhərrəm ayının 1-də meydana gəlmişdir.**

Turkiye, 12.8.1987



Mekke Olayları'nın içyüzü

KENAN AKIN

Saldırıda bulunanlar sanki uyuşturulmuş gibiydi

Harem-i Şerif'in işgalinden korkuluyordu

İşte kanlı arbede!

12 AĞUSTOS 1987 ÇARŞAMBA

Türkiye

GÜNLÜK SİYASİ GAZETE

**1979-cu ildə (hicrətin 1400-cü ili) baş verən bu Kəbə hücumundan 7 il sonra hicri təqvimlə 1407-ci ildə həcc ziyarəti əsnasında daha böyük qanlı bir hadisə baş vermişdir. Bu hadisədə küçələrdə nümayiş edən zəvvarlara edilən hücum nəticəsində 402 nəfər öldürülmüş, daha çox qan axıdılmışdır. Beytul Muazzamanın yanında müsəlmanların (Səudiyyə Ərəbistanı əsgərləri ilə iranlı zəvvarların) bir-birlərini öldürmələri ilə böyük günahlar törədilmişdir. Bu qanlı hadisələr mövzu ilə bağlı hədislərdə bildirilən vəziyyətlə çox böyük oxşarlıqlar daşıyır.**



İranlı hacı adayları Humeyni'nin posterleriyle gösteri yapmak istedi

Kâbe kana bulandı

Mekke'de çatışma:

S.Arabistan'ın açıklaması

402 ölü

KENAN AKIN Mekke'den bildiriyor

GÜVENLİK KORDONU

Tğrkiye Gazetesi, 2 avqust 1987

Iranian pilgrims attempted to hold a demonstration carrying posters of Khomeini.

CLASH IN MECCA: Death toll at 402

***Şərqdən üç və ya yeddi gün ardıcıllıqla böyük bir atəş çıxacaq, göydə qaranlıq müşahidə ediləcək, göydə həmişə görünən qırmızılığın əksinə, başqa qırmızımtıllıq yayılacaq.[256]***

***Bir atəş sizi saracaqdı. Həmin atəş bu gün Bərəhut adlandırılan vadidə sönmüş vəziyyətdir. O atəş içində müdhiş əzab olduğu halda, insanları əhatələyər. O atəş insanları, malları yandırıb yaxar. Səkkiz gün ərzində küləklə bulud kimi uçaraq dünyanın hər tərəfinə yayılar. Gecənin istiliyi günortanın hərarətindən daha da şiddətlidir. Həmin atəş insanların başının üstündən ərşin altına kimi təxminən dünya ilə səma arasında göy gurultusu kimi dəhşətli gurultusu olar, - buyurdu.[257]***



**1991-ci ilin iyul ayında İraqın Kuveyti işğal etməsi və Kuvəytə aid neft quyularını yandırması nəticəsində Kuveyt və Bəsrə körfəzini çox böyük atəş sarmışdır.**

- Kuveytdə yanan neft insanların və heyvanların ölümünə səbəb olmuşdur. Mütəxəssislərə görə, gündə yarım milyon ton neft yanaraq tüstü halında atmosferə qarışır. Hər gün 10 min tondan çox hiss, kükürd, karbondioksid və çox miqdarda xərçəng xəstəliyi yaradan hidrokarbonatlar bulud kimi körfəzin üzərində asılı durur... Təkcə Körfəz deyil, onun timsalında dünya yanır.[258]

- Yandırılan iki quyu Türkiyənin bir gündə çıxara bildiyi miqdarda neft hasil edir və dumanlar 55 km uzaqlıqda Səudiyyə Ərəbistanından da görünürdü.[259]

- Körfəzdə sönməyə dair fəlakət xəbərləri: Kuveytdə yandırılan yüzlərlə neft quyusu alov-alov yanır. Mütəxəssislərin «söndürmək üçün çox çətin» dedikləri neft quyularındakı yanğının Türkiyədən Hindistana kimi geniş bir ərazini ən azı 10 il müddətdə təsir edəcəyi bildirilir.

Yandırılan neft quyularından çıxan atəş və tüstülər davamlı olaraq atmosferi kirlədir. Kuveyt gecələr gündüz mənzərəsi kimi idi. Alovlarla yüksələn duman rəngli tüstü Kuveyt səmalarında payızdan qış fəslinə keçidi xatırladır... Kuveytin yenidən yaşayış yeri halına gəlməsi üçün ən az bir illik vaxta ehtiyacı var. Kilometrlərlə uzanan alovlarla birlikdə yüksələn tüstülər Kuveyt səmalarını tamamilə əhatə edərək, ölkəni yaşanmaz hala gətirir və imkanlılar Kuveyti tərk edirlər.[260]



**Səddamın əmri ilə əsgərlər Kuveytdəki neft quyularını yandırdı.**

***O, (Mehdi), Günəşdən bir əlamət olana kimi gəlməyəcəkdir.[261]***

1999-cu ilin avqust ayının 11-də baş verən Günəş tutulması əsrimizin axırıncı tam Günəş tutulmasıdır. İlk dəfə bu qədər çox insan Günəş tutulmasını bu qədər uzun müddət seyr edə bilmiş, görmək imkanı tapmışdılar. Aşağıda 1999-cu ildə baş verən Günəş tutulması ilə əlaqədər dərc edilən bəzi qəzet xəbərləri verilib. Bu hadisə də hədisdə bildirilən «Günəşdən bir əlamət» olaraq dəyərləndirilə bilər. (Doğrusunu Allah bilir)




Günəşdən gələn bu əlamət XX əsrdə görünən partlayış da ola bilər. Yandakı şəkil, Günəşin 1996-cı ildə çəkilən şəklidir. Sağda görünən isə 2000-ci ildə çəkilən Günəşin partlayışlar nəticəsində aldığı son halının görüntüsüdür.



***Tozlu-dumanlı, qaranlıq bir fitnə görünəcək, bunun ardınca digərləri gələcək...*** [262]



Fitnə «insanın ağlını və ürəyini birbaşa haqq və həqiqətdən azdıracaq şey, döyüş, azdırmaq, qarışıqlıq, ixtilaf, dava» kimi mənalara gələn bir kəlmədir. Hədisdə bu fitnənin ardınca toz və duman buraxacağı bildirilir.



Həmçinin bu fitnənin «qaranlıq» olaraq bildirilməsi, hardan gəldiyi bilinməyən, gözlənilməyən bir hadisə olduğuna işarə olaraq qəbul edilir. Bu prizmadan məsələyə yanaşanda, hədisin 2001-ci ilin 11 sentyabr ayında Amerika Birləşmiş Ştatlarının Nyu York və Vaşinqton şəhərlərində meydana gələn, dünya tarixinin ən böyük terror hadisəsi olaraq qeyd edilən, hücuma məruz qalmasına işarə etməsi ehtimalı ola bilər.



***Ondan əvvəl Şam (Dəməşq) və Misir məlikləri öldürüləcəkdir...*[263]**


The New York Times

SADAT ASSASSINATED AT ARMY PARADE
AS MEN AMID RANKS FIRE INTO STANDS;
VICE PRESIDENT AFFIRMS 'ALL TREATIES



**1970-ci ildə Misirə rəhbərlik edən və 11 il hakimiyyətdə qalan Ənvər Sədat 1981-ci ildə rəsmi keçid əsnasında müxalifləri tərəfindən təşkil edilən suiqəsd nəticəsində öldürüldü. Misir tarixində öldürülən rəhbərlərdən digərləri 1910-cu ildə suiqəsdə məruz qalan Baş nazir Butros Qali, 1945-ci ildə öldürülən Misirin Baş naziri Əhməd Mahər Paqa və 1948-ci ildə yenə suiqəsd nəticəsində öldürülən Misirin Baş naziri Mahsud Nuxrasi Paşadır.**



**Liviyadakı keçmiş Falanjist lideri Bəşir Cəmayəl**

**Şam (Dəməşq) sözü təkcə Suriyadakı Dəməşq şəhəri üçün işlədilməz. «Şam» sözünün ərəb dilindəki mənası «sol» mənasına gəlir və keçmişdən bəri Hicaz bölgəsinin (Məkkə və Mədinə şəhərlərinin yerləşdiyi ərazi) sol tərəfində qalan ölkələri ifadə edirdi. Şam bölgəsinin rəhbərlərindən də suiqəsdə məruz qalan çox sayda insan olmuşdur. Bunlardan bir neçə misallar: 1920-ci ildə öldürülən Suriyanın keçmiş prezidenti Salah əl-Deen Beetar (aşağı sol), 1921-ci ildə öldürülən Suriyanın Baş naziri Droubi Paşa, 1949-cu ildə suiqəsdə məruz qalan Suriyanın Baş naziri Muhsin əl-Bərazi, 1951-ci ildə öldürülən İordaniya kralı Abdullah (alt sağ), 1982-ci ildə bombalı suiqəsdə məruz qalan Liviyanın Falanjist lideri Bəşir Cəmayəl, İraqın keçmiş dövlət başçısı Abdulkərim Qasım isə 1963-cü ildə İraq Hava qüvvələri tərəfindən edilən inqilab nəticəsində öldürülmüşdür.**





*"Şam əhli misirli qəbilələri əsir alacaqlar".*[264]

**Bu gün bəhs edilən ərazidə mövcud olan dövlətlər arasında İsrail də var. Dolayısı ilə bu hədisdə İsrail dövlətinin Misirlə olan müharibələrinə və Misir torpaqlarını işğalına işarə ola bilər.**






**1956-cı ilin oktyabr ayının 26-sında İsrail Misirə hücum etdi və Sina yarımadasını işğal etməyə başladı. BMT-nin məsələyə müdaxilə etməsindən sonra döyüşlər səngidi və İsraillə sərhəddə BMT-nin sülhməramlı ordusu yerləşdirildi.**



**1967-ci ilinin 6 günlük müharibələri isə İsrail - Misir arasındakı başqa bir müharibə idi. Bu müharibənin nəticəsində İsrail Qəzza bölgəsi ilə Sina yarımadasının hamısını, Şəria çayının qərb sahilini, Qüds şəhərini və Qolan təpələrini ələ keçirdi.**

***Bu hadisələr meydana gəlməyənə kimi qiyamət qopmayacaqdır... zəlzələlər çoxalacaq...[265]***

***Qiyamətdən əvvəl iki böyük hadisə var... və sonra da zəlzələli illər.[266]***


VOL. LV...NO. 17,617. NEW YORK, THURSDAY, APRIL

OVER 500 DEAD, $200,000,000 LOST IN SAN FRANCISCO EARTHQUAKE

Nearly Half the City Is in Ruins and 50,000 Are Homeless.

WATER SUPPLY FAILS AND DYNAMITE IS USED IN VAIN

Great Buildings Consumed Before Helpless Firemen—Federal Troops and Militia Guard the City, With Orders to Shoot Down Thieves—Citizens Roused at Early Morning by Great Convulsion and Hundreds Caught by Falling Walls.

Burning of the Opera House.

Thousands Watch the Flames.

CNN.com / WORLD

SEARCH GO

MAIN PAGE
WORLD
U.S.
WEATHER
BUSINESS
SPORTS
POLITICS
LAW
SCI-TECH
SPACE
HEALTH
ENTERTAINMENT
TRAVEL
EDUCATION
CAREER
IN-DEPTH

Strong quake rattles southwestern Japan

March 24, 2001
Web posted at: 3:06 AM EST (0806 G

TOKYO, Japan -- At least two people were injured after an earthquake measuring 6.4 shook western Japan, but there were n immediate signs of widespread damage.

The quake, centered about 61 kilometers (38 miles) below g struck at 3:28 p.m. local time

CNN.com / WORLD

SEARCH GO

MAIN PAGE
WORLD
U.S.
WEATHER
BUSINESS
SPORTS
POLITICS
LAW
SCI-TECH
SPACE
HEALTH
ENTERTAINMENT
TRAVEL
EDUCATION
CAREER
IN-DEPTH

QUICK NEWS
LOCAL
COMMUNITY
MULTIMEDIA

Earthquake rocks China, officials say

April 13, 2001
Web posted at: 1:50 AM EDT (0550 GMT)

BEIJING, China -- The second earthquake in three days in south-west China has killed at least two people, and injured at least 190 more.

Damage is said to be extensive from the magnitude 5.9 quake in the province of Yunnan, near China's border with Myanmar.

New York Times, 19 aprel 1906

## Axırzaman əlamətləri günümüzdə bir-birinin ardınca baş verir

Peyğəmbərimizdən rəvayət edilən hədislərdə axırzamanın və Qızıl dövrün əlamətləri xəbər verilmişdir. Günümüzdə baş verən hadisələri bu əlamətlərlə müqayisə edəndə isə axırzamanın hazırda yaşadığımız dövr olduğunu göstərən və eyni zamanda Qızıl dövrün gəlişini müjdələyən bir çox işarələr görürük.

Bunu da qeyd etməliyik ki, bu fəsildə bəhs etdiyimiz hədislərdə bildirilən əlamətlərin bir hissəsi 1400 illik İslam tarixinin hər hansı bir dövründə, dünyanın müəyyən bir ərazisində müəyyən faizdə görünə bilər. Belə bir vəziyyət həmin dövrün axırzaman olduğunu göstərməz. Çünki bir dövrün axırzaman olaraq adlandırılması üçün qiyamət əlamətlərinin hamısı eyni dövrdə, ardıcıllıqla baş verməlidir. Bu vəziyyət bir hədisdə belə ifadə edilmişdir:

> *«Qiyamət əlamətləri bir-birinin ardınca baş verir. Bir boyunbağıdakı muncuqların dalbadal qopması kimi...»*[267]

Axırzamanın başlanğıcı, hədislərdə fitnələrin çoxaldığı, müharibələrin və iğtişaşların artdığı, dünyada əxlaqsızlığın çox yayıldığı, din əxlaqından uzaq bir xaos şəraiti olaraq bildirilmişdir. Həmin dövrdə dünyanın hər yerində təbii fəlakətlər baş verəcək, yoxsulluğun səviyyəsi heç bir dövrdə olmadığı qədər artacaq, cinayətlərin nisbətində çox böyük yüksəlmə olacaq, cinayətlər və qətliamlar bir-birini təqib edəcəkdir. Ancaq bu, axırzamanın ilk mərhələsidir, ikinci mərhələdə Allah bəşəri bu xaos şəraitindən xilas edəcək, bolluq, bərəkət, rifah və əmin-amanlıq dolu bir həyat ilə bəndələrini nemətləndirəcəkdir.

*«Hündür binalar tikilməyənə kimi... qiyamət qopmaz».*[268]

*«Bu hadisələr baş verməyənə kimi qiyamət qopmayacaqdır... Hündür binalar tikməkdə insanlar bir-birləri ilə yarışacaqlar».*[269]



*«Bu hadisələr baş verməyənədək qiyamət qopmayacaqdır... Vaxt qısalacaq və vasitələrlə məsafələr qısalacaq».*[270]

*Vaxt qısalıb il ay, ay həftə, həftə gün, gün saat, saat da od yandıracaq qədər az vaxt halına gəlməyənə kimi qiyamət qopmaz.*[271]



Yaşadığımız əsrin səsdən sürətli təyyarələri, qatarları və başqa inkişaf etmiş nəqliyyat vasitələri ilə qədim dövrlərdə aylarla davam edən səyahətlər indi bir neçə saatın ərzində, həm də daha güvənli, rahat və komfortlu tərzdə edilə bilirlər. Hədisin işarəsi də bu şəkildə baş vermişdir.

Əsrlərlə əvvəl qitələr arasında həftələrlə davam edən xəbərləşmək hazırda internet və rabitə texnologiyaları ilə saniyələr ərzində həll edilir. Keçmişin karvanları ilə aylarla davam edən səyahətlər nəticəsində əldə edilən əşyalarını hazırda dərhal təmin etmək mümkündür. Çox deyil, hələ bir neçə əsr əvvəl bircə kitabın yazılması üçün lazım olan vaxtda bu gün milyardlarla kitab çap edilə bilir. Bütün bunlarla yanaşı, təmizlik, yemək bişirmək, uşağa baxmaq kimi gündəlik işlər «texnologiya ecazkarlığı» alətlərin köməyi ilə vaxt almadan həyata keçirilir.



Bu misallar asanlıqla çoxaldıla bilər. Əlbəttə, burada üzərində durmalı olan Peyğəmbərimizin (s) VII əsrdə xəbər verdiyi qiyamət əlamətlərinin günümüzdə eyni ilə baş verməsidir.





***İnsana qamçısının ucu danışmayana kimi... qiyamət qopmaz.*[272]**

Bilindiyi kimi, qamçı qədim dövrlərdə, xüsusilə at, dəvə kimi minik heyvanlarını sürərkən geniş yayılmış bir vasitədir, hədis tədqiq ediləndə Peyğəmbərimizin (s) bir təşbeh etdiyi məlum olur. Dövrümüzdə yaşayan insanlara belə bir sual soruşaq: «Qamçının şəklinə oxşada biləcəyimiz və danışan nəsnə nədir?»

Bu sualın ən məntiqli cavabı antenaları ilə diqqətimizi cəlb edən simsiz cib (mobil) telefonu və ya oxşar rabitə vasitələri olacaqdır. Cib telefonu və ya peyk telefonu kimi simsiz rabitə vasitələrinin çox qısa bir keçmişi olduğunu nəzərə alsaq, Peyğəmbərimizin (s) 1400 il əvvəl etdiyi təsvirin nə qədər hikmətli olduğu aydın olacaqdır. Qiyamətdən əvvəl zaman kəsiyinin içində olduğumuza dair bir xəbər də beləliklə təcəlli etmişdir.



***İnsana (öz) səsi danışmayana kimi... qiyamət qopmaz.***[273]

Hədisdəki mesaj çox aydındır: İnsanın öz səsini eşitməsinin axırzamanın bir xüsusiyyəti olduğu bildirilir. Şübhəsiz ki, insanın öz səsini eşidə bilməsi üçün əvvəlcə səsini yazması, sonra da qulaq asması lazımdır. Səs yazan və reproduksiya texnologiyası da XX əsrin bir məhsuludur. Bu inkişaf elmi bir mərhələ olmuş, xəbər ötürmə və media sektorlarının inkişafına səbəb olmuşdur. Səsin yazılması xüsusilə kompüter və lazer texnologiyalarındakı inkişaflarla daha da təkmilləşmişdir.

Qısası, günümüzün elektron alətləri, mikrafonları və səs gücləndiriciləri səsin yazılmasına və qulaq asılmasına imkan yaradır və bizə yuxarıdakı hədisin verdiyi xəbərin təcəlli etdiyini göstərir.



***Həmin günün əlaməti: Səmadan bir əl uzanacaq, insanlar ona baxacaq və görəcəklər.[274]***

***O günün əlaməti səmada uzadılmış və insanların özünə baxdığı bir əldir.[275]***

Yuxarıdakı hədislərdə bildirilən «əl» kəlməsinin ərəb dilindəki əsli «yəd»dir. Bu sözün lüğətdəki mənaları «əl»lə yanaşı, «güc, qüdrət, vasitə, qüvvət»dir. Bu hədisdə də həmin mənalarda işlədilməsi mümkündür.

İnsanların baxanda görə biləcəkləri bir «güc, qüdrət, vasitə, qüvvət» keçmiş vaxtlar üçün çox məna daşımır. Ancaq bu günün dünyasının imtina edilməz bir hissəsi olan televizor, kamera və kompüter kimi cihazlar hədislərdə bildirilən hadisəyə dəqiq olaraq aydınlıq gətirir. Yəni bu hədisdə bildirilən «əl» ifadəsi güc mənasında işlədilmişdir. Göydən dalğalar halında gələn görüntülərlə, yəni televizor yayımına işarə etdiyi bildirilir.



***«İnsanlar bir miqdar buğda əkəndə əvəzində yeddi yüz miqdar tapacaq... İnsan bir neçə ovuc toxum atacaq 700 ovuca həsəd edəcəkdir... Çox yağış yağmasına baxmayaraq, bir damcısı da boşa getməyəcək».[276]***

**Peyğəmbərimiz axırzamanda baş verəcək texnoloji vasitələrlə əlaqəli daha bir çox məlumatlar vermişdir. Hədislərdə müasir əkinçiliyə keçilməsi, yeni istehsal texnikalarının inkişaf etdirilməsi, toxum istehsalı və yağış sularının yeni su anbarları, süni göllər düzəldilərək dəyərləndirilməsi nəticəsində baş verəcək istehsal artımına diqqət çəkir.**




**Yandakı www.worldbank.org/html/cgiar/press/wheat3.html internet saytında buğda istehsalındakı artım haqqında belə deyilmişdir: «ƏSRİN MÖCÜZƏ TAXILI BUĞDA». Dünya Bankının ətraf mühitin inkişafı üzrə sədrin köməkçisi və CGIAR-ın rəhbəri İsmayil Saoageldin «Buğda bu əsrin möcüzə taxılıdır», - dedi. «Buğda istehsalındakı artım çox geniş yayılmış qıtlığın qarşısına keçir və Asiya, Latın Amerika, hətta qismən Afrika ölkələrində qida təminatını tarazlamış olur».**

**www.economic.idsc.gov.eg/book/agricul.htm adlı saytda buğda istehsalındakı məhsuldarlığın 1981-1982-ci illər ilə 1999-2000-ci illər arasında 90 faiz artacağı bildirilir.**



COOPERATIVE EXTENSION SERVICE
UNIVERSITY OF KENTUCKY • COLLEGE OF AGRICULTURE

# Molecular Farming

## Using Biotechnology in Agriculture for the Sustainable Production of New Materials

*Maelor Davies and Orlando Chambers, The Tobacco and Health Research Institute (THRI)*

*This publication is part of a series that seeks to provide science-based information about discoveries in agricultural biotechnology. The information in these publications comes from the Biotechnology Research and Education Initiative (BREI) committee, which comprises a multi-disciplinary team of research, extension, and teaching professionals from the College of Agriculture. The series is designed to help Kentuckians understand and assess the risks and benefits of agricultural biotechnology.*

BREI

**Introduction**

The science of biotechnology, now some 20 years old, has long promised the prospect of adapting agricultural crops and livestock to entirely new purposes. Just as genetically engineered bacteria have become routinely used for economical, efficient production of a wide range of medicinal proteins and industrial enzymes, plants and animals may be engineered to produce a variety of valuable biological molecules ranging from pharmaceuticals such as vaccines to polymers such as biodegrad-

**How Does Mo**

Until recent









**Günümüzdə texnlogiya çox sürətlə inkişaf edir, məhsulların həm keyfiyyətində, həm də istehsal miqdarında yüksək artıma səbəb olur. Xüsusilə də genetika elmində baş verən sürətli inkişaf texnologiyanın hər sahəsində olduğu kimi, əkinçilik texnologiyasında da böyük inqilab yaşanır.**

***Onun dövründə... ömürlər uzanacaqdır.*[277]**




**Peyğəmbərimizin (s) verdiyi bu xəbərin üzərindən on dörd əsr ötmüşdür. Məlumatlar ötən bu vaxt kəsiyində orta yaşam müddətinin hazırda yaşadığımız əsrdə əvvəlki bütün dövrlərdən daha çox olduğunu açıq-aşkar ortaya qoyur. Hətta XX əsrin əvvəli ilə axırı arasında da böyük fərq var. Məsələn, 1995-ci ildə anadan olan bir uşağın 1900-cü illərdə doğulan birinə görə orta hesabla 35 il daha çox yaşayacağı güman edilir.[278] Bu mövzudakı diqqəti cəlb edən başqa bir misal da keçmişdə 100 il yaşayan insanların çox nadir, günümüzdə isə daha çox olmasıdır.**

**İnsan ömrünün uzanması ilə əlaqəli proseslərin yarısından çoxu XX əsrdə baş vermişdir. Aşağıda qeyd etdimiz www.hsph.harvard.edu/review/special.html adlı internet səhifəsində də bu mövzu haqqında məlumatlar verilir. Bu səhifənin verdiyi bilgilərə görə «Amerikada insan ömrü 1900-cü ildə orta hesabla 48 il olduğu halda, 1995-ci ildə orta yaş həddi 78 ilə uzandı. ...Xüsusilə insanlar kasıb ikən daha gənc ölürdülər, adambaşına düşən gəlir artdıqca insan ömrü də uzandı. İkincisi, 1900-cü illərdə çox imkanlı adam olsanız, ömrünüzü uzada bilmək üçün edə biləcəyiniz bir şey yox idi, 1900-cı illərdə isə orta gəlirli olsanız da ala biləcəyiniz çox şeylər var».**

**Aşağıda qeyd etdiyimiz www.viewzone.com/aging.html internet saytında isə müxtəlif statistikalara yer verilir. Buna görə təzə doğulan bir uşağın orta hesabla 76 il ömrü olduğu bildirilir, ancaq bu orta yaş həddinə həmişə eyni qalmayacağı bildirilmişdir. Çünki «1796-cı ildə insan ömrü 24 il idi. 100 il sonra bu iki dəfə artdı və 48 il oldu. İndi isə 76 il». Səhifədə verilən məlumata görə: Amerika Akademiyasının Anti-Yaşlanma bölümündən dr. Ronald Klatz «Bu gün Amerikada doğulan uşaqların yarısı 100 yaşlarını görə biləcəklər, həm də sağlam olaraq», - deyir.**






## Nəticə

Allah Quranda peyğəmbərlərin əksəriyyətini möcüzələrlə göndərdiyini bildirir. Məsələn, Hz.Musa əsasını atanda əsası ilan şəklinə bürünmüşdü, əlini qoynuna salanda əli ağ olaraq çıxmışdı. Əsasını dənizə vuranda isə dəniz iki yerə ayrılaraq inananlara quru yol olmuşdu. Hz.İsa isə atasız dünyaya gəlmişdi, hələ beşikdə ikən danışmışdı, bir möcüzə olaraq xəstələri yaxşılaşdıra bilirdi... Bütün bu möcüzələr peyğəmbərlərin insanları razı salmaları, özlərinə inandırmaları üçün Allah dərgahından onlara verilmiş böyük dəstək və yardımdır.

Allah Hz.Muhəmmədin (s) də həm Quranda bildirilən möcüzələrlə, həm də ona bildirdiyi qeyb xəbərləri ilə dəstəkləmişdir. Peyğəmbərimiz (s) yaxın və uzaq gələcəkdə baş verəcək hadisələri bəzi təfərrüatları ilə xəbər vermişdir. Bunların baş verdiyini görmək isə həm möminlərin həvəslərinin artmasına səbəb olur, həm də iman gətirməyənlərin ürəklərinin İslama isinişərək iman gətirmələrinə səbəb olur.

Yaşadığı dövrdə baş verməsi imkansız kimi görünən, hətta necə gerçəkləşəcəyi xəyal edilə bilməyən hadisələrin bir-birinin ardınca baş verməsi Allahın Peyğəmbərimizə xüsusi bir elm verdiyinin açıq bir dəlilidir.

Bunu da bildirmək lazımdır ki, hidayət tapmayanlar Peyğəmbərimizin və Quranın aydın dəlillərinə, möcüzələrinə baxmayaraq, iman gətirməyəcəkdir. Allah bu həqiqəti Quranda belə bildirir:

> **«Allaha ürəkdən and içdilər ki, əgər onlara bir ayə gəlsə, ona mütləq inanacaqlar. De: “Ayələr ancaq Allahın yanındadır. Siz nədən bilirsiniz ki, onlara ayə gəldikdə yenə də iman gətirməyəcəklər?”» («Ənam» surəsi, 109)**

# Nəticə: Peyğəmbərimizə tabe olanlar qurtulanlardır

Peyğəmbərimizin (s) əxlaqını, onun hansı şərtlərdə necə davrandığını öyrənməyin ən mühüm səbəbi ona oxşamağa çalışmaq, təqvada, davranışda, səmimiyyətdə, təvazökarlıqda, təmizlikdə, iman şövqündə onu nümunə almaqdır. Günümüzdə insanların əksəriyyəti özlərinə müxtəlif insanları nümunə götürür, onların hərəkətlərini təqlid etməyə çalışır, onlar kimi danışıb, onlar kimi davranmağa səy göstərirlər. Halbuki bənzəməli, oxşamağa çalışmalı olduğumuz yeganə adamlar Peyğəmbərimiz (s) və onun qardaşları, əxlaq və təqva ilə oxşarı olan başqa peyğəmbərlərdir.

Allah ayələrində Allaha və Rəsuluna iman gətirməyin, peyğəmbəri müdafiə etməyin və onu izləməyin əhəmiyyətinə diqqət çəkir və bu adamların qurtulacaqlarını müjdələyir:

**«Biz onu göndərdik ki, siz insanlar Allaha və Onun Rəsuluna iman gətirəsiniz, Ona yardım edəsiniz, onu böyük sayıb ehtiramını saxlayasınız və Allahı səhər-axşam təqdis edib şəninə təriflər deyəsiniz!» («Fəth» surəsi, 9)**

**«...Ona iman gətirən, yardım göstərən və onunla endirilmiş nurun ardınca gedənlər - məhz onlar nicat tapanlardır!» («Əraf» surəsi, 157)**

Bu dövrdə Peyğəmbərimizi (s) dəstəkləmək isə ancaq Qurana tam tabe olmaqla və Peyğəmbərimizin (s) yolunu rəhbər tutmaqla, Quran əxlaqını Peyğəmbərimizin göstərdiyi səylərinə bənzər tərzdə bütün dünyaya yaymağa çalışmaqla, əxlaqca və davranışca gücünün çatdığının ən artıqlaması ona oxşamaq üçün səy göstərirlər. Belə bir davranış göstərildiyi təqdirdə Allah Peyğəmbərimizə (s) necə kömək etdisə, ona dəstək olanlara da kömək edəcək və yollarını açaraq onlara umulmayan müvəffəqiyyətlər verəcəkdir. Ancaq ən vacibi Peyğəmbərimizə (s) oxşamağa çalışaraq Rəbbimizin razılığını, mərhəmətini və cənnətini qazana bilməkdir.




«Göyləri və yeri yoxdan yaradan
Odur. Bir işin yaranmasını istədiyi
zaman, ona (o işə) yalnız: “Ol!” -
deyər, o da (dərhal) olar».
«Bəqərə» surəsi, 117

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə ortaya atılmış, ancaq heç bir müvəffəqiyyət qazana bilməmiş elmdən uzaq bir sayıqlamadan başqa bir şey deyil. Canlı aləmin cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə elmin kainatda və canlılarda çox açıq bir "nizam" olmasını sübut etməsi ilə çürümüşdür. Beləliklə, bütün kainatın və canlıların Allah tərəfindən yaradılması həqiqəti elm tərəfindən də sübut olunmuşdur. Təkamül nəzəriyyəsini ayaqda saxlaya bilmək üçün bu gün bütün dünyada aparılan təbliğat yalnız elmi həqiqətlərin təhrif edilməsinə, bu həqiqətlərin birtərəfli şəkildə izah olunmasına, elm görüntüsü altında söylənən yalanlara və yol verilən saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat da həqiqəti ört-basdır edib gizlədə bilmir. Təkamül nəzəriyyəsinin elm tarixindəki ən böyük yalan olması faktı son 20-30 ildə elm dünyasında getdikcə daha yüksək səslə dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinistlərin iddialarının tamamilə yanlış olduğunu ortaya qoymuş və bu həqiqət bir xeyli alim tərəfindən qeyd edilmişdir. Ələlxüsus da ABŞ-da biologiya, biokimya, paleontologiya kimi müxtəlif elm sahələrində çalışan alimlər darvinizmin artıq öz qüvvəsini itirdiyini görür, canlıların mənşəyini artıq yaradılış ilə açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutunu və yaradılışın dəlillərini başqa əksər çalışmalarımızda bütün elmi təfərrüatları ilə qeyd etdik və qeyd etməyə davam edirik. Ancaq bu məsələ çox əhəmiyyətli olduğu üçün burada da bir çox məsələləri xülasə etmək zəruri və faydalıdır.

## Darvini yıxan çətinliklər

Təkamül nəzəriyyəsi tarixi kökləri ilə qədim Yunanıstana qədər gedib çıxan bir təlim olsa da, o, yalnız XIX əsrdə əhatəli şəkildə ortaya çıxdı. Nəzəriyyəni elm dünyasının gündəminə salan ən mühüm hadisə Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Cinslərin mənşəyi" adlı kitabı oldu. Darvin bu kitabda canlıların müxtəlif növlərinin Allah tərəfindən ayrı-ayrılıqda yaradılması gerçəyinə qarşı çıxırdı. Darvinə görə, bütün cinslər müştərək bir atadan gəlirdi və onlar zaman ötdükcə kiçik dəyişikliklər sayəsində bir-birindən fərqlənmişdilər.

Darvinin nəzəriyyəsinin heç bir maddi dəlili yox idi. O, özü də bunu qəbul edirdi ki, bu nəzəriyyə yalnız "ortaya atılan məntiqi fikir" idi. Hətta Darvinin öz kitabındakı "Nəzəriyyənin çətinlikləri" başlıqlı geniş hissədə də etiraf etdiyi kimi, bu nəzəriyyə bir çox mühüm sual qarşısında aciz qalır.

Darvin zənn edirdi ki, onun nəzəriyyəsinin qarşısında dayanan çətinliklər elmin inkişafı ilə aradan qaldırılacaq, yəni elmi kəşflər bu nəzəriyyənin elmi əsaslarını gücləndirəcək. O, bunu kitabının bir çox yerində bildirmişdi. Ancaq durmadan inkişaf edən elm Darvinin bu ümidlərinin tam əksinə olaraq, həmin nəzəriyyənin başlıca müddəalarını bir-birinin ardınca sarsıdırdı.

Darvinizmin elm qarşısındakı məğlubiyyəti üç əsas başlıqda incələnə bilər:

1. Bu nəzəriyyə həyatın Yer üzündə ilk dəfə necə ortaya çıxdığını heç cür açıqlaya bilmir.

2. Darvinizm nəzəriyyəsinin ortaya atdığı "təkamül mexanizmləri"nin həqiqətdə təkmilləşdirici təsirə malik olduğunu göstərən heç bir elmi sübut yoxdur.

3. Daşlaşmış bitki qalıqları və torf qatları təkamül nəzəriyyəsinin irəli sürdüyü proqnozların tam əksini ortaya çıxarır.



**Çarlz Darvin**

Bu bölümdə qeyd edilən əsas müddəaları onların mahiyyəti baxımından incələyəcəyik.

## Keçilə bilməyən ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərini ibtidai dünyada təxminən 3,8 milyard il əvvəl meydana çıxan yeganə bir canlı hüceyrədən əmələ gəldiyini iddia edir. Tək hüceyrənin milyonlarla kompleks canlı növünü necə meydana gətirməsi və belə bir təkamül əgər həqiqətən də olubsa, bunun izlərinin daşlaşmış bitki qalıqlarında, torf qatlarında niyə tapılmaması darvinizm nəzəriyyəsinin cavablandıra bilmədiyi suallardır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül mərhələsinin ilk pilləsində dayanmaq lazımdır: bəhs edilən o "ilk hüceyrə" necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı rədd etdiyi və heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün "ilk hüceyrə"nin heç bir plan və nizam-intizam olmadan, təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə görə, cansız maddə təsadüflər nəticəsində ortaya canlı bir hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən əsas bioloji qanunlara zidd iddiadır.

## "Həyat həyatdan gəlir"

Darvin öz kitabında həyatın mənbəyi barədə heç nə qeyd etməyib. Çünki onun dövründəki ibtidai elm canlıların çox sadə bir quruluşa malik olduğunu güman və iddia edirdi. Orta əsrlərdən bəri böyük etimad bəslənən və "spontan generasiya" adlanan nəzəriyyənin tərəfdarları cansız maddələrin təsadüfən bir yerə yığışıb canlı bir varlıq meydana gətirməsinə inanırdı. Bu dövrdə böcəklərin yemək qalıqlarından, siçanların isə buğdadan əmələ gəldiyinə şübhə etmirdilər. Bunu isbat etmək üçün hətta qəribə təcrübələr də aparmışdılar. Çirkli bir parçanın üstünə bir az buğda qoyulmuş, bir qədər gözləyərlərsə, bu çulğaşmadan siçanların meydana gələcəyi zənn edilmişdi.

Çiy ətin qurd salması da həyatın cansız maddələrdən meydana gəlməsinə dəlil sayılırdı. Halbuki daha sonralar məlum olacaqdı ki, ətin üstündə yaranan qurdlar öz-özünə meydana gəlmir, milçəklərin gətirib ora qoyduğu gözlə görünməyən sürfələrdən çıxırlar.

Darvin özünün "Cinslərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə elm dünyası belə hesab edirdi ki, bakteriyalar cansız maddədən meydana gəlir. Halbuki məşhur fransız bioloqu Luis Paster təkamülün əsası olan bu inancı Darvinin kitabının nəşr edilməsindən beş il sonra qəti olaraq rədd etdi. Paster apardığı çalışma və təcrübələrdən sonra gəldiyi nəticəni belə xülasə edirdi:

> "Cansız maddələrin həyat əmələ gətirməsinə dair iddia daha qəti olaraq tarixin arxivinə verilmişdir" *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, Marcel Dekker, New York, 1977, səh. 2)*



**Fransız bioloqu Luis Paster**

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin gəldiyi nəticələrə qarşı uzun müddət mübarizə apardılar. Ancaq inkişaf edən elm canlı hüceyrənin mürəkkəb quruluşunu ortaya çıxarandan sonra həyatın öz-özünə meydana gəlməsi iddiasının çürüklüyü bir daha və qəti şəkildə aydın oldu.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusu ilə bağlı proseslərin önündə gedən ilk təkamülçü məşhur rus bioloqu Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrənin təsadüfən meydana gələ biləcəyini isbat etməyə çalışdı. Ancaq onun bu axtarışları nəticəsiz qaldı. Oparin bunu etiraf etməyə məcbur oldu:

> "Təəssüf ki, hüceyrənin mənşəyi problemi təkamül nəzəriyyəsini bütövlükdə əhatə edən ən qaranlıq məsələni təşkil edir" *(Alexander I. Oparin, Origin of Life, Dover Publications, New York, (1936), 1953 (reprint), səh. 196)*

Oparinin arxasınca gedən təkamülçülər həyatın mənşəyi mövzusunu bir yerə çıxara bilmək üçün təcrübələr aparmağa səy göstərdilər. Bu təcrübələrin ən məşhuru amerikalı kimyagər Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. S.Miller ibtidai dünyanın atmosferində olduğunu iddia etdiyi qazları bir təcrübə vasitəsilə birləşdirərək və bu reaksiyaya enerji əlavə edərək proteinlərin tərkibindəki bir neçə üzvi molekulu (aminoasit) sintez etdi. Həmin illərdə əhəmiyyətli bir mərhələ kimi təqdim olunan bu təcrübənin nəticəsiz qalması və təcrübədə istifadə edilən at-



**Təkamülçülərin ən böyük səhvlərindən biri də yuxarıda təmsili təsviri görünən və ibtidai dünya hesab etdikləri şəraitdə canlıların öz-özünə meydana gəldiyini fikirləşmələridir. Miller təcrübəsi kimi cəhdlərlə bu iddialarını sübut etməyə səy göstərmişlər. Ancaq elmi kəşflər qarşısında yenə məğlub olmuşlar. Çünki 1970-ci illərdə əldə edilən nəticələr «ibtidai dünya» adlandırılan dövrdəki atmosferin həyatın meydana gəlməsi üçün əlverişli olmadığını sübut etmişdir.**

mosferin gerçək dünya atmosferindən çox fərqli olması gələcək illərdə ortaya çıxacaqdı *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, noyabr 1982, ss. 1328-1330)*

Uzun müddət davam edən bu səssizlikdən sonra Millerin özü də istifadə elədiyi atmosferin həqiqi olmadığını etiraf etdi *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi məsələsini açıqlamaq üçün təkamülçülərin XX əsrdə apardığı bütün səylər nəticəsiz qaldı. San Dieqo Skripps İnstitutundan olan tanınmış geokimyaçı Ceffri Bada təkamülçü "Earth" jurnalında

1998-ci ildə nəşr edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> "Bu gün XX əsri arxada qoyarkən hələ XX əsrə daxil olanda malik olduğumuz ən böyük həllini tapmamış problemlə qarşı-qarşıyayıq: həyat Yer üzündə necə başladı?" *(Jeffrey Bada, Earth, fevral 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi mövzusunda çox ciddi çətinliyə düşməsinin əsas səbəbi ən sadə hesab edilən canlı orqanizmlərin inanılmayacaq dərəcədə qarmaqarışıq quruluşa malik olmasıdır. Canlı varlığın hüceyrəsi insan övladının düzəltdiyi texniki məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən inkişaf etmiş laboratoriyalarında da cansız maddələri bir yerə yığaraq canlı hüceyrə əldə etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazım olan şərtlər heç vaxt təsadüflərlə izah edilməyəcək qədər çoxdur. Hüceyrənin əsaslarından biri olan proteinlərin təsadüfi olaraq sintezləşmə ehtimalı isə 500 aminoasitlik yuvarlaq bir protein üçün $10^{950}$-də 1-dir. Ancaq riyaziyyatda $10^{50}$-də 1-dən aşağı olanlar "imkansız" sayılır. Hüceyrənin nüvəsində yerləşən və özündə genetik bilgini gizlədən DNT molekulu isə inanılmaz bir məlumat bankıdır. Hesablamalara əsasən, insan DNT-sinin ehtiva etdiyi məlumat kağıza köçürülə bilsə, 500 səhifədən ibarət 900 cildlik bir kitabxana meydana gələ bilər. Bu nöqtədə çox maraqlı bir dilemma da var: DNT ancaq bəzi xüsusiləşmiş proteinlərin köməyi ilə cütləşə bilir. Ancaq bu proteinlərin sintezi də ancaq DNT-dəki məlumatlara uyğun olaraq həyata keçir. Bir-birinə bağlı olduqlarına görə cütləşmənin meydana gələ bilməsi üçün onların ikisinin də eyni anda mövcud olması lazımdır. Bu isə həyatın özü-özündən meydana gəlməsi barədəki ssenarini çətinliyə salır. San Dieqo Kaliforniya Universitetindən məşhur təkamülçü alim, professor Lesli Orgel (Leslie Orgel) "Scientific American" jurnalının 1994-cü ilin oktyabr ayındakı sayında bu həqiqəti belə etiraf edir:

> "Son dərəcə kompleks quruluşlara sahib olan proteinlərin və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni vaxtda təsadüf nəticəsində əmələ gəlməsi hətta ehtimaldan da həddindən artıq uzaqdır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Dolayısı ilə insan həyatın kimyəvi yollarla ortaya çıxmasının heç vaxt mümkün olmaması nəticəsinə gəlmək məcburiyyətində qalır" *(Leslie E. Orgel, "The Origin of Life on Earth", Scientific American, c. 271, oktyabr 1994, səh. 78)*



**Təkamül nəzəriyyəsini etibarsız edən həqiqətlərdən biri canlıların inanılmaz dərəcədə kompleks quruluşa malik olmasıdır. Canlı hüceyrələrin nüvəsində mövcud olan DNT molekulu bunun bir nümunəsidir. DNT dörd fərqli molekulun müxtəlif düzülüşlərindən meydana gələn bir növ məlumat bankıdır. Bu məlumat bankında canlı ilə əlaqəli bütün fiziki xüsusiyyətlərin şifrələri yer alır. İnsan DNT-si kağıza yazılsa, ortaya təxminən 900 cildlik ensiklopediya çıxacağı ehtimal olunur. Əlbəttə, belə fövqəladə bir məlumat təsadüfdən yarana bilməzdi.**

Şübhəsiz ki, əgər həyatın təsadüflərlə ortaya çıxmasının qeyri-mümkünlüyü təsdiqlənirsə, bu vəziyyətdə onun fövqəltəbii şəkildə yaradıldığını qəbul etmək lazımdır. Bu həqiqət isə əsas məqsədi yaradılışı rədd etmək olan təkamül nəzəriyyəsinin açıq-aşkar mənasızlığını ortaya çıxarır.

## Təkamülün xəyali mexanizmləri

Darvinizm nəzəriyyəsini puç edən başqa ikinci böyük məsələ bu nəzəriyyənin "təkamül mexanizmləri" kimi ortaya atdığı iki anlayışın da əsl həqiqətdə heç bir təkmilləşdirici gücə malik olmamasının sübuta yetirilməsidir. Darvin ortaya atdığı təkamül iddiasını tam şəkildə "təbii seleksiya" mexanizminə bağlamışdı. Onun bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da görünürdü: "Cinslərin mənşəyi təbii seleksiya yolu ilə".

Təbii seleksiya təbii seçmə deməkdir və təbiətdəki həyat mübarizəsində təbii şərtlərə uyğun olan güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən hürküdülən bir maral sürüsündə daha sürətli qaça bilənlər həyatda qalacaqlar. Beləliklə, maral sürüsü sürətlilərdən və güclülərdən meydana gəlməlidir. Ancaq bu mexanizm maralları əlbəttə, təkmilləşdirməz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Dolayısı ilə təbii seleksiya mexanizmi heç bir təkmilləşdirici gücə ma-

lik deyil. Darvin də bu həqiqətin fərqində idi və "Cinslərin mənşəyi" kitabında "faydalı dəyişikliklər meydana gəlmədiyi vaxtda təbii seleksiya heç nə edə bilməz" demək məcburiyyətində qalmışdı *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189)*

## Lamarkın təsiri

Yaxşı, bəs bu "faydalı dəyişikliklər" necə meydana gəldi? Darvin öz dövrünün ibtidai elm anlayışı daxilində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloqu Lamarka görə, canlılar həyatları boyu məruz qaldıqları fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə ötürülərək yığılan bu xüsusiyyətlər nəticəsində isə yeni cinslər meydana çıxır. Məsələn, Lamark deyirdi ki, zürafələr ceyranlardan əmələ gəliblər. Belə ki, hündür ağacların yarpaqlarını yemək üçün səy göstərərkən onların nəsildən-nəslə boyları uzanıb.

Darvin də buna oxşar misallar gətirmiş, məsələn, "Cinslərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların bir müddət sonra balinalara çevrildiyini iddia etmişdi *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

Amma Mendel tərəfindən kəşf olunmuş və XX əsrdə inkişaf edən genetika elmi ilə öz qəti təsdiqini tapmış atavizm qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini qəti olaraq darmadağın etdi. Beləliklə, təbii seleksiya bütünlüklə təsirsiz bir mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətdən bir çıxış yolu tapmaq üçün 1930-cu illərin axırlarında "Müasir sintetik nəzəriyyə"ni, daha məşhur adı ilə desək, neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seleksiya konsepsiyasına "faydalı dəyişikliklərin səbəbi" kimi mutasiyaları, yəni canlıların genlərinə radiasiya kimi xarici təsirlərin, ya da köçürmə səhvləri nəticəsində meydana gələn pozuntuları əlavə etdi.

Bu gün dünyada təkamül adına hələ də qəbul edilən model neodarvinizmdir. Nəzəriyyə Yer üzündə olan milyonlarla canlı növünün, bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız kompleks orqanlarının "mutasiyalara", yəni genetik pozuntulara əsaslanan bir mərhələ nəticəsində əmələ gəldiyini iddia edir. Ancaq nəzəriyyəni kəsərsiz edən açıq bir elmi həqiqət var: mutasiyalar canlıları inkişaf etdirməz, əksinə, onlara həmişə zərər verərlər.

Bunun səbəbi çax sadədir: DNT çox kompleks bir quruluşa malikdir. Bu molekul üzərində meydana gələn hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G.Ranganathan bunu belə açıqlayır:

> "Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir hallarda meydana gəlirlər və ən yaxşı ehtimalla təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamülçü bir inkişafa səbəb ola bilməyəcəyini göstərir. Onsuz da yüksək dərəcədə əlahiddələşmiş bir orqanizmdə meydana gələn təsadüfi bir hal ya təsirsiz olacaq, ya da zərərli. Bir qol saatında meydana gələcək təsadüfi dəyişiklik onu inkişaf etdirməyəcəkdir. Böyük ehtimalla ona zərər verəcək və ya ən yaxşı ehtimalla təsirsiz qalacaq. Bir zəlzələ bir şəhəri inkişaf etdirməz, əksinə, onu dağıdar" *(B.G. Ranganathan, Origins?, The Banner Of Truth Trust, Pennsylvania, 1988)*

Bu günə qədər heç bir faydalı mutasiya nümunəsi olmayıb. Bütün mutasiyaların zərərli olduğu müəyyənləşdi. Aydın oldu ki, təkamül nəzəriyyəsinin "təkamül mexanizmi" kimi göstərdiyi mutasiyalar həqiqətdə canlılara ancaq ziyan verən, onları şikəst edən bir genetik hadisədir. (İnsanlarda mutasiyanın ən çox görünən təsiri xərçəng xəstəliyidir) Əlbəttə, zərərverici bir mexanizm "təkamül mexanizmi" ola bilməz. Təbii seleksiya isə Darvinin də qəbul etdiyi kimi, "özbaşına heç nə edə bilməz". Bu həqiqət bizlərə təbiətdə heç bir "təkamül mexanizmi"nin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə isə təkamül deyilən xəyali mərhələ də ola bilməz.

## Daşlaşmış qalıqlarda keçid formalarının izi yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin baş verməməsinin ən açıq sübutu isə daşlaşmış bitki qalığı qatları, torf laylarıdır. Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birindən törəmişdir. İlk canlı növü vaxt keçəndən sonra başqa formaya çevrilmiş və bütün cinslər bu şəkildə ortaya çıxmışdır. Nəzəriyyəyə görə, bu dəyişiklik yüz milyon illər boyu sürərək mərhələ-mərhələ davam etmişdir.

Bu vəziyyətdə iddia edilən uzun dəyişiklik müddəti boyunca saysız-hesabsız "ara cinslər"in meydana gəldiyini və yaşadığını qəbul etmək lazımdır. Məsələn, keçmişdə özündə balıq xüsusiyyətlərinin olmasına baxmayaraq, bir yandan da bəzi sürünənlərin xüsusiyyətlərini qazanmış yarı balıq-yarı sürünən canlılar yaşamış olmalı idi. Yaxud da sürünənlərin xüsusiyyətlərinə malik olarkən bir yandan da bəzi quş xüsusiyyətləri qazanmış sürünən-

# Yaşayan daşlaşmış qalıqlar (fosillər) təkamülü süquta uğradır





**Ordovikien dövrünə aid olan 450 milyon illik «at dırnağı xərçəngi» daşlaşmış qalığı (fosili)**





**150-200 milyon illik iynəcə daşlaşmış qalığı (Yurassic-Recent dövrü)**





**100-150 milyon illik krevetka (xırda dəniz xərçəngi) daşlaşmış qalığı fosili (Təbaşir dövrü)**

**Şəkillərdən də göründüyü kimi, arxeoloji, ekoloji qazıntılar nəticəsində tapılan bütün daşlaşmış qalıqların (fosillərin) nümunələrinin dövrümüzdə yaşayan nümunələrdən heç bir fərqi yoxdur.**

quşlar ortaya çıxmalı idi. Ancaq onlar keçid mərhələsində olduqları üçün şikəst, nöqsanlı və qüsurlu canlılar olmalı idilər. Təkamülçülər keçmişdə yaşadıqlarına inandıqları bu nəzəri məxluqlara "ara keçid forması" adını verirlər.

Əgər həqiqətən keçmişdə bu cür canlılar yaşayıbsa, onda onların sayları və növləri milyonlarla, hətta milyardlarla olmalı idi. Və bu qəribə canlıların qalıqlarına mütləq daşlaşmış qalıqlarda, torf laylarında rast gəlinməli idi. Darvin "Cinslərin mənşəyi"ndə bunu belə açıqlamışdır: "Əgər nəzəriyyə düzdürsə, cinsləri bir-birinə bağlayan saysız ara keçid növləri mütləq yaşamalıdır... Bunların yaşamasına dair sübutlar da təkcə daşlaşmış bitki qalıqları qatları arasında tapıla bilər *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179.)*

## Darvinin puç olan ümidləri

XIX əsrin ortalarından etibarən dünyanın dörd bir tərəfində daşlaşmış qalıqlar tədqiq edilsə də, həmin laylarda bu ara keçid formalarına heç vaxt rast gəlinməyib. Aparılmış qazıntı və araşdırmalar zamanı əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə olaraq göstərdi ki, canlılar Yer üzündə birdən-birə, nöqsansız və qüsursuz bir şəkildə ortaya çıxıblar.

Tanınmış ingilis paleontoloqu Derek U.Eger özü təkamülçü olsa da bu gerçəyi belə etiraf edir:

> "Problemimiz budur ki, geoloji layları, daşlaşmış qatları bütün təfərrüatı ilə araşdıranda, istər cinslər, istərsə də siniflər səviyyəsində olsun, davamlı olaraq həmişə eyni həqiqətlə qarşılaşırıq: mərhələli təkamüllə inkişaf edən deyil, Yer kürəsində birdən-birə meydana gələn qruplar görürük *(Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)*

Yəni bütün canlı növləri daşlaşmış laylarda aralarında heç bir keçid forması olmadan, nöqsansız şəkildə ani olaraq ortaya çıxırlar. Bu isə Darvinin düşüncülərinin tam əksi və canlı növlərinin yaradıldığını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün özü-özündən təkmilləşməsinin, heç bir ata olmadan bir anda və qüsursuz olaraq ortaya çıxmasının yeganə izahı, o cinsin yaradılmasıdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> "Yaradılış və təkamül hazırda yaşayan canlıların mənşəyi haqqında iki mümkün açıqlamalardır. Canlılar dünya üzərində ya tamamilə mükəmməl və nöqsansız bir şəkildə ortaya çıxmışdır, ya da belə olmamış-



**Kambrien qayalıqlarında tapılan daşlaşmış qalıqlar ilbizlər, trilobitlər, süngərlər, soxulcanlar, meduzalar, dəniz ulduzları, üzən qabıqlılar, dəniz zanbaqları kimi kompleks onurğasız növlərinə aiddir. Maraqlı olanı bir-birindən çox fərqli olan bu növlərin hamısının bir anda ortaya çıxmalarıdır. Buna görə də geologiya ədəbiyyatında bu möcüzəli hadisə «Kambrien partlayışı» olaraq adlandırılır.**

> dır. Əgər belə olmayıbsa, onda bir dəyişiklik mərhələsi sayəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərinin təkamülü yolu ilə meydana gəlməlidirlər. Amma onlar əgər qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxıblarsa, o halda sonsuz güc sahibi bir ağıl tərəfindən yaradılmalıdırlar *(Douglas Y. Futuyma, Science on Trial, Pantheon Books, 1983, səh. 197)*

Daşlaşmış qalıqlar da canlıların Yer üzündə qüsursuz və mükəmməl şəkildə ortaya çıxdığını göstərir. Yəni cinslərin mənşəyi Darvinin iddiasının əksinə olaraq təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsini müdafiə edənlərin ən çox gündəmə gətirdiyi məsələ insanın mənşəyi məsələsidir. Bu məsələdəki darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər bəzi məxluqlardan əmələ gəldiyini bildirir. 4-5 milyon il bundan əvvəl başlandığı qəbul edilən bu mərhələdə müasir insanla onun əcdadları arasında bəzi "ara forma"ların yaşadığı iddia olunur. Həqiqətdə isə bütünlüklə xəyali olan bu ssenaridə dörd əsas "kateqoriya" sadalanır:

1. Australopithecus
2. Homo habilis
3. Homo erectus
4. Homo sapiens.

Təkamülçülər insanların guya ilk meymunabənzər əcdadlarına "cənub meymunu" mənasına gələn "australorithecus" adını verirlər. Bu canlılar həqiqətdə nəsli tükənmiş bir meymun cinsindən başqa bir şey deyil. İngiltərə və ABŞ-dan olan lord Soli Zakerman (Lord Solly Zuckerman) və prof. Çarlz Oksnerd (Charles Oxnard) kimi dünyanın iki məşhur anatomistinin australorithecus nümunələri üzərində apardıqları çox əhatəli çalışmalar bu canlıların yalnız nəsli kəsilmiş bir meymun cinsinə aid olmasını və onların insanlarla heç bir oxşarlığa malik olmadığını göstərmişdir (Solly Zuckerman, Beyond The Ivory Tower, Torlinger Publications, New York, 1970, ss. 75-94; Charles E. Oxnard, "The Place of Australorithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)

Təkamülçülər insan təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan olaraq təsnif edirlər. İddialara görə, homo sırasındakı canlılar australorithecus-lardan daha çox inkişaf etmişdilər. Təkamülçülər bu fərqli canlılara aid fəsilləri ard-arda düzərək xəyali bir təkamül cədvəli təşkil edirdi. Bu cədvəl xəyalidir, çünki həqiqətdə bu müxtəlif siniflər arasında təkamül əlaqəsinin olduğu heç vaxt sübut edilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm müdafiəçilərindən biri olan Ernst Meyr (Ernst Mayr) "Homo sapiensə uzanan zəncir həqiqətdə itkindir" deyərək bunu qəbul edir *(Y. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)*

Təkamülçülər australorithecus-homo habilis-homo erectus-homo sapiens sıralamasını tərtibləyərkən bunların hər birinin ondan sonra gə-



**Təkamülçülərin kütləvi informasiya vasitələri ilə apardıqları təbliğatın ən mühüm xüsusiyyəti "qəhrəmanlarının" xəyal məhsulu olan meymunaoxşar canlılar olaraq təvsir edilmələridir. Heç bir elmi, arxeoloji tapıntıya əsaslanmayan bu xəyali təsvirlərin məqsədi xalqı çaşdırmaq və təkamül nəzəriyyəsinin olduğuna inandırmaqdır.**

lənin atası olması təsvirini yaratmağa çalışırlar. Halbuki paleoantropoloqların son tapıntıları australorithecus, homo habilis və homo erectus-un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını sübut etmişdir *(Alan Walker, Science, c. 207, 1980, səh. 1103; A.Y.Kelso, Physical Antropology, 1. nəşr, Y.B.Lirincott Co., New York, 1970, səh. 221; M.D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge University Press, Cambridge, 1971, səh. 272)*

Homo erectus sinifinə daxil edilən insanların bir hissəsi müasir dövrlərə qədər, homo sapiens neandertal və homo sapiens isə sapiens (müasir) insanla eyni şəraitdə yan-yana yaşamışlar *(Time, noyabr 1996)*

Bu isə əlbəttə, bu siniflərin bir-birinin əcdadı olması iddiasının qüvvədə qalmadığını aydın şəkildə ortaya qoyur. Harvard Universiteti (ABŞ) paleontoloqlarından Stefan Cey Quld (Stephen Jay Gould) özü bir təkamülçü olsa da, darvinizm nəzəriyyəsinin bu çətinliyini belə izah edir:

> "Əgər bir-biri ilə paralel olaraq yaşayan üç müxtəlif hominid (insanabənzər) cizgisi varsa, elə isə bizim nəsil ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən meydana çıxmış ola bilməz. Bunların biri digəri ilə müqayisə ediləndə təkamül nəticəsində bir inkişaf ardıcıllığı göstərə bilmirlər" *(S.Y. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısası, mətbuatda və ya dərs kitablarında qeyd edilən və xəyalların məhsulu olan bəzi "yarımeymun, yarıinsan" canlıların şəkilləri ilə, yəni

ancaq təbliğat yolu ilə güclə saxlanmağa çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər araşdıran, xüsusilə australorithecus fəsilləri üzərində 15 il tədqiqat aparan İngiltərənin ən məşhur və mötəbər alimlərindən biri lord Soli Zakerman özü bir təkamülçü idi, amma o da ortada meymunabənzər canlılardan insana gəlib çıxan həqiqi bir nəsil ağacının olmadığı nəticəsinə gəlmişdir.

Lord S.Zakerman bir də maraqlı bir "elm şkalası" hazırlamışdı. O, elmi olaraq qəbul etdiyi elm sahələrindən elmdən uzaq olaraq qəbul etdiyi elm sahələrinə qədər bir cədvəl təşkil etmişdi. Lord S.Zakermanın bu cədvəlinə görə, elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra biologiya elmləri, sonra da sosial elmlər yerləşir. Cədvəlin sonunda, yəni elmdən ən kənar hesab edilən hissədə isə telepatiya, "altıncı hiss" kimi "hissdənkənar dərk etmək" anlayışı, bir də "insanın təkamülü" vardır! Lord Zakerman cədvəlin bu hissəsini belə izah edir:

> “Obyektiv gerçəkliyin sahəsindən çıxıb da bioloji elm olaraq qəbul edilən bu sahələrə, yəni hissdənkənar idraka və insanın daşlaşmış tarixinin izah edilməsinə daxil olanda, təkamül nəzəriyyəsinə inanan bir adam üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, öz nəzəriyyələrinə qəti olaraq inanan bu adamların hətta bəzi ziddiyyətli qərarları eyni anda qəbul etməsi də mümkündür” *(Solly Zuckerman, Beyond The Ivory Tower, Torlinger Publications, New York, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da öz nəzəriyyələrinə kor-koranə inanan bəzi insanların tapdıqları bəzi daşlaşmış qalıqları əvvəlcədən qəbul etdikləri fikirlərinə uyğun olaraq izah etməkdən ibarətdir.

## Darvin düsturu!

Bura qədər qeyd etdiyimiz bütün texniki sübutlarla yanaşı təkamülçülərin necə cəfəng bir inanca malik olmasını bir də uşaqların da başa düşəcəyi qədər aydın bir misalla xülasə edək.

Təkamül nəzəriyyəsi canlı aləmin təsadüfən meydana gəldiyini iddia edir. Dolayısı ilə bu iddiaya görə, cansız və şüursuz atomlar bir yerə yığılaraq əvvəlcə hüceyrəni, sonra da eyni atomlar hər hansısa bir şəkildə digər canlıları və insanı meydana gətirmişdir. İndi fikirləşək. Canlı alə-



**Gözü və qulağı kamera və səs yazan cihazlarla müqayisə edəndə bu orqanlarımızın qeyd edilən texnologiya məhsullarından daha mürəkkəb, daha həssas, daha qüsursuz quruluşlara malik olduqlarını görürük.**

min əsasları olan karbon, fosfor, azot, potasium bircə canlı da meydana gətirə bilməzlər. İstəsəniz bu məsələdə bir "təcrübə" aparaq və təkamülçülərin əslində müdafiə etdikləri, ancaq uca səslə deyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" ilə incələyək.

Təkamülçülər canlı aləmin əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən çoxlu sayda böyük çənin içinə bol miqdarda qoysunlar. Hətta adi hallarda olmayan, ancaq bu qarışığın içində olmalıdır dedikləri bəzi ləvazimatları da bu çənə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər aminosit, istədikləri miqdarda da (birinin də təsadüfən meydana gəlmə ehtimalı 10-950 olan) protein doldursunlar. Bu qarışığa istədikləri kimi istilik və rütubət versinlər. Bunları istədikləri inkişaf etmiş cihazlarla qarışdırsınlar. Çənlərin yanına da bu dünyanın ən məşhur alimlərini dəvət etsinlər. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il davamlı olaraq çənlərin yanında gözləsinlər. Bir canlının meydana gəlməsi üçün hansı şərtlərin mövcud olmasına inanırlarsa, hamısından istifadə etmək sərbəst olsun. Ancaq nə edirlərsə-etsinlər, o çənlərdən qə-

tiyyən bir canlı çıxara bilməyəcəklər. Zürafələri, şirləri, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, yemişləri, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuzquşularını, qırqovulları, müxtəlif rəngli kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Burada adını qeyd etdiyimiz bu canlı varlıqların tək bir hüceyrəsini də əldə edə bilməzlər.

Qısası, şüursuz atomlar bir yerə yığılaraq hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni bir qərar verərək bir hüceyrəni iki yerə ayıran, daha sonra bir-birinin ardınca fərqli qərarlar verən, elektron mikroskopunu kəşf edən, sonra öz hüceyrə quruluşunu bu mikroskopun altında incələyən professorları da əmələ gətirə bilməzlər.

Maddə ancaq Allahın üstün yaratması ilə canlı ola, həyat tapa bilər. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə təfəkkür və idraka tamamilə zidd olan bir cəfəngiyyatdır. Təkamülçülərin ortaya atdığı iddialar ətrafında bir az düşünmək, haqqında yuxarıda danışılan nümunədə olduğu kimi, bu həqiqəti də aydın şəkildə göstərir.

## Gözdəki və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin heç vaxt izah edə bilməyəcəyi başqa bir məsələ isə gözdəki və qulaqdakı mükəmməl hissetmə (lamisə) keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "necə görürük?" sualına qısa da olsa cavab verək. Bir cisimdən gələn şüalar gözə tərs olaraq düşürlər. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beynin arxa tərəfindəki görmə mərkəzi deyilən kiçik bir nöqtəyə ötürülür. Bu elektrik siqnalları sıra ilə davam edən icraatlardan sonra beyindəki bu mərkəzdə görüntü olaraq hiss edilir və görülür.

Bu məlumatdan sonra indi bir az fikirləşək. Beyin işıq üçün qapalıdır. Yəni beynin içi qapqaranlıqdır, işıq beynin olduğu yerə qədər gedib çıxa bilməz. Görüntü mərkəzi deyilən yer zülmət qaranlıq, işığın heç vaxt çata bilmədiyi, bəlkə də heç vaxt rast gəlmədiyiniz qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlığında işıqlı, parlaq bir dünyanı seyr edirsiniz. Həm də bu o qədər aydın və keyfiyyətli bir görüntüdür ki, XXI əsrin texnologiyası da hər cür imkan sahibi olmasına baxmayaraq, bu görüntünü əldə edə bilməmişdir. Məsələn, hazırda oxuduğunuz kitaba, ki-

tabı tutan əllərinizə baxın. Sonra başınızı qaldırın və ətrafınıza nəzər salın. İndi gördüyünüz aydınlıq və keyfiyyətdəki bu görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın bir görüntünü sizə dünyanın bir nömrəli televizor şirkətinin istehsal etdiyi ən mükəmməl televizor ekranı da verə bilməz. 100 ildir minlərlə mühəndis bu aydınlığı əldə etməyə çalışır. Bunun üçün fabriklər, nəhəng təsisatlar qurulur, tədqiqatlar aparılır, planlar və layihələr hazırlanır. Yenə də bir televiziya ekranına baxın, bir də əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizor ekranı sizə ikiölçülü bir görüntü göstərir, halbuki siz üçölçülü, dərin bir perspektivi görürsünüz.

Uzun illərdir on minlərlə mühəndis üçölçülü televizor hazırlamağa, gözün görmə keyfiyyətinə yiyələnməyə səy göstərir. Bəli, üçölçülü televizor sistemini hazırlaya bildilər, ancaq onu da eynəksiz görmək mümkün deyil. Bu, eyni zamanda süni bir üçölçülü sistemdir. Arxa tərəf daha bulanıq, qarşı tərəf isə kağızdan hazırlanmış dekorasiya kimi görünür. Heç vaxt gözün gördüyü qədər dəqiq və keyfiyyətli bir görüntü ola bilməz. Kamerada da, televizorda da mütləq görüntü itkisi baş verir.

Təkamülçülər bu keyfiyyətli və dəqiq görüntünü təşkil edən mexanizmin təsadüfən meydana gəldiyini iddia edirlər. İndi bir adam sizə otağınızın bir küncündəki televizorun təsadüflər nəticəsində meydana gəldiyini, "atomlar bir yerə toplandı və bu göstərən cihazı meydana gətirdi" desə, nə fikirləşərsiniz? Minlərlə adamın bir yerə yığışaraq düzəldə bilmədiyini şüursuz atomlar necə edə bilər?

Gözün gördüyündən daha ibtidai olan bu görüntünü meydana gətirən cihaz təsadüfən meydana gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi aydın məsələdir.

Bu məsələ qulaq üçün də eynidir. Xarici qulaq ətrafdakı səsləri qulaq çömçəsi vasitəsilə yığıb orta qulağa ötürür. Orta qulaq aldığı səs tirtəyişlərini gücləndirərək daxili qulağa ötürür. Daxili qulaq da bu titrəyişləri elektrik siqnallarına döndərərək beyinə göndərir. Eynilə görmə məsələsində olduğu kimi eşitmək icraatları da beyindəki eşitmə mərkəzində həyata keçir.

Gözdəki vəziyyət qulaq üçün də qüvvədə qalır, yəni beyin işığa olduğu kimi səsə də qapalıdır, səsi keçirmir. Dolayısı ilə ətraf nə qədər gurultulu olsa da, beynin içi tamamilə səssizdir. Buna baxmayaraq ən dəqiq səslər beyində hiss edilir. Səs keçirməyən beynimizdə bir orkestrin sim-



**Bir suiti balığına baxan insan bu canlını beynində görür. Beynində gördüyü bu canlının özəlliklərini yenə beynin içində araşdırır və tədqiq edir. Öyrəndikləri isə ona Allahın yaradışınlakı qüsursuzluğu, Onun elminin sonsuzluğunu göstərir.**

foniyalarını eşidərsiniz, izdihamlı bir məkanın bütün gurultusunu eşidərsiniz. Ancaq həmin anda həssas bir cihazla beynimizin içindəki səs səviyyəsi ölçülsə, burada mütləq bir səssizliyin hakim olduğu görünəcək.

Dəqiq bir görüntü əldə edə bilmək üçün indiyə qədər texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdir ki, davam edir. Səsi qeyd etmək cihazları, çoxlu elektrik aləti, səsi qeyd edən musiqi sistemləri bu səylərin bəzilərinin nəticələridir. Ancaq bütün bu texnologiyaya, bu texnologiyada işləyən minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq, qulaqdakı dəqiq və keyfiyyətli bir səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi alətini fikirləşin. Səsi qeyd edəndə mütləq səsin bir hissəsi itir və ya az da olsa mütləq xışıltı əmələ gəlir. Musiqi cihazını açanda musiqi başlama-

